# DÜŞMƏN NÜFUZU

*Proqramlaşdırılmış düşmən nüfuzu layihəsinin Cənab Ayətullah Xameneinin baxışı əsasında araşdırılması*

بسم الله الرحمن الرحيم

**Kitabın adı:........................Düşmən nüfuzu**
**Tərcümə edən:.......................Maqsud Sayıl**
**Hazırlayan:.....Məhəmməd Tacik Rüstəmi**
**Çap tarixi:............................................2018**
**Çap növbəsi:......................................Birinci**
**Tiraj:.....................................................1000**

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 2-19-000511-5

***Bu gün İran İslam Respublikası üçün düşmən nüfuzu böyük təhlükələrdən biridir. Düşmən nüfuz etmək istəyir. Nüfuz nədir? Nüfuz iqtisadi ola bilər. Əlbəttə ki, düşmən nüfuzunun ən az təsirlisi iqtisadi nüfuzdur. Təhlükəsizlik sahəsində nüfuz da kiçik ola bilər. Amma təhlükəsizlik sahəsində nüfuz düşüncə, mədəniyyət, siyasət sahəsində nüfuzla müqayisədə kiçikdir. Yoxsa onu kiçik saymaq olmaz.***

## Mündəricat

Müqəddimə ....................................................................................7
Ön söz ..........................................................................................8
Birinci fəsil: Düşmən nüfuzunun mahiyyəti....................................16
Düşmən nüfuzu ölkə üçün ən böyük təhlükədir ...............................16
Nüfuz etmək hərbi müdaxilə əvəzinə münasib variantdır.................19
Nüfuz etmək modern istismardır.....................................................21
Düşmən nüfuzu ölkənin inkişafına qarşıdır......................................23
Düşmən nüfuz etmək istəyir! ...........................................................26
Düşmənin məntəqədəki əsas planlarından biri nüfuz etməkdir..........28
Düşmən planının tərkibi, nüfuzetmə yönü ........................................33
Düşmənin planı nələrdən ibarətdir? ..................................................34
Düşmən nüfuzunun tamamlayıcıları .................................................36
Düşmən nüfuzunun hədəfi kimlərdir?...............................................37
Düşmən nüfuz etməkdən heç vaxt çəkinməyəcək!............................37
İslam göstəriş verir ki, düşmən nüfuzunun qarşısı alınsın..................39
İslam İnqilabı düşmən nüfuzu üzərindən xətt çəkib..........................42
Düşmən nüfuzunun qarşısını almaq İslam İnqilabının dəyişməz prinsiplərindəndir ..........................................................................43
Düşmənin İslam Respublikası ideallarına nüfuzu qarşısında dayanmaq ....................................................................................................47
İslam İnqilabı ilə düşmənçiliyin bir səbəbi düşmən nüfuzu qarşısında dayanmaqdır.................................................................................49
Hərbi qüvvələr düşmən nüfuzuna diqqətli olsun...............................53
Düşmən nüfuzunun növləri və formaları...........................................56
Düşmən nüfuzunun formaları...........................................................58
İnsan haqları adı altında düşmən nüfuzu...........................................63
İkinci fəsil: Düşmən nüfuzunun hədəfləri və vasitələri.....................67
Məmləkətə hakim olmaq düşmən nüfuzunun hədəflərindəndir .........67
Düşmən nüfuz etməklə modern istismar yaradır...............................68
Düşmən mənafelərinin genişləndirilməsi düşmən nüfuzunun məqsədlərindəndir..........................................................................69
Nüfuz etməklə imanı zəiflətmək .....................................................70
Əsas etiqadlarda təxribatçılıq düşmənin hədəflərindəndir .................71
Dini və inqilabi etiqadlara zərbə .......................................................73
Düşmən nüfuzunun hədəflərindən biri xalqın İslam ideallarına rəğbətini aradan qaldırmaqdır ..........................................................76

Düşmən nüfuzunun hədəflərindən biri gənc nəsil arasında fəsad, əxlaqsızlıq toxumu səpməkdir ........ 79
Düşmən nüfuzunun başqa bir hədəfi: Yoxsulluq və ayrıseçkilik yaratmaq ........ 79
Nüfuz etməklə məmləkətin həyati sahələrində inkişafın qarşısını almaq ........ 80
Daha bir düşmən nüfuzu: Məsulların hesablamalarını dəyişmək, xalqı dövlətə münasibətdə ümidsizləşdirmək ........ 82
Kütləvi informasiya vasitələri düşmən nüfuzunun mühüm vasitələrindəndir ........ 83
Üçüncü fəsil: Düşmən nüfuzu yaradan amillər ........ 85
Düşmən nüfuzundan qəflətdə olmaq zərbə almaqla nəticələnir ........ 85
Düşmən nüfuzuna diqqətsiz olanda düşmən səni borclu çıxarır ........ 87
Diqqətsizlik və qəflət düşmən nüfuzuna yol açır ........ 89
İki qrup düşmən nüfuzunu asanlaşdırır ........ 90
Düşmən bir mövzuya çox diqqət yetirirsə, bu onu göstərir ki, həmin mövzu nüfuz etmək üçün seçilib ........ 91
Müstəqilliyin olmaması düşmənin nüfuz yoludur ........ 92
Hakimiyyətə gələn ayrı-ayrı dövlətlərin zəifliyi düşmən nüfuzuna yol açır ........ 97
Düşmən nüfuzuna yol açan amillərdən biri şəxsiyyət, iradə zəifliyidir ........ 98
Amerika ilə rabitə düşmən nüfuzuna yol açmaqdır ........ 99
Müzakirə düşmənin nüfuzu üçün bir bacadır ........ 101
Seçkilərdə diqqətsizlik düşmən nüfuzuna səbəb olur ........ 107
İslam vəhdətinin olmaması düşmən nüfuzlarındandır ........ 109
Daha bir nüfuz yolu: Milli ixtilaf yaratmaq ........ 112
Nəfs istəkləri, şəxsi mənafelər ardınca getmək düşmən nüfuzuna yüzlərlə yol açır ........ 115
Tamaha salmaq, qorxutmaq, yalan düşmənin nüfuz yollarındandır ........ 115
Şayiə yaymaq düşmənin nüfuz yollarındandır ........ 117
Dördüncü fəsil: Düşmən nüfuzu ilə mübarizə yolları ........ 118
Düşmənin fitnəkarlığını, düşmən nüfuzunu tanımaq onunla mübarizə yoludur ........ 118
Düşmən nüfuzu qarşısında bəsirət möhkəm səddir ........ 119
Anı tanımaq düşmən nüfuzunu əngəlləmək yollarındandır ........ 122
İslam və ruhaniyyət düşmən nüfuzuna mane olur ........ 124
Düşmən nüfuzu ilə mübarizədə alim və ruhanilərin vəzifəsi ........ 127

Etiqadların dəyişdirilməsinə mane olmaq düşmən nüfuzu ilə mübarizədə ruhanilərin işidir .......................................................... 129
İmanı gücləndirmək, agahlıq, düşmənin tərpənişinə iti baxış düşmən nüfuzu ilə mübarizə yoludur .......................................................... 132
İslam şəriətinə bağlılıq düşmən nüfuzuna mane olur ....................... 133
İslamda düşmən nüfuzu ilə mübarizə yollarından biri Həccdir........ 137
İzzət düşmən nüfuzuna mane olur.................................................. 138
İstiqlal düşmən nüfuzu qarşısında səddir ........................................ 140
Cihad və şəhadət dəyərlərinin qorunması düşmən nüfuzu ilə mübarizə yollarındandır ........................................................................... 143
İslam vəhdəti düşmən nüfuzu ilə mübarizədə bir yoldur ................ 143
İmamın rəhbərliyi altında xalqın meydanda birliyi düşmən nüfuzuna mane oldu ......................................................................................... 146
Düşmən nüfuzu ilə mübarizə yollarından biri qanundur .................. 148
Hərtərəfli iqtidar düşmən nüfuzu ilə mübarizə yoludur ................... 150
Düşmən nüfuzuna qarşı ən yaxşı yol hazırlığı bəyan etməkdir........ 152
Nüfuza qarşı elm və araşdırma yolu................................................ 154
Tələbə cəmiyyətləri düşmən nüfuzuna diqqətli olsun ...................... 155
Gənclərin ayıqlığı düşmən nüfuzu qarşısında səddir........................ 159
Düşmən nüfuzu ilə mübarizədə bəsic - könüllülər mühüm amildir . 161

# Müqəddimə

Rəhbər Ayətullah Xameneinin buyuruqları əsasında hazırlanmış “Düşmən nüfuzu” kitabı gözəl tərtib olunmuşdur. Kitabda imkan həddində araşdırma və tərtibatla, bəyanatlar arasında əlaqələrin tapılması ilə düşmən nüfuzu və onun məqsədləri xəbərdarlıqedici və bəsirətverici səviyyədə qələmə alınıb.

Şübhəsiz ki, düşmən fəaliyyətlərindən yaranan təhlükələrin aradan qaldırılmasında bəsirət, düşməndən və onun məqsədlərindən xəbərdarlıq əsas işlərdəndir. Qurani-Kərimin iki ayəsi diqqətimizi lazımi həddə düşmən nüfuzuna yönəldir. Nisa surəsinin 102-ci ayəsində buyurulur ki, küfrə uğrayanlar sizin silahlarınızdan və olanlarınızdan qəflətdə qalmağınızı istərlər; bununla da sizə birdəfəyə hücum etsinlər. Ənfal surəsinin 60-cı ayəsində deyilir ki, düşmənə qarşı bacardığınız tədarükü görün; bu hazırlığınızla düşməni qorxudacaqsınız... Buyurulur ki, qəflətdə qalsanız, gözünüzü açanda görəcəksiniz ki, düşüncənizin dərinliyinədək nüfuz ediblər, inanclarınızı, düşüncə əsaslarınızı dəyişməklə sizi özlərinə əsirə çeviriblər...

Cənab Rəhbərin ardıcıl və zamanında göstərişlərinə şükür edib, bu göstərişlərdən İmamın zühuruna qədər faydalanmaq ümidi ilə!

*Dua istəyi ilə Mehdi Taib*

# Ön söz

Mühüm nüfuz[1] layihəsi insanın yaranışına, onun ilkin tarixinə gedib çıxır. Allah-Taala insanı yaradanda onun üçün müəyyən etiqadlar, dəyərlər müəyyənləşdirdi. Buyurdu ki, insanın kamillik və qurtuluş yolu bu etiqadlar və dəyərlərdən keçir. Əgər insan bu mühüm vəzifələrə əməl etməsə onun aqibəti cəhənnəmdir. Bu səbəbdən insanın qurtuluşuna düşmən olan şeytan işsiz dayanmır. O, insanı azdırmaq üçün bütün imkanlarından istifadə edir. Sad surəsinin 42-ci ayəsində oxuduğumuz kimi, şeytan Allahın izzətinə and içir ki, insanları yoldan azdıracaq.

Şeytan insanı cəhənnəmlik etmək istəyirsə bunun yolu nədir? Bunun yolu insanın etiqadlarını gizli şəkildə dəyişməkdir. Şeytan elə bir iş görməlidir ki, insanı Allahın təyin etdiyi vəzifələrin icrasından saxlasın. Demək, şeytan ya insanın etiqadlarını dəyişməli, ya da bunu bacarmasa onu etiqadlarına münasibətdə süstləşdirməlidir.

İnsanın etiqadları onun zehnində, düşüncəsindədir. Şeytan öz məqsədlərinə çatmaq üçün insanın zehninə nüfuz etməlidir. Yalnız bu yolla insanın etiqadını dəyişə bilər. Qurani-Kərimin təbirincə, şeytan insana nüfuz, sirayət etmək üçün heç nədən çəkinmir.[2] Sonra qarşısından və arxadan, sağdan və soldan onun sorağına gəlir. Bu yolla onu azdırmaq, doğru yoldan uzaqlaşdırmağa çalışır. Əmirəlmöminin Əli (ə) buyurur: “Mən sizi ilahi təqvaya çağırıram. Allah sizi bu yolla qorxutdu, sonra üzrə və bəhanəyə yer qalmadı, xəbərdarlığı, (höccəti) qarşınızda açdığı yolla tamamladı. Sizi əsl düşməndən həzər qılmağa

---

[1] Sirayət, gizli müdaxilə, sıralarımıza soxulma

[2] bax: Əraf surəsi, ayə 17

çağırdı, o düşmən gizlicə sinələrinizə nüfuz edər, gizlicə qulağınıza söz deyər, insanı yoldan azdırar, vədlər verər, onu arzuların qoynuna atar.”[1]

Deməksə, nüfuz şeytanın gizli şəkildə insanın zehninə daxil olub müqavimət layını yarması, həqiqəti batillə əvəz etməsi, zehn və əməllərdə iş görməsidir.

Şeytanın nüfuzuna bir düşmənçilik və onunla mübarizəyə bir zərurət kimi inanmaq istəsək, əvvəlcə şeytanın düşmən olduğuna inanmalıyıq. Sonra onun düşmənçilik yollarını öyrənməliyik.

Əgər Qurana müraciət etsək, Quranda 88 dəfə şeytanın adı təkrarlanıb. 25 dəfə vurğulanıb ki, şeytan sizin düşməninizdir. Ümumi şəkildə insana nüfuzun komandanlığı onun əlindədir. Bu səbəbdən şeytanla qarşılaşarkən və onunla mübarizə apararkən yüksək səviyyədə ayıq olmaq lazımdır. Tarixə nəzər salsaq, aydın şəkildə görərik ki, səmavi dinlər və ilahi peyğəmbərlər daim öz ümmətlərini nüfuz və sirayət cərəyanı yaradan düşmənlə mübarizəyə qaldırıb. Xüsusi ilə İslam dini son ilahi din, İslam Peyğəmbəri (s) son peyğəmbər olaraq besətin əvvəlindən düşmən nüfuzuna qarşı mübarizə aparıb. Misal olaraq, Zirar məscidinin dağıdılması hadisəsini yada sala bilərik. Bu hadisə düşmən nüfuzuna bir nümunə ola bilər.

İslam Peyğəmbərinin (s) Mədinəyə hicrətindən öncə bu şəhərdə Əbu Amir adlı zahid bir şəxs yaşayırdı. O mənəviyyat məsələsində xalq arasında öncüllərdən idi. Cahiliyyət dövründə məsihiliyə marağı ilə seçilirdi. Nəhayət, rahiblərə qoşuldu, bir ocaq yaratdı və ətrafına müridlər topladı.

---

[1] Nəhcül-bəlağə, Cənab Ənsariyanın tərcüməsi, səh. 58

İslamın zühuru, səhnəyə gəlişi ilə Əbu Amir Mədinədəki mövqeyini itirdi. İslamın səhnəyə gəlişi onu narahat edirdi. O, Peyğəmbərə (s) iman gətirmədi, mövqelərini itirilmiş görəndə Peyğəmbərlə (s) düşmənçiliyə başladı, İslama müxalif mövqe tutdu. İslam Mədinədə möhkəmləndiyi zaman Əbu Amir Mədinəni tərk etdi, Məkkəyə getdi. O, Məkkə müşrikləri ilə əl-ələ verib Peyğəmbərə (s) qarşı həmkarlığa başladı. Ous və Xəzrəc münafiqləri ilə yaxın münasibət qurdu. Nəhayət, Uhud savaşının təşəbbüskarlarından oldu. Müşriklərə təklif etdi ki, İslam Peyğəmbərinə (s) hücum etsinlər.

Əbu Amir Mədinə münafiqlərinə bir məktub yazdı. Bu məktubu Rumdan Mədinəyə gizli şəkildə yola saldı. Məktubda yazdırdı ki, əgər siz münasib şərait yaratsanız, Rum qoşunu Mədinədə İslamı aradan götürmək üçün şəhərə hücum edər. O yazırdı ki, bu addım atılsa əvvəlki mövqeləri bərpa olar. Amma bundan öncə Mədinədə bir qərargah yaradılmasını zəruri sayırdı. Təklif edirdi ki, Qoba kəndində müsəlmanların məscidi ilə üzbəüz məscid tikilsin. Bu məscid vasitəsi ilə İslama qarşı fitnəkar planları həyata keçirməyi təklif edirdi.

İslam Peyğəmbəri (s) Təbuka doğru hərəkət etməzdən öncə münafiqlər ondan məscid tikmək üçün icazə istədilər. Həzrət Peyğəmbər (s) bu barədə səfərdən qayıdandan sonra qərar çıxaracağını bildirdi. Amma münafiqlər Peyğəmbər (s) hərəkət edəndən sonra məscid tikintisinə başladılar. Peyğəmbər (s) Təbukdan Mədinəyə qayıdanda ona təklif etdilər ki, bu məsciddə açılış ünvanında namaz qılsın.

Həzrət Peyğəmbər (s) ilahi vəhy əsasında münafiqlərin planından xəbər tutmuşdu və bilirdi ki, Zirar məscidi düşmənin nüfuzu, müsəlmanlar arasında təfriqə salmaq

üçün tikilib. Peyğəmbər (s) bu məscidin müsəlmanlara zərərli olduğuna əmin idi. Buna görə də göstəriş verdi ki, məscidi dağıtsınlar. Məscidin ağac sütunlarına od vuruldu, beləcə Zirar məscidi məhv edildi. Düşmənə özünə qərargah yaratmaq imkanı verilmədi. Göründüyü kimi, Həzrət Peyğəmbər (s) İslamın başlanğıc dövründən düşmən nüfuzu qarşısında dayanmış, bu cərəyana yol verməmişdir.

Diqqətli olmalıyıq ki, zaman şeytanı dəyişmir. Şeytan nüfuzunu dayandırmayıb. Şeytan həmin şeytandır, amma zaman ötdükcə iki şey dəyişib. Şeytanın üsulları, texnikaları inkişaf edib. Bundan əlavə, şeytanın imkanları genişlənib. Şeytan irəli getdikcə onun vasitələri də güclənir. Təsəvvür edin ki, şeytan Peyğəmbər (s) dövründə bir şayiə yaymaq istəyəndə bu iş çətin olurdu. Hazırda media vasitələri o qədər genişlənib ki, şayiə yaymaq çox asan olub. Şeytanın informasiya yaymaq imkanları keçmişlə müqayisədə çox genişlənib. Bunu nəzərə almasaq şeytan elə əvvəlki şeytandır və məqsədləri də dəyişməyib.

Bu gün İslam İnqilabının qələbəsi və zalım rejimin devrilməsi ilə şeytan öz düşmənçiliyini imperializm formatında davam etdirir. Biz düşmən deyəndə imperialist qüvvələri nəzərdə tuturuq. Onların həyatı başqalarını əsarət altında saxlamaqla şərtlənib. Başqalarının daxili işinə qarışmaq, onların sərvətlərini nəzarətə götürmək imperialistlərin həyat mənbəyidir. İmperialistlər, supergüclər belədir.

Siyasi ədəbiyyatımızda istismarçı quruluş adlı bir ifadə var. Dünya iki hissəyə bölünüb: İstismar edənlər və istismar olunanlar. İmperializm sistemi bundan ibarətdir. İmperializm dünyasının başçıları düşmənlərdir. Nümunə

göstərmək istəsək Amerika Birləşmiş Ştatlarının adını çəkə bilərik. ABŞ imperializmin kamil nümunəsidir. Başqaları da var. Amma hamısından bariz nümunə Amerikadır. Amerikada əxlaqi dəyərlərdən soraq yoxdur. Heç bir cinayətdən çəkinmirlər. Həm də cinayətlərini dodaqlarında təbəssüm həyata keçirirlər. Öz cinayətlərini gözəl sözlər altında pərdələyirlər.[1]

İnqilabın başlanğıcında imperialist qüvvələrin, onların arasında ən pisi olan Amerikanın ölkəmizdə əsarət bağları qırıldı. Onlar daim ölkəmizə nüfuz etmək üçün təlaşdadırlar. Öz düşüncələrini, sözlərini, planlarını reallaşdırmağa çalışırlar. [2]

Bu məqsədlə ölkəmizə və xalqımıza qarşı heç bir addımdan çəkinmirlər.

Hərbi meydanda savaş, bomba atmaq, atəş açmaq, terrorçu göndərmək bir növ düşmənçilikdir.

Başqa bir düşmənçilik və ya müharibə qeyri-fiziki, ideoloji düşmənçilik və ya müharibədir.[3]

Düşünməyin ki, düşmən təkcə döyüş meydanında hücuma keçir. İslam Respublikası kimi bir güclə üzləşəndə və cəbhədə döyüş aparmaq gücü olmayanda döyüş növünü dəyişir, xalq arasında təfriqə yaratmaq, ölkə daxilində problemlər ortaya çıxarmaq istəyir.[4]

Düşmən bu yolla ölkənin inkişafının qarşısını almaq istəyir. Hər bir millətin inkişafı və uğuru biganə və

---

[1] Beynəlxalq Əhli-Beyt (ə) Assambleyasının və İslam Teleradio Şəbəkələri İttifaqının üzvləri ilə görüş, şəmsi 1394

[2] İslam keşikçiləri, müharibə əlilləri, tələbə və məktəblilərlə görüş, şəmsi 1379

[3] Bəsic - könüllülərin komandirləri ilə görüş, şəmsi 1394

[4] İmam Həsən Müctəba hərbi hissəsində bəsic günü, şəmsi 1369

düşmənlərin nüfuz etməsi ilə müşayiət olunur. Zahirən düşmən kimi tanınmayan xarici güc bir xalqa nüfuz etsə, siyasətdə, iqtisadiyyatda, digər sahələrdə öz fikirlərini qəbul etdirsə, həmin xalqın xoşbəxt gələcəklə arada olan məsafəsi artır. [1]

Biz düşmən nüfuzunun yönləri ilə tanış olmalıyıq. Bu bizim vəzifəmizdir.[2]

Artıq hamı başa düşüb ki, imperializmin İslam Respublikası ilə mübarizəsi inqilabın əvvəllərindəki formada getmir. Əvvəlki formada mübarizədə məğlub oldular, geri çəkildilər. Əvvəlki mübarizə hərbi mübarizə, çevrilişlər yolu idi. İnqilabın başlanğıcında çevrilişə əl atdılar və məğlub oldular. Milli münasibətləri qızışdırmağa çalışdılar, uğur qazanmadılar. Səkkiz il İslam Respublikasını müharibəyə cəlb etdilər, məqsədlərinə çatmadılar. Demək, artıq həmin yollara üz tutmayacaqlar. Məğlub olduqları yola dönmələri ehtimalı çox azdır. Təbii ki, biz bütün formalarda müdafiəyə hazır olmalıyıq. Hər halda dünya imperializmi artıq hərbi yolu prioritet yol saymır.

Bu gün prioritet ideoloji müharibə, qeyri-fiziki savaşdır.[3]

İdeoloji müharibənin silahlı müharibədən təhlükəsi çox deyilsə, az da deyil. İdeoloji müharibə zamanı da silahlı müharibədəkindən az ehtiyat lazım gəlmir. Silahlı müharibədə düşmən ölkənin sərhədlərinə üz tutur. Sərhəd qərargahlarını aradan götürməklə ölkə ərazisinə nüfuz

---

[1] İnqilab keşikçiləri, müharibə əlilləri, tələbə və məktəblilərlə görüş, 2000

[2] Xibrə məclisinin üzvləri ilə görüş, 2010

[3] Bəsic - könüllülərlə görüş, 2010

etmək istəyirlər. İdeoloji müharibədə isə düşmən mənəvi səngərlərə üz tutur, mənəvi qərargahları dağıdır. Bir ölkə, bir xalqın etiqadları, əzm və iradəsi, prinsipləri hədəfə alınır. Düşmən, etiqadları hədəfə alır ki, təbliğatda güclü nöqtələri zəiflətsin. Bu yolla bir ölkənin fürsətlərini təhlükəyə çevirməyə çalışırlar.[1]

İdeoloji müharibə mədəniyyətlə, əxlaqla bağlı vasitələrlə aparılır, yalan və şayiələr genişləndirilir. Bugünkü ideoloji müharibə vasitələri 10, 15, 30 il qabaq yox idi. Bu gün texnologiyalar genişlənib. İdeoloji müharibə insanların qəlbində və düşüncəsində tərəddüd yaratmaqdır.[2]

Bunu bacarsalar artıq silahlı müharibəyə, qan axıtmağa ehtiyac qalmır. Könüllərə və düşüncələrə nüfuz edir, öz düşüncələrini yerləşdirir, bu yolla məmləkəti işğal edirlər. Əvvəlcədən təyin olunmuş məqsədlərinə daha rahatlıqla çatırlar.

Bu gün düşmən nüfuzu böyük təhlükədir. İqtisadiyyatda, təhlükəsizlik sahəsində nüfuz düşüncə sahəsində nüfuzla müqayisədə kiçik görünür.

İslam cəmiyyətində bəsirətli ümmət və vilayət nemətinin mövcudluğu düşmən fitnəkarlıqlarının qarşısını alır. Bununla belə, düşmən nüfuzu layihələrindən qəflətdə qalmaq olmaz. Düşmən nüfuzunun qarşısını almaq üçün bu nüfuzun mahiyyət və növlərini tanımağa məcburuq. Bu nüfuz arxasında hansı amillər dayanır, düşmən nüfuzuna qarşı hansı yolla mübarizə aparmalıyıq? Bu zəruri işlərin həyata keçməsi üçün Cənab Rəhbər Ayətullah Xameneinin hikmətli və aydınladan göstərişlərinə diqqət yetirməliyik.

---

[1] Xibrə məclisinin üzvləri ilə görüş, 2010

[2] Bəsic - könüllülərlə görüş, 2010

Cənab Rəhbər ardıcıl şəkildə İslam ümmətini düşmən nüfuzunun təhlükələrindən xəbərdar edir. Bu sahədə rəhbərin göstərişləri var. Düşmən fitnələrindən amanda qalmaq üçün yeganə yol vilayət yoluna sığınmaqdır. Vilayət nemətinə görə Allah-Taalaya şükür edirik.

Əlinizdəki kitabdan daha yaxşı bəhrələnmək üçün aşağıdakı nöqtələrə nəzər salın:

1. Bütün kitab Cənab Rəhbərin buyuruqlarından seçmələrdir. Rəhbərin buyuruqları olduğu kimi verilib, heç bir dəyişiklik aparılmayıb. Seçmələr 1990-cı ildən 2016-cı ilə qədər bir dövrü əhatə edir.

2. Düşmən nüfuzu mövzusunun əhəmiyyətini nəzərə alaraq kitab 4 fəslə bölünüb: Düşmən nüfuzunun mahiyyəti və növləri, nüfuz etməkdə düşmənin məqsədləri, nüfuz yaradan amillər, düşmən nüfuzu ilə mübarizə yolları.

3. Kitabdakı mövzular arasında əlaqələri qorumaq üçün Cənab Rəhbərin buyuruqları ardıcıl şəkildə diqqətlə araşdırılıb. Bəyanatların mövzusu dəyişməsin deyə mövzular qruplaşdırılıb. Bu kitabın mütaliəsini asanlaşdırır.

4. Qruplaşdırılmış bəyanatları bir-birindən ayırmaq üçün hər bəyanatın sonunda tarix və məkan göstərilib.

5. Oxucular ayə və rəvayətlərlə daha yaxından tanış olsun deyə onların dəqiq ünvanı verilib.

Sonda bəşəriyyətin xilaskarının zühuru üçün, onun həqiqi naibinin ömrünün uzunluğu və sağlamlığı üçün dua edirik. Kitabın ərsəyə gəlməsində zəhməti olan bütün hövzə ustadlarına, xüsusi ilə höccətül-İslam vəlmüslimin Şeyx Mehdi Taibə təşəkkürümüzü bildiririk.

*Məhəmməd Tacik Rüstəmi*
*Qum Elm Hövzəsi, 2016, qış*

# Birinci fəsil: Düşmən nüfuzunun mahiyyəti

## *Düşmən nüfuzu ölkə üçün ən böyük təhlükədir*

Biz düşmən deyəndə fantastik, təxəyyüli bir mövcud nəzərdə tutmuruq. Məqsədimiz dünya imperializmidir. İmperialist qüvvələr bu sıradandır. Onların həyatı başqalarını istismar üzərində qurulub. Müdaxilə edir, təbii sərvətləri ələ keçirir, insanları əsarətə alırlar. Bunlar hegemonçu qüvvələr, imperialistlərdir. Başqa sözlə, imperialist qüvvə başçılarıdır.

Bizim siyasi ədəbiyyatda imperialist quruluş, imperializm adlı termin var. Dünyanın istismarçı və istismar olunan iki hissəyə bölünməsi imperializmin mahiyyətini təşkil edir. İmperializm sisteminin başçıları düşmənlərdir. Nümunə göstərə bilərik. Amerika Birləşmiş Ştatları bir imperialist gücdür. İmperializmin aydın nümunələrindən biri Amerikadır. İmperialist güclər sırasında başqaları da var. Amma ən aydın nümunə Amerika Birləşmiş Ştatlarıdır. Amerikanın insani dəyərlərə sayğısı yoxdur. Heç bir cinayətdən çəkinmirlər. İstənilən bir cinayəti dodaqlarında təbəssüm, çox rahatlıqla həyata keçirirlər. Öz çirkin əməllərini gözəl sözlərlə pərdələməyə çalışırlar. Düşmən deyəndə bunları nəzərdə tuturuq.[1]

---

[1] Beynəlxalq Əhli-Beyt (ə) Assambleyası və İslam-Teleradio Şəbəkəsi İttifaqının üzvləri ilə görüş, 2016

Əzəmətli hərəkat qarşısında qəddar, bacarıqlı, iti, saxtakar, şeytansifət düşmən dayanıb. Bu düşmən imperializmdir.

Bu gün imperializmin önündə Amerika gedir. Bir zaman İngiltərə lider idi. Düşmən işsiz oturmayıb, təlaşdadır, daim çalışır.[1]

Bu gün dünyada imperializmlə milli istiqlal, insani dəyərlər hərəkatı arasında savaş gedir. Həmin hərəkatın bir nümunəsi İran İslam İnqilabıdır. Bu gün dünyada savaş buna görədir. Başqa qarşıdurmalar da var. İtlər də bir leş üstündə boğuşurlar. Bu da bir davadır. Amma əsas savaş insani dəyərlər hərəkatı ilədir. Düşmən var, həssas bir düşmən!

Qeyd etdik ki, imperializmin aşkar nümunəsi Amerikadır. Amerika imperializmin siyasi qurumudur. Amma imperializm təkcə siyasi qurumdan ibarət deyil. Bəzən maddiyyat, maliyyə vəsaitləri daha təsirli olur. Dünyanın böyük şirkətləri, kompaniyaları, böyük sərmayədarlar misal göstərilə bilər. Onların əksəriyyəti sionistlərdir. İmeprializmin ümumi sistemi bundan ibarətdir. Onlar daim təlaşdadır. Necə deyərlər, həm zorları, həm də zərləri var. Deyirlər zər, zor və hiylə üçbucağı var. Doğrudan da belədir. Biz zər, zor və hiylə deyəndə məqsədimiz din libası geyinməkdir. Din libası, dini maska zər və zor ordusuna yol açır. Bu gün isə hiylə deyəndə təkcə dini hiylə nəzərdə tutmuruq. Burada siyasi hiylə də var. Siyasi qurumlar, diplomatik xətlər çox ciddi şəkildə hiyləgərliklə, fitnəkarlıqla məşğuldur. Gülər üzlə, təbəssümlə səhnəyə çıxırlar, qarşıdakına qucaq açırlar, bəzi filmlərdəki kimi qarşı tərəfi qucaqlayandan sonra

[1] Bəsic - könüllülər dəstələrinin komandirləri ilə görüş, 2016

arxadan ürəyinə xəncər sancırlar. Bu gün siyasət və diplomatiyada hiyləyə diqqətli olmaq lazımdır. Düşmən müxtəlif şəkillərdə səhnəyə çıxır. Özümüzə bunu təkrar-təkrar deməli, bir növ məşq etməli, buna hazırlaşmalıyıq. Bilməliyik ki, bu hiylə və fitnəkarlıqlar qarşısında nə etməliyik. Hamımız, həm siyasətçilərimiz, həm məsullarımız, həm əziz bəsic - könüllülər, həm də fəaliyyətdə olan, ortaya düşüncə qoyan insanlar daim bunu diqqət mərkəzində saxlamalıdır.

Düşmənçiliyin bir növü hərbi, fiziki düşmənçilikdir. Onlar bomba atır, atəş açır, terrorçu göndərir.

Başqa bir növ düşmənçilik ideoloji, qeyri-fiziki düşmənçilikdir. Mən düşmən nüfuzu barədə danışmışam. Düşmən nüfuzu çox mühüm mövzudur. İndi bəziləri reaksiya verir ki, nüfuz məsələsi bir cərəyan kimi istifadə olunur. Qoy nüfuzdan siyasi məqsədlə istifadə etməsinlər. Nüfuzdan danışarkən onun əsl mahiyyətini ortaya qoysunlar.

Düşmən nüfuzundan danışarkən bunun bir cərəyan tərəfindən digər cərəyana qarşı ittiham kimi istifadə olunması barədə deyilənləri bir kənara qoyaq. Söhbətimizin mövzusu düşmən nüfuzunun mahiyyətidir, onun mahiyyətindən xəbərsiz qalmamalıyıq. Bilməliyik ki, düşmən nüfuz etmək istəyir. Nüfuz nədir və necədir? Mövzudan yayınmayaq. Ayrı-ayrı siyasi cinahlar, qanadlar bir-birilərini ittiham etməsinlər. Bu qarşıdurmada, mübahisələrdə düşmən nüfuzunun əsl mahiyyətindən diqqət yayınmasın. Düşmən nüfuz etmək üçün plan cızır.[1]

Bu gün düşmən nüfuzu ölkə üçün böyük təhlükələrdəndir. Hər yolla nüfuz etməyə çalışırlar. Nüfuz

---

[1] Bəsic - könüllü dəstə komandirləri ilə görüş, 2016

nədir? İqtisadiyyatda, təhlükəsizlik sahəsində buna cəhd etmələri mümkündür. İqtisadiyyata nüfuz, təhlükəsizlik sahəsinə nüfuz kiçik məsələ deyil. Amma bir daha vurğulayıram ki, düşüncəyə, mədəniyyətə, siyasətə nüfuzun əhəmiyyəti daha böyükdür.[1]

## *Nüfuz etmək hərbi müdaxilə əvəzinə münasib variantdır*

Düşünməyin ki, düşmən yalnız silahlı hücumla müdaxilə edir. Qarşı tərəf güclü olduqda hazırki şəraitdə İslam Respublikası kimi iqtidara çatdıqda silahlı təcavüz imkanları məhdudlaşır. Başa düşürlər ki, bu xalqa qalib gələ bilməyəcəklər. Bu zaman müdaxilə üsulunu dəyişirlər, nüfuz yolu seçirlər. Çalışırlar ki, milli münasibətləri qızışdırsınlar, ölkə daxilində problem yaratsınlar.[2]

Biz bu fitnəkarlığın müxtəlif yönlərini yetərincə tanımalı və tanıtdırmalıyıq. Bu bizim vəzifəmizdir.[3]

Bu gün hamı başa düşüb ki, artıq imperialist qüvvələr İslam Respublikası ilə keçmişdəki kimi rəftar edə bilməz. İnqilabın əvvəllərində güclərini yoxladılar, məğlub oldular. Əvvəlcə hərbi yola əl atdılar. Müdaxilə etmək istədilər, alınmadı. Çevriliş yoluna əl atdılar. Yenə məğlub oldular. Milli münasibətləri qızışdırdılar, bu sahədə də uğur qazanmadılar. İran İslam Respublikasını səkkiz illik müharibəyə cəlb etdilər, bu müharibədə də məğlub oldular. Artıq bu yolları seçəcəklərini düşünmürəm. Çox

---

[1] İnqilab keşikçiləri komandanları ilə görüş, 2016
[2] İmam Həsən Müctəba (ə) qərargahında bəsic günü, 1991
[3] Xibrə Məclisi üzvləri ilə görüş, 1999

zəif ehtimal olunur. Amma biz bütün sahələrdə hazırlığımızı qorumalıyıq.

Bu gün imperializmin İslam Respublikasına qarşı variantlarında hərbi variant prioritet deyil. Artıq ideoloji müharibə, informasiya müharibəsi yolunu seçiblər.[1]

İdeoloji müharibə silahlı müharibədən təhlükəsiz deyil. Silahlı müharibədə torpaqlar, ideoloji müharibədə mənəviyyat hədəfə alınır. İdeoloji müharibənin hədəfi cəmiyyətin imanı, inancı, əzm və iradəsi, prinsipləridir. Bu müharibədə düşmən etiqadları alt-üst etmək istəyir. Onlar bir cəmiyyətin sütunu olan etiqadları dağıtmaqla cəmiyyəti əsarətə almağa çalışırlar.[2]

İdeoloji müharibədə artıq müharibə vasitələri də dəyişir. Silah-sursatı mədəniyyət vasitələri ilə əvəz edirlər. Yalan, şayiə səhnəyə gəlir. Müasir informasiya texnologiyalarından bəhrələnirlər. 30 il öncə bugünkü texnologiyalar yox idi. Bu gün ideoloji müharibə imkanları genişlənib. İdeoloji müharibədə insanların qəlbində və düşüncəsində ideallara bədbinlik yaratmaq, onları etiqadlarından ayırmaq əsas məqsəddir. İdeoloji müharibə cəmiyyətdə etimadsızlıq yaradır, insanların bir-birilərinə qarşı etimadı aradan qalxır. İxtilaflar güclənir. Bir bəhanə ilə cəmiyyətdə qarşıdurma yaradırlar. Bizdə seçkilərdə bu işi görüblər. Məlum hadisələr zamanı bir bəhanə ilə xalq arasında ixtilaf yaratdılar. Xoşbəxtlikdən insanlarımız bəsirətlidir. Əgər həmin hadisələr başqa ölkədə baş versəydi ölkəyə nəzarət itirilərdi. Beləcə etimadsızlıq yaradır, insanları bədbinləşdirir və cəmiyyəti etimad sütunundan məhrum edirlər. Cəmiyyətdə

---

[1] Bəsic - könüllülərlə görüş, 1999

[2] Xibrə Məclisi üzvləri ilə görüş, 1999

əlaltılarını işə salırlar, aranı qarışdırırlar ki, ölkə məsulları yaranmış vəziyyətdən baş aça bilməsin. Bu onların planlarının bir hissəsidir. Belə bir vəziyyətdə insan üçün ən mühüm olan nədir? Bəsirət! Dəfələrlə bəsirət barədə danışmışam. Baş verən hadisələrdən baş açmaq üçün bəsirət lazımdır. Aranı qarışdıran əli görmək üçün bəsirətli olmalıyıq. Bir xain, bir əlaltı, bir təxribatçı aranı qatanda onu cəmiyyət içində görə bilməliyik. Düşmən çalışır ki, onun cəmiyyətdəki çirkin əlini görən olmasın.[1]

Bu sahədə onların təcrübələri var. Çox fəaliyyət göstərirlər. Əllərinin altında yüksək texnologiyalar mövcuddur. Biz düşmənin, düşmənçilik yönlərini ölçülərini görməliyik. Qələbə qazanmaq üçün bu çox zəruridir.[2]

## *Nüfuz etmək modern istismardır*

Baxın, bu gün dünya imperializmin qanlı caynağında nə vəziyyətdədir. Bu elə qədimki istismardır. Üsul dəyişib, yenilənib. Bir vaxtkı istismarın adını bu gün köhnə istismar qoyublar. Köhnə, qədim istismar dövründə məsələn Hindistan, Əl-Cəzair və başqa ölkələri əsarət altına alırdılar. Millətlər oyandığından artıq qədim istismar üsulunu davam etdirə bilmirlər. Qədim istismar dövründə millətləri sıxır, onların son gücünü alırdılar. İndi qədim istismar dövrü başa çatıb, yeni istismar dövrü başlayıb. Yeni istismarda biganələr başqa ölkədə hakimiyyətə gəlmir. Məsələn, ingilislər gedib Hindistanda hökmranlıq etmir. Bir zaman istismarçılar, məsələn, Rza Xan və oğlu kimilərini hakimiyyətə gətirib İran kimi ölkələrə nəzarət

---

[1] Bəsic - könüllülərlə görüş, 1999
[2] Bəsic - könüllülərlə görüş, 1999

edirdilər. Üçüncü dünya ölkələri deyilən bir çox müsəlman ölkələrində bu hadisə baş verib. Uzun illər xalqları sıxıntı altında saxlayıblar. Müstəbidləri hakimiyyətə gətiriblər. Hərbi çevrilişlə hərbiçilər hakim olub. Hər yolla xalqların hakimiyyəti ələ almasına mane olublar. Artıq görürlər ki, bu üsul da fayda vermir. Buna görə də ölkələrə hakimiyyət üçün başqa yollar seçirlər. Bu xalqlara nüfuz etməkdir. Bunun adını yeni, modern istismar qoya bilərik. Yeni istismardan da yuxarı bir istismar var. Öz adamlarını, məmurlarını müxtəlif ölkələrə göndərir, insan haqları şüarları altında zalım hakimlərə qarşı çıxışlar edirlər. Bu yolla bəzi xalqları aldadırlar. Şübhəsiz, bunun da sonu yoxdur. Onlar bu yolla öz zalımlıqlarını gizləyə bilməzlər. Bir nümunəsi İraqdır. Görün İraqda nə etdilər. Bu gün insan haqları bayrağı Amerika və İngiltərə kimi ölkələrin əlindədir. Çox gülüncdür. Hansı ki, Əbu Qureyb, Quantanamo həbsxanalarındakı vəhşiliklər bütün dünyaya aşkardır. Bütün bu cinayətləri insan haqları şüarları altında həyata keçirirlər. Olsun ki, xalqlar bu gün buna reaksiya vermir. Amma həqiqəti görürlər və bundan təsirlənirlər. Bir gün hökmən etiraz bildiriləcək. Bu gün müsəlman xalqların qəlbi Amerika və imperializmə nifrətlə doludur. Hakimlərini ələ aldıqları ölkələrdə də xalqlar onlara nifrət edir. Onlar bu nifrətlərini büruzə vermək üçün fürsət gözləyirlər.

Xalqların həyatına, sərvətinə, namusuna təcavüzlə müşayiət olunan imperializm dövrü başa çatıb. Millətlərin ağır periodlar təcrübədən keçirməsi mümkündür. Amma fiziki baxımdan quldurluq dövrü başa çatıb. Bundan artıq davam etdirə bilməzlər. Bu arada o xalq taleyini müəyyənləşdirə bilir ki, bəsirətli, iradəli, imanlı olsun. Belə bir xalq qələbə qazanacaq. Bu arada ən böyük

müvəffəqiyyət İran xalqının oldu. Bu xalq istedadlı, ayıq və imanlıdır. Təcrübəsi də var. Başqa xalqlarda bizim xalqın təcrübəsi yoxdur. Xalqımız qlobal bir hərəkat üçün mühərrik ola bilər. Dünyanın zülm-sitəmə qarşı mübarizəsinə kömək edə bilərik. Gənclər bu məsələyə diqqətli olsunlar. Hazırlığınızı, düşüncənizin dərinliyini, siyasi və iqtisadi səhnədə iştirakınızı gücləndirin. Gənc ruhanilər, gənc tələbələr, gənc fəhlələr, cəmiyyətin müxtəlif zümrələrindən olan gənclər cinsi mənsubiyyətindən asılı olmayaraq bilməlidir ki, dünyanın gələcəyində rol ifa etməlidir. Dünyanın siyasi coğrafiyasını insanların iradə və imanı təyin edəcək. Bu sizin öhdənizədir. Təbii ki, mədəniyyət, siyasət, gənclərin problemləri üzrə dövlət məsullarının vəzifəsi ağırdır.[1]

## Düşmən nüfuzu ölkənin inkişafına qarşıdır

Hər bir xalqın inkişaf yolunda müvəffəqiyyəti düşmənlərin bu ölkəyə nüfuzunun qarşısının alınması ilə şərtlənib. Bunlar bir-birinə zidd hadisələrdir. Hətta açıq düşmənçiliyini bildirməyən xarici bir güc bir xalqın müxtəlif zümrələri arasında siyasi atmosferə nüfuz edərsə, bu xalq öz izzətli və iftixarlı gələcəyindən uzaq düşər. Bu o demək deyil ki, xariclə bağlı hər bir hadisəyə düşmən olmaq lazımdır. Xeyr, bəzən məmləkətin faydalarına xatir biganələrlə dostluq etmək lazımdır. Amma o dosta da icazə vermək olmaz ki, evin, ailənin, məmləkətin, cəmiyyətin işlərinə müdiriyyət etsin. İnqilabın əvvəllərindən İrana nüfuz dalğasında Amerika və başqa ölkələr vardı. Artıq həmin bağ qırılıb. Onlar çalışırlar ki, münasib yolla cəmiyyətimizə nüfuz etsinlər, öz

---

[1] Qum əhalisi ilə görüş, 2005

düşüncələrini, sözlərini, siyasətlərini səhnəyə gətirsinlər. Bu məqsədlə bütün yollardan istifadə edirlər.

Ötən illərdə İrana münasibətdə bu siyasət davam etdirilib. Bu gün daha çox siyasi manevrlə məşğuldurlar. Siyasi manevrlər özünü müxtəlif formalarda göstərir. Bir siyasətçi öz məqsədini həyata keçirmək istəyəndə bəzən qaşqabaq tökür, bəzən gülümsəyir, bəzən qəzəblənir, bəzən hədələyir, bəzən irəli gəlir, bəzən geri çəkilir. Bütün bunlar siyasi manevrdir. Bir də görürsən deyirlər ki, biz İran xalqına çox pislik etmişik, təəssüf edirik! Bir gün senatda İran xalqına qarşı qanun qəbul edirlər. Başqa bir gün ən xəbis, cinayətkar qüvvələri təltif edirlər. Bir gün İran Fələstinə təcavüzdən dolayı sionist rejimə qəzəblənəndə İranı hədəfə alırlar. Bəzən İslam Respublikasını devirmək üçün böyük büdcə ayırırlar. Bütün bunlar siyasi manevrdir. İnformasiya şəbəkələrində, mediada həmin siyasi manevrləri davam etdirirlər. Ölkə daxilində bəzi insanları aldadır, onlarla rabitə qururlar. Böyük məmləkətin hansı fəzasında boşluq görürlərsə həmin nöqtədən nüfuz etməyə çalışırlar. Bu zəif nöqtə bir siyasətçi, bir partiya və ya bir dövlət məsulu ola bilər. Buna görə də Allah-Taala başdan-başa fədakarlığa çağırış olan Fəth surəsində Peyğəmbərin (s) səhabələri haqqında buyurur: “Onlar kafirlər qarşısında möhkəm sədd çəkiblər, öz aralarında mehribandırlar.”[1] Kafirlər deyəndə Mədinədə Peyğəmbərin (s) himayəsində yaşayan yəhudilər və məsihilər nəzərdə tutulmurdu. Mədinə daxilində yaşayan məsihilər və yəhudilərin Peyğəmbər (s) və səhabələri ilə münasibətləri yaxşı idi. Ayədə o kafirlər nəzərdə tutulur ki, daim İslama qarşı təcavüz fikrində

[1] Fəth surəsi, ayə 29

olublar. Qüreyş kafirləri misal göstərilə bilər. Bəni Qüreyzə, Xeybər yəhudiləri də misal ola bilər. Onların işi fitnəkarlıq, müxtəlif qrupları İslam əleyhinə ayağa qaldırmaq idi. Hərbi təcavüzə çalışır, insanları qızışdırır, şayiə yayırdılar. Bəziləri də zahirdə müsəlman idi, qəlbində kafirlərə rəğbət göstərirdi. Onların birinci və ikinci qrupdan olan kafirlərlə əlaqələri vardı. Ayədə kafirlər deyiləndə bu üç qrup nəzərdə tutulur. Amma bu da qeyd edilir ki, onlar (möminlər) öz aralarında mehribandırlar. Bu İslamın yoludur. Düşmən belə bir səddə heç vaxt nüfuz edə bilməz. Onların möhkəm, polad səddi var. Burada möhkəm sədd deyəndə zorakılıq, qan axıtmaq nəzərdə tutulmur. Bu müdafiə məqsədli səddir. Bu sədd kövrək olmamalı, istənilən bir nüfuz qarşısında müqavimət göstərə bilməlidir.

Ardıcıl şəkildə siyasi qanadlara, siyasi şəxsiyyətlərə tövsiyələrim olur. Düşmən qarşısında elə bir vəziyyətdə dayanmayın ki, o aranıza nüfuz etmək fikrinə düşsün. Əgər ölkəmizdə bir şəxs və ya bir mətbuat orqanından gileylənmişəmsə səbəbi bu olub. Düşmənə nüfuz etmək ümidi verməyin. Sizi özü üçün nüfuz nöqtəsi görməsin. Düşmənin nüfuzu nə qədər çox olsa milli ləyaqət, milli iqtidar, ölkənin tərəqqisi zəif olacaq. Düşmən nüfuzu ilə ölkənin tərəqqisi bir-birinə tərs mütənasibdir. Biri güclənirsə o birisi zəifləyir. Əgər bir şəxs düşmənə meydan versə, məsələn, Amerikaya nifrət günü olan 13 aban gününü Amerika qarşısında baş əysə, bir şəxs milli vəhdətə qarşı parçalanmaya aparsa, əmin olun ki, bu adamlar düşmən nüfuzuna zəmin hazırlayır. Belə bir insan milli vəhdət, millət sevgisi iddiasında ola bilməz. Bu çox pisdir ki, İslam Respublikasında kimlərsə düşmənə ürək qızdırsın. Hətta bununla kifayətlənməyib, düşmənin

sözlərini təkrarlayanlar var. Bu da bəs etməsin, ölkəmizin müqəddəsliklərini hədəfə alsınlar! Yenə də bəs deməyib, eynən düşmənin yolunu gedərək xalqın imanını süstləşdirmək istəsinlər! Çalışsınlar ki, gənclərin qəlbində özünəinam hissini aradan qaldırsınlar. Nizamın səddinə xəncər çəksinlər, araya təfriqə salsınlar! Sonradan dövlət qanun əsasında onları cinayətkar sayır. İslam Respublikasında cinayətkarlıq böyük bir ləkədir. Yalnız tövbə edənlər qurtula bilər: öz pozuculuğunun yerini doldursun, səhvlərini islah etsin.[1] Yaratdığı şübhələri aradan qaldırsın, pozucu rəftarlarını islah etsin. Bu zaman Allah onu bağışlayar, xətalarını yaxşılığa çevirər. Amma tövbə etməsə cinayətkardır. Bu zaman kiminsə həmin cinayətkarın himayəsinə, müdafiəsinə qalxması ən çirkin işlərdəndir.[2]

## Düşmən nüfuz etmək istəyir!

Nüvə məsələsi ilə bağlı bir nöqtə məni narahat etməkdədir. Biz İslam Respublikasının aşkar düşmənlərinin məqsədlərinə diqqətli olmalıyıq. Şübhə yoxdur ki, inqilabın əvvəlindən bu günə qədər onların düşmənçiliyi azalmayıb. Bəzi sahələrdə düşmənçilikləri cilovlansa da, bu o mənaya gəlmir ki, düşmənçilik azalıb. Etiqadımız budur ki, qəsbkar sionist rejimin və Amerika Birləşmiş Ştatlarının İran İslam Respublikası ilə düşmənçiliyi bu günə qədər azalmayıb. Hər birinin də öz dəlili var. Sionist rejim bir əsasla, Amerika başqa bir əsasla düşmənçilik edir. İnqilabın əvvəlindən tutduqları

---

[1] bax: Bərəqə surəsi, ayə 160

[2] İslam keşikçiləri, müharibə əlilləri, tələbə və məktəblilərlə görüş, 2001

yolu gedirlər. Amma şərait dəyişib. Düşmənçilik formaları əvəz olub, bir qədər də inkişaf edib. Keçmişdə bir formada zərbə vururdular, bu gün başqa vasitələrlə düşmənçilik edirlər. Bunu nəzərdən qaçırmamalıyıq. Bu məsələ təkcə Xarici İşlər Nazirliyinin vəzifəsi deyil. İqtisadi qurumlarımız, mədəniyyət mərkəzlərimiz diqqətli olmalıdırlar ki, biz düşmən layihələrinə hədəfik. Siyasət, iqtisadiyyat, ticarət, mədəniyyət sahəsində çıxardığımız qərarlar düşmənin layihələrinə yardımçı olmamalıdır. Onların məqsədlərini sözlərindən, yazılarından, bəyanatlarından başa düşmək olur. Onların düşmənçiliyi əfsanə yox, həqiqətdir. Gözümüzün qarşısındadır. Bəyanatları fərqli ola bilər, mahiyyət isə eynidir. Sual yaranır ki, düşmən qarşısında nə etməliyik? Bu ayrıca bir mövzudur. Hələ ki, mövzumuz bu düşmənçiliyə diqqətdir. Əgər biz unutmasaq ki, qarşımızdakı səngərdən silahlar bizə tuşlanıb, bu şəraitə uyğun hərəkət edəcəyik. Şəraitə uyğun olaraq ya səngərdə sakit qalırıq, ya atəş açırıq, ya səngərdən çıxırıq. Bu sonrakı söhbətdir. Əsas məsələ odur ki, belə bir cəbhə ilə üzbəüz dayandığımızı unutmayaq. Sözlərim təkcə dövlət məsullarına aid deyil. Bütün xalq, xüsusi ilə inqilaba şövqlə xidmət edənlər diqqətli olmalıdır. Şübhəsiz ki, dövlət məsullarının vəzifəsi daha ağırdır.

Təcili görüləsi iş budur ki, qətiyyətlə inqilabi mövqe tutmalıyıq. Utanıb-çəkinmək olmaz. İnqilabi mövqeyimizi, İmam Xomeyninin (r) prinsiplərini xəcalət çəkmədən bəyan etməliyik. Qorxmaq lazım deyil. Fəth surəsinin 7-ci ayəsində buyurulur ki, göylərin və yerin orduları Allaha məxsusdur, Allah məğlub edilməzdir və hikmət sahibidir.

Ayıq olaq. Onlar nüfuz etmək fikrindədir. Bu nüfuz müxtəlif istiqamətlərdə ola bilər. Ehtiyatlı olun. Bir də ayılarıq ki, məsələn xarici bir təşkilat mədəniyyətimizin bir hissəsini, tutaq ki, uşaq bağçalarını himayəyə götürüb bu sahəyə nəzarət edir. Bu prosesi yaxından müşahidə etdikdə təhlükənin miqyasını anlayırsan. Başa düşürsən ki, söhbət ciddi təxribatdan gedir. Müxtəlif sahələrdə, iqtisadiyyatda, mədəniyyətdə, siyasətdə bu proseslər baş verə bilər. Bütün qurumların xariclə rabitələrinə diqqət yetirilməlidir.[1]

Bəziləri sanki düşməndən utanır. Düşməni yox, xalqı nəzərə almaq lazımdır. Düşməndən yox, xalqdan qorxmaq lazımdır. Düşmən düşməndir, ona nə qədər güzəştə getsən, nə qədər geri çəkilsən irəli gələcək. Əgər düşmən qarşısında səddimiz möhkəm olmasa, o nüfuz edəcək. Düşmən bu istiqamətdə çalışır. Bütün ölkə ərazisində xalq bu nöqtəyə diqqətli olsun.[2]

## *Düşmənin məntəqədəki əsas planlarından biri nüfuz etməkdir*

Düşmənin məntəqədəki planı iki əsas üzərində qurulub. Müxtəlif istiqamətlər olsa da, bu iki istiqamət əsasdır. Bunlardan biri ixtilaf yaratmaq, digəri nüfuz etməkdir.

Əvvəlcə dövlətlər, sonra millət arasında ixtilaf yaratmaq fikrindədirlər. Dövlət arasında ixtilafdan da təhlükəlisi millətlər arasında ixtilaf yaradılmasıdır. Millətləri bir-birinə münasibətdə bədbin etmək, milli ədavət yaratmaq istəyirlər. Bir gün paniranizm, panərəbizm, bəzən pantürkizm kimi ixtilaflı söhbətlər

[1] Prezident və nazirlərlə görüş, 2016
[2] Cəmiyyətin müxtəlif zümrələri ilə görüş, 2008

edirlər. Sünni-şiə münasibətlərinin qızışdırılması da bu qəbildəndir. Təkfirçiliyi də bu sıradan saymaq olar. Bacardıqları şəkildə ixtilaf yaratmaq istəyirlər. Bu istiqamətlərdə çox ciddi çalışırlar.

İxtilaf salmağın mütəxəssisi ingilislər olub. Onların dini ixtilaf yaratmaqda təcrübələri var. Amerikalılar ingilislərdən öyrənib. Bu gün bütün vücudları ilə çalışırlar. Gördüyünüz təkfirçi qruplaşmalar onların əl işidir. Biz illərlə öncə bu barədə danışmışıq. Bəziləri tərəddüdlə qarşılayırdı. Amma bu gün Amerika etiraf edir ki, İŞİD onun yaratdığı cərəyandır. Etiraf edirlər ki, Ən-Nüsrə cəbhəsini, təkfirçiliyi onlar yaradıblar. Bir qisim sadəlövh müsəlman da onlara aldanıb. Problem budur!

İbrətamiz olan bir nöqtə var. Bəzən saf niyyətli insan bəsirəti olmadığından düşmən əlində vasitəyə çevrilir. Bu hadisə baş verdi. Suriya yaxşı bir misal olar. Tunisdə, Misirdə İslam şüarları altında zalım rejimlər devrildi. Amma amerikalılar, sionistlər dərhal müqavimət cəbhəsində olan dövlətlərə qarşı bu düsturdan faydalandı. Suriyada həmin ssenari üzərində işlədilər. Bir qrup sadə, bəsirətsiz müsəlman bu plana uydu. Suriyada vəziyyət bir həddə çatdı ki, 4-5 ildir bir ölkədə misilsiz böhran başlayıb, sonu da görünmür. Bu düşmənin planı idi. Sadəlövh müsəlmanlar bu plana aldandılar, düşmənin əlində vasitəyə çevrildilər. Belə hadisələr çox olub. Təkfirçi qrupları onlar yaratdılar. Qəddar, zalım qruplaşmalar onların əl işidir. Belə qruplar yaradıb İslam ümmətinin canına saldılar. Üstəlik bunu dini savaş kimi təqdim etdilər. Nəzərinizə çatdırıram ki, bu gün İraq, Suriya və başqa nöqtələrdə dini qarşıdurma adı verilən qarşıdurmaların heç biri dini deyil, siyasidir. Yəməndə müharibə dini yox, siyasi müharibədir. İftiradır ki, bu

ölkədə şiə-sünni müharibəsi gedir. Səudiyyə Ərəbistanının mərmiləri altında Yəməndə həlak olan qadın və uşaqların bir çoxu şafei məzhəbindəndir. Bəziləri də zeydidirlər. Söhbət şiə və sünni qarşıdurması deyil, siyasi qarşıdurmadır.

Bu gün regionda ixtilaf üzərində gərgin vəziyyət yaradırlar. Bu ixtilafları aradan qaldırmağa çalışmaq lazımdır. Açıq və ümumi şəkildə bildiririk ki, biz məntəqənin bütün müsəlman dövlətlərinə dostluq üçün əl uzadırıq. Müsəlman dövlətlərlə heç bir problemimiz yoxdur. Əksər qonşularla dost-qardaş münasibətindəyik. Şimalda, cənubda, qərbdə, şərqdə olan ölkələrlə normal münasibətlərimiz var. Əlbəttə ki, müəyyən ixtilaflar da mövcuddur. Bəziləri inadkarlıq edir. Bizim tərəfimizdən dostluq əli uzadılıb. Xüsusi ilə millətlərlə dostluq münasibəti qurmaq əzmindəyik. Ölkəmizin bütün xalqlarla münasibəti dostluq münasibətidir. Təbii ki, etiqadımızın əsasları var. Etiqad əsasları qorunmalıdır. İmam Xomeyni (r) prinsiplərə bağlılıq gücü ilə inqilabı qələbəyə çatdırdı. Bu prinsiplərdən biri Fəth surəsinin 29-cu ayəsində buyurulan prinsipdir: "Kafirlərə qarşı sərt, öz aralarında mehribandırlar!" Bizim düşmənlə, imperializmlə dostluğumuz ola bilməz. Əksinə, müsəlman qardaşlarımızla düşmənçilik və ədavətdən uzağıq. Məqsədimiz dostluq və qardaşlıqdır. Çünki kafirlərlə sərt, öz aralarında mehriban olmaq prinsipinə etiqadlıyıq.

Bu böyük imamın bizə dərsidir. İslam Respublikasının aydın izlədiyi xətt də budur. Biz məzlumun dəstəklənməsində onun hansı dində olmasına baxmırıq. İmamın xətti bu idi. İmam Livanda şiə müqavimətinə necə münasibət göstərirdisə, Fələstində sünni müqavimətinə eyni münasibəti nümayiş etdirirdi. Arada heç bir fərq

qoyulmurdu. Biz Livandakı qardaşlarımızı necə dəstəkləyiriksə, Qəzzədəki qardaşlarımıza da eləcə dəstək veririk. Livandakılar şiədir, Fələstindəkilər sünnidir. Amma biz fərq qoymuruq. Biz İslam kimliyinin, məzlumların, Fələstinin müdafiəsinə qalxmışıq. Bu gün regiondakı məsələlər arasında Fələstin məsələsi prioritet təşkil edir. Bu əsas mövzudur. Düşmənçilikdə də beləcə fərq qoymuruq. Dünya imperializminin əlaltısı olan şah Məhəmməd Rza Pəhləvi şiə idi. Amma İmam onunla da sünni Səddam Hüseynlə necə mübarizə aparırdısa eləcə mübarizə aparırdı. Əslində nə Məhəmməd Rza şiə idi, nə də Səddam sünni idi. Hər ikisi dinə biganə idi, zahirdə özlərini şiə və sünni kimi göstərirdilər. İmam onların ikisi ilə də eyni şəkildə mübarizə aparırdı. Çünki bizim prinsipimiz İslamdır. Əmirəlmöminin (ə) buyurduğu kimi, zalımla düşmən, məzlumla dost ol.[1] Bu İslamın göstərişidir, bu bizim yolumuzdur, bu bizim xəttimizdir. İslam dünyasında ixtilafları gücləndirmək qadağandır. Biz bəzi şiə qrupların ixtilafı gücləndirməsinə müxalifik. Açıq şəkildə bildirmişik ki, sünnə əhlinin müqəddəsliklərini təhqir etmək olmaz. Bir qrup şiələr tərəfindən, digər qrup sünnilər tərəfindən məzhəb ixtilafı yaradır, ixtilafı qızışdırır. Çoxlarının da niyyəti dinə xidmətdir. Amma bəsirətləri yoxdur. Bəsirət lazımdır ki, düşmənin planını görəsən. Düşmənin birinci planı ixtilaf yaratmaqdır.

İkinci plan nüfuz etməkdir. On illər təsiri davam edəcək bir nüfuz ardıncadırlar. İslam ölkələrinə, region ölkələrinə nüfuz etməyə çalışırlar. Amerikanın bir zamankı iqtidarından əsər-əlamət qalmayıb. Onlar keçmiş iqtidarlqrını qaytarmaq istəyir. Bizim ölkədə də belə bir

---

[1] Nəhcül-bəlağə, namə 47

məqsəd izləyir. Nüvə müzakirələrində də məqsədi nüfuz etməkdir. Bu müzakirələrin aqibəti nə bizdə, nə Amerikada məlumdur. Bizdə də, Amerikada da davamlı olub-olmayacağı məlum deyil. Onlar bu müzakirələr vasitəsi ilə ölkəmizə nüfuz etmək istəyirdilər. Biz bu yolu bağladıq və bu vəziyyət davam edəcək. Onların nə iqtisadi, nə siyasi nüfuzuna yol verərik. Mədəniyyət sahəsində nüfuzlarına imkan verməri. Bütün gücümüzlə müqavimət göstərəcəyik və şükür olsun ki, gücümüz var.

Regionda da eyni məqsədlə çalışıblar. Məntəqəyə nüfuz etmək istəyirlər, müxtəlif sahələrdə söz sahibi olmağa, məqsədlərini həyata keçirməyə can atırlar. Biz Allahın yardımı ilə bacardığımız qədər buna yol verməyəcəyik. Bizim region siyasətlərimiz Amerikanın region siyasətlərinə tam ziddir. Ölkələrin ərazi bütövlüyü bizim üçün möhtərəmdir. İraqın, Suriyanın ərazi bütövlüyünə ciddi əhəmiyyət veririk. Onlar isə bu ölkələri parçalamağa çalışır. Öncədən xəbərdarlıq etmişəm ki, amerikalılar İraqı parçalamaq üçün çalışır. Bəziləri bunu təəccüblə qarşılayırdı. Son zamanlar Amerika açıq etiraf edir ki, İraqı, Suriyanı parçalamaq niyyətindədir. Kiçik dövlətlər yaradıb həmin dövlətlərə hakim olmaq istəyirlər. Allahın yardımı ilə buna yol verilməyəcək. Biz regionda müqavimət hərəkatını dəstəkləyirik. İslam ümmətinin tarixində dəyərli fəsillərdən olan Fələstin Müqavimətini himayə edirik.

İsraillə mübarizə aparan, sionist rejimə qarşı olan, müqavimət hərəkatını qəbul edən hər bir tərəfi himayə edirik. Necə bacarırıqsa dəstək veririk. Sionist rejimə qarşı çıxan hər kəsə dəstəyik.

Müqavimət hərəkatını himayə edirik. Ölkələrin ərazi bütövlüyünü dəstəkləyirik. Amerikanın təfriqəçi siyasətinə

qarşı çıxanlara dəstək veririk. Təfriqə yaradan bütün qüvvələrə qarşıyıq. Biz təbliğat mərkəzi Londonda olan şiəliyi qəbul etmirik. O şiəlik imamların təbliğ etdiyi şiəlik deyil. Təfriqə salan, İslam düşmənlərinə yol açan şiəlik qəbul olunmur. Bu şiəlik şiəlik deyil, azğınlıqdır. Şiəlik həqiqi İslamın, Quranın məzhəridir, zühur səhnəsidir. Vəhdətə kömək edənlərə dəstəyik. Vəhdətə müxalif olanlara müxalifik. Bütün məzlumları himayə edirik. Biz Bəhreynə dəstək vermək ittihamlarından dolayı meydanı tərk etməyəcəyik. Heç bir müdaxilə etməmişik, amma dəstəkləyirik. Məzlum Bəhreyn, məzlum Yəmən xalqına görə üzülürük, onlara duaçıyıq. Əlimizdən gələn köməyi də əsirgəməyəcəyik. Bu gün Yəmən xalqı doğrudan da məzlumdur. Bir ölkəni öz imperialist mənafelərinə, çirkin siyasətlərinə xatir viran qoyurlar. Siyasi məqsədlərə başqa yollarla da çatmaq olar. Amma onlar ağılsızcasına mənafelərinə çatmaq fikrindədirlər. Yəmən hadisələri çox üzücüdür. İslam dünyasında baş verən bir çox hadisələr üzücüdür. Pakistanda, Əfqanıstanda baş verən hadisələr bizi qəmləndirir. İslam dünyası oyaqlıq, bəsirətlə bu dərdlərə çarə qılmalıdır.[1]

## *Düşmən planının tərkibi, nüfuzetmə yönü*

Bizim düşmənlərimiz var. Düşmənlərimiz nə edir? Bu məsələlər barədə gənc nəslin düşünməsini lazım sayıram. Ölkəmizdə əksəriyyəti gənclər təşkil edir. Bu nəsil günün problemlərinə biganə qala bilməz. Gözünü yuma, kim nə deyir ona qulaq asa! Yox, bütün bunlar barədə düşünməlidirlər, bunlar mühüm məsuliyyətlərdir.

---

[1] Beynəlxalq Əhli-Beyt (ə) Assambleyası və İslam Tele-radio Şəbəkələri İttifaqının üzvləri ilə görüş, 2016

Düşmənlər nə edir? Düşmənlərin məqsədi İslam Respublikasına nüfuz etməkdir. Qonşu ölkələrin çoxuna nüfuz ediblər. Bir dövləti kənara qoyur, başqa birini gətirirlər. Dövlətləri siyasi sövdələşmələrə vadar edirlər. Bir iqtisadi sövdələşmə aparır, bir hərbi baza yerləşdirirlər. Bir çox ölkələrdə belədir. Çox narahatdırlar ki, İran kimi varlı, təbii sərvətləri bol, böyük cəmiyyətli bir ölkəyə nüfuz edə bilmirlər. Bir çox nəhəng kompaniyalar bundan narahatdır.

İlk məqsədləri İranda nüfuz nöqtəsi tapmaqdır. Əgər diqqətlə baxsanız istər öz təbliğatlarında, istər əlaltılarının təbliğatlarında həmin istəkləri görərsiniz. Bu gün İranda təbliğat işi aparırlar. Xoşbəxtlikdən dövlət möhkəm, millət mömindir. Bu günə qədər bir iş görə bilməyiblər. Ayıq olmaq lazımdır.

## *Düşmənin planı nələrdən ibarətdir?*

Əvvəla çalışırlar ki, nə qədər bacarırlarsa iqtisadi problem yaratsınlar. Sanksiya tətbiq edirlər, şirkətlərə qarşı qadağalar qoyurlar. Bütün bunlar barədə eşidirsiniz. Bir ölkənin ərazimizdən çəkmək istədiyi kəməri əngəlləyirlər. Ölkədə ticarət əməliyyatlarında pozuculuq edirlər. İki il öncə şayiə yaydılar ki, İran püstəsi xərçəng xəstəliyi törədir. Qeyri-neft sənayesində bacardıqca təxribatçılıq edirlər. Digər tərəfdən öz təbliğatlarında bizim iqtisadi problemləri şişirdirlər. Bəli, bizim iqtisadi problemlərimiz var. Bütün ölkələrdə belə problemlər var. Amma dövlətimiz çalışır, həm ticarət sahəsində, həm diplomatiyada maneələri aradan qaldırmaq istəyir. Xarici İşlər Nazirliyi, Ticarət Nazirliyi, Sənaye Nazirliyi, Nəqliyyat Nazirliyi hər biri məşğuldurlar. Heç biri işsiz dayanmayıb. Böyük dünyada düşmən də öz işindədir.

Bizim də əl-ayağımız şikəst deyil. Çox sahələrdə düşmənlə mübarizədə qalibik. Amma düşmən təbliğatında məsulların fəaliyyəti barədə bir söz deyilmir. Təbliğatlarında yalnız problemləri şişirtməklə məşğuldurlar. Haray salırlar ki, İranda infilyasiya var, dövlət müflis olur və sairə. Xalqın ruhiyyəsini süstləşdirməyə çalışırlar. Xalqa aşılayırlar ki, hamı nigaran olsun. Hansı ki, xalq dövlət və məsulların fəaliyyətindən xəbərdar olsa nigaran qalmaz. İmam Xomeyni (r) məsullara dəfələrlə deyirdi, biz də təkrarlayırıq ki, xalqa öz işləri barədə məlumat versinlər. Xalq bilsin ki, siz nə iş görürsünüz. Demək, iqtisadi problemlərimizin düşmən tərəfindən şişirdilməsi başqa bir fitnəkarlıqdır. Digər tərəfdən ölkədəki siyasi fəzanı qarışdırmağa səy göstərirlər. İstəyirlər ki, xalq siyasi fəzada böhran olduğunu düşünsün. Bir nəfərin mühakiməsini, bir neçə nəfərin ölüm cəzasını şişirtməklə siyasi fəzanı bulaşdırmağa cəhd göstərirlər. Düşmənin siyasi fəzada təlaşları daha çoxdur. Ara qarışanda cəmiyyət parçalanır, hərə bir sözə tərəfdar olur. Düşmənin də arzusu budur.

Planlarında bu da var ki, xalqın zehnində məsullar arasında ixtilaf olması fikri yaratsınlar. İndi dövlət məsulları nə qədər desə də ki, məsullar arasında münasibət səmimidir, həmkarlıq var, bir-birlərinə kömək edirlər, faydası yoxdur. İnsanların təsəvvüründə bir fikir yaradandan sonra sən nə qədər danışsan da faydası olmur. Şayiə yayırlar ki, dövlət başçıları arasında ixtilaf var, filankəs filankəsin müxalifidir. Bu düşmənin bir işidir. Ölkə daxilindəki bəzi qələm adamları da düşmənin sözünü təkrarlayır. Əslində bu onların öz sözü deyil. Bu söz düşmən planının bir hissəsidir. Bəli, iqtisadi problemlər var. Amma düşmən bu problemi şişirdir. Siyasətdə də bu

işi görür. Rəhbərlərə qarşı etimadsızlıq yaradır. Belə bir şəraitdə məsullar öz vəzifəsini rahatlıqla həyata keçirə bilərmi?! Təbii ki, yox. Bu zaman işlər geri qalır.[1]

## Düşmən nüfuzunun tamamlayıcıları

Bu nüfuzu tamamlayan haşiyə işlər də var. Bəziləri şəxsiyyətlərə, baxışlara, dəyərlərə münasibətdə şübhə yaradır və bu düşmən nüfuzuna kömək edir. Demirəm ki, məsələn bəsici - könüllüləri ifratçılıqda ittiham edənlər bunu düşməncəsinə edir. Amma son nəticədə işləri düşmənin mənafeyinə xidmət edib. Bəsici radikallıqda ittiham edənlər düşmənin nüfuz dumanını tamamlayırlar. Çünki bəsic düşmən qarşısında istehkamdır. Bəsic möhkəm səddir. Bu səddi zəiflətmək olmaz.

Mən tribunası olan, auditoriyası olan hər bir şəxsə tövsiyə edirəm ki, məmləkətin, inqilabın istehkamlarını zəiflətməsinlər. Biri sözə başlayan kimi onu təsdiqləyib, bəsici ifratçılıqda təqsirləndirməsinlər. Bəziləri siyasi qanadlar mövzusunu şişirdir. Bu prinsiplərə qarşı çıxmaqdır. İnqilabın prinsiplərini inkar etməyin. Bunlar bir növ inqilabın aksiyomlarıdır. İmamın 20 clddən artıq bəyanatları var. İmam inqilabın məzhəri idi. İmam İnqilabın sözçüsü idi. İmam inqilab gerçəkliklərini aydınlaşdırırdı. Baxın imamın əsərlərinə, görün hansı nöqtələr üzərində dayanır. İnqilabın prinsiplərini, aksiyomlarını inkar etməyin.

Mən bəsicə böyük əhəmiyyət verirəm. Bəsic çox mühüm, təsirli, bərəkətli və gələcəyi olan hadisədir. Düşünürəm ki, bəsicə qarşı təxribatlar onu süstləşdirmir.

---

[1] İmam Riza (ə) hərəminin zəvvarları və civarında olanlarla görüş, 2000

Bəsic günbəgün kök atır. Bir gün o zəif bir nihal idi. Bu gün güclü gövdəsi olan ağacdır. Bundan da güclü və üstün olacaq. Allahın fəzli ilə bu iş baş verəcək. Amma ehtiyatlı olaq ki, bu ağaca xəstəlik düşməsin. Mən sizə müraciət edirəm. Ehtiyatlı olun. Bəzən əllərində mişar gəlirlər və sən onların qarşısını ala bilirsən. Bəzən isə bəla ağacın içindən işə düşür. Buna əlac etmək çətindir.[1]

## *Düşmən nüfuzunun hədəfi kimlərdir?*

Düşmən kimlərə nüfuz etmək istəyir? Hamıdan öncə ölkənin taleyi üçün qərar çıxaran rəhbərlərə. Onlar düşmənin hədəfidir. Onlara nüfuz etməyə çalışırlar. İndi bir şəxs desə ki, düşmən nüfuzunu ortaya atanlar bundan siyasi məqsədlə istifadə etmək istəyir, bu iddia heç nəyi dəyişmir, düşmən nüfuzu təhlükəli olaraq qalır. Əgər biri siyasi məqsədlə istifadə edirsə bu səhvdir. Kimsə bu işi gördüyünə görə düşmən nüfuzunun təhlükəsi azalmır.[2]

## *Düşmən nüfuz etməkdən heç vaxt çəkinməyəcək!*

Bu gün həmd olsun Allaha ki, düşmən ölkə daxilində millətlər, məzhəb arasında ixtilaf yaratmaqdan ümidini üzüb. Şübhəsiz ki, şeytan heç vaxt vəsvəsə yaratmaqdan çəkinən deyil. Saffat surəsinin 40-cı ayəsində buyurulduğu kimi hətta Allahın xalis bəndələri şeytan vəsvəsəsinə hədəfdir. Allahın böyük peyğəmbərləri də şeytan nüfuzuna hədəf olub. Sadəcə şeytanın onlara gücü çatmayıb. Amma o fəaliyyətdədir. Daha demir ki, filankəs Allahın saleh bəndəsidir, onu azdıra bilmərəm, onu rahat buraxıb gedim!

---

[1] Bəsic dəstələri komandirləri ilə görüş, 2016
[2] Bəsic dəstələri kömandanları ilə görüş, 2016

Yox, şeytan Allahın xalis bəndələrindən də əl çəkmir. Çünki Allahın xalis bəndələri şeytanın ağzından vurur. Quranda buyurulur ki, Allahın təqvalı bəndələri şeytan vəsvəsəsinə düçar olduqda Allahı zikr etməklə gözləri açılır.[1]

Böyük şeytan, imperializm də belədir. Ağzından vurulsa da çəkilib getmir. Düşünməyin ki, inqilabın əvvəlindən dünya imperializminə dərs verdiyimiz üçün daha bizimlə işi olmayacaq. Xeyr, böyük şeytan, yəni Amerika və onun əlaltıları, mürtəce dövlətlər öz çirkin siyasətlərindən, fitnəkarlıqlarından əl çəkən deyillər. Doğma qardaşlar arasında da ixtilaf yaratmaq istəyirlər.

Din qardaşları, həmvətənlər, millətlər hədəfə alınanda vəziyyət daha da çətinləşir. Təəssüf ki, hal-hazırda İslam ölkələrində neft pulları hesabına İslam əleyhinə qələmlər və dillər işləyir. Müsəlmanlar arasında təfriqə yaradır, müsəlmanların böyük bir hissəsini İslam coğrafiyasından çıxarırlar. Bu böyük məharətdir. İmperializmin istehsalı olan bəzi məzhəblər müxtəlif bəhanələrlə müsəlman aləminin böyük bir hissəsini İslam çevrəsindən çıxarırlar. Bunu da din, tövhid şüarı altında həyata keçirirlər. Bu gün Amerika və müttəfiqlərinin regionda əsas əli dinini satmış din xadimləridir. Bir çox təfriqələrdə onların çirkin izini görə bilərsiniz. Hər vəchlə müsəlmanları parçalamağa çalışırlar. İran İslam İnqilabı vəhdət bayrağını qaldırdığı zamandan bu cərəyan daha da güclənib. Bizim ölkəmizin batinində də təlaşlar var. Sünni və şiələrin yaşadığı məntəqələrdə buna cəhd olunur. Bir qrupu ixtilaf toxumu səpməyə vadar edirlər. Bu gün millətçilik, tayfaçılıq şüarları ilə kürd xalqının haqları uğrunda ayağa qalxanlar

---

[1] Əraf surəsi, ayə 201

başqa bir şəkildə böyük şeytana muzdurluq edirlər. Onlar da Amerikanın əlində alət olublar. Həmd olsun Allaha ki, sizin ayıqlığınız sayəsində düşmənin planları pozulur. Xalq ayıq olsa bu çox dəyərlidir. İmam Sadiq (ə) buyurur ki, zamanını tanıyan insana şübhələr hücum etmir.[1] Zamanı tanımaq, düşmən fitnəkarlıqlarından xəbərdar olmaq belə təsirlidir.[2]

## *İslam göstəriş verir ki, düşmən nüfuzunun qarşısı alınsın*

İmperialist dünya 65 ildir çalışır ki, sionist rejimin mövcudluğunu müsəlman xalqlara qəbul etdirsin. Müsəlmanlar rəsmi olaraq işğalçı sionist rejimi tanımağa vadar edilirlər. Bəzi ölkələr, dövlətlər biganə dostlarının mənafeyini milli mənafedən üstün tutaraq bu işi görməyə hazırdırlar. Amma xalqlar sionistlərin hüzuruna müxalifdir. 65 ildir Fələstin adını unutdurmağa çalışırlar, amma bacarmırlar. Livanla 33 günlük müharibədə, Qəzzə ilə 22 günlük müharibədə, növbəti dəfə Qəzzə ilə 8 günlük müharibədə müsəlman ümmət göstərdi ki, sağdır, Amerika və digər Qərb güclərinin kapitalları təsirsiz olub, onlar öz kimliklərini qoruyub saxlayırlar.

Onların təlaşlarına baxmayaraq müsəlman ümmət sionist rejimin üzünə sillə vurdu, uzun müddət sionist rejimin təsbiti üçün çalışanların arzusu ürəyində qaldı. İslam ümməti sübut etdi ki, Fələstin yaddan çıxmayıb. Bu çox mühüm məsələdir. Belə bir şəraitdə düşmən İslam ümmətinə Fələstini unutdurmaq üzərində işləyir. Hansı yolla? İxtilaf yaratmaqla, daxili müharibələri

---

[1] Əl-Kafi, c. 1, səh. 26

[2] Cəmiyyətin müxtəlif zümrələrinin beyət mərasimi, 2000

qızışdırmaqla, İslam adı altında ifratçılığı işə salmaqla. Nəticədə onların yaratdığı saxta bir qrup ümmətin əksəriyyətini kafir sayır, təkfir edir. Təkfirçilik cərəyanı İslam düşmənləri üçün güclü silahdır. Təkfirçilər diqqəti sionist rejimdən yayındırır. İslam müsəlmanlardan istəyir ki, kafirlərə qarşı sərt, öz aralarında mehriban olsunlar. Müsəlmanlar düşmən qarşısında möhkəm sədd olmalıdırlar. Bu Quranın qəti ayələrindəndir. Quran möminlərə tapşırır ki, öz aranızda mehriban olun, bir olun, əl-ələ verin, Allahın qırılmaz ipindən yapışın. İslamın göstərişi budur. Bu zaman bir cərəyan yaradırlar, müsəlmanların özünü müsəlman və kafir olmaqla iki qrupa ayırırlar. Bir qrup müsəlman o biri qrup müsəlmanı kafir adlandıraraq hədəfə alır. Beləcə müsəlmanları bir-birinin canına salırlar. Kim şübhə edir ki, bu cərəyanları yaradan, onlara dayaq olan, onları silahlandıran dünya imperializmidir?! Bu iş üzərində plan cızırlar. İslam dünyası bu məsələyə diqqətli olmalıdır, bu böyük təhlükədir. Təəssüf ki, bəzi müsəlman dövlətləri əsas problemdən diqqəti yayındırıb, ixtilafa gedirlər. Bilmirlər ki, ixtilaflar elə bir od şöləndirəcək ki, bu od hamını ağuşuna alacaq. İmperializmin istəyi budur ki, bir qrup müsəlman başqa bir qrup müsəlmanla vuruşsun. Bu müharibə o insanlar tərəfindən aparılır ki, imperialistlərin əlaltılarının pulundan istifadə edirlər. Onlara silah, pul verirlər. Bu yolla müxtəlif ölkələrdə xalqı parçalayır, bir-birinin canına salırlar. Son illərdə bəzi müsəlman və ərəb ölkələrində yaranan İslam oyanışından sonra imperializmin təkfirçilik planı güclənib. Bu yolla İslam oyanışını əngəlləməyə çalışırlar. Həm müsəlmanları vuruşdurur, həm İslamı gözdən salırlar. Ekranda İslam şüarı altında bir insanın ciyərini çıxarıb dişinə çəkən

adamı görənlər İslama hansı münasibətdə olmalıdır?! İslam düşmənləri proqram cızıb. Bütün bu hadisələr birdən-birə səhnəyə gəlməyib. Baş verən hadisələr uzun illər boyu planlaşdırılıb, bu hadisələr arxasında çirkin siyasət dayanır. Müsəlmanlar vəhdətə qarşı çıxanların, parçalanma yaradanların cavabını verməlidir. Bu bizim hamımızın böyük vəzifəmizdir. Bunu həm şiə, həm də sünnü qəbul etməlidir. Şiələr və sünnülər arasında bu fikir gücləndirilməlidir. Vəhdət məzhəblər arasında müştərək etiqadlara önəm verməkdir. Bizim aramızda müştərək nöqtələr çoxdur. Müştərək nöqtələrlə müqayisədə ixtilaflı nöqtələr çox azdır.

Müştərək xüsusiyyətlərə istinad etməliyik. Bu işdə də əsas məsuliyyət öncüllərin üzərinə düşür. İstər siyasətdə, istər elmdə, istər dində öndə gedən istedadlar bu işi görməlidir. Din alimləri xalqı məzhəb, firqə ixtilaflarından çəkinməyə təşviq etməlidir. Alimlər tələbələrə anlatmalıdır ki, bu gün İslam dünyasında ən əhəmiyyətli məsələ vəhdətdir.[1]

Bu qədər ayələri oxuyuruq, bir-birimizə xatırladırıq. Amma qəlbimizi təsirləndirməliyik. Ali-İmran surəsinin 103-cü ayəsində buyurulur ki, hamılıqla Allahın qırılmaz ipinə sarılın. Bu bir Quran təlimidir. Dəfələrlə təkrarlamışıq və bir-birimizə xatırlatmışıq. Amma bu ayə qəlbə oturmalı, həzm olmalıdır. O zaman vəhdət məsələsi bizim üçün əsas məsələ olar. O zaman şəxsi mənafelərə görə əzəmətli milli vəhdəti pozmarıq. Əgər Quran ayəsi insanın qəlbinə cəzb olsa, kafirlərlə sərt, öz aramızda mehribançılıq çətin gəlməz. Düşmənlə sərt olmaq o

[1] Dövlət məsulları və İslam vəhdəti konfransının qonaqları ilə görüş, 2014

mənada deyil ki, düşməni məhv etmək lazımdır. Şərait bir zaman düşmənin məhvini tələb edir, bir zaman yox. Amma düşmənlə həmişə sərt olmaq lazımdır. Düşmən qarşısında sədd kövrək olmamalıdır. Düşmən səddi aşa bilməməlidir. Düşmən üçün sədd keçilməz olmalıdır. Bu düşmənə aid idi. Bəs öz aramızda necə? Öz aramızda mehriban olmalıyıq. Bu Quranın ikinci bir göstərişidir. Nə üçün əməl etmirik? Problem nədədir? Problem elə əvvəl qeyd etdiyim problemdir. Əgər qəlbimiz ilahi rəhmət yağışına açıq olsa, qəlbimizi Qurana tapşırsaq deyiləni qəbul etmək asan olar. Bu zaman şəxsi məqsədlər, qərəzlər, maddi mənafelər, rəyasət istəyi, dostbazlıq Quran tövsiyəsini unutdurmaz.[1]

## *İslam İnqilabı düşmən nüfuzu üzərindən xətt çəkib*

İslam İnqilabı düşmənin bütün planları üzərindən xətt çəkdi. İslam Respublikası bu mövqeyi ilə 30 ili keçib ki, bütün dünyanı özününkü sayan imperializm qarşısında dayanıb. Regionda Amerika hakimlik edirdi, Yaxın Şərq amerikalıların ayağı altında tapdanırdı. İran Yaxın Şərqin üzük qaşı, bu coğrafiyanın mərkəzidir. İran Amerikanın təsiri altında idi. İslam İnqilabı Amerikanın imtiyazları üzərindən xətt çəkdi. İslam Respublikası fədakarlıqla səhnəyə gəlib şəraiti tam dəyişdi. Bu gün Yaxın Şərq Amerikanın uğursuzluqlarına bir səhnədir. Ötən illərdə İslam Respublikasının inkişafını əngəlləmək üçün əllərindən gələni etdilər. Əgər düşünsəniz ki, İrana zərbə vura bilərdilər, amma vurmayıblar, yanılırsınız. Onlar

---

[1] Quran qariləri ilə görüş, 2010

bacardıqlarını ediblər. Əgər bir iş görməyiblərsə, demək əllərindən gəlməyib. Səkkiz illik müharibəni yada salın. Oğurluq, təcavüz, iqtisadi sanksiyalar, psixoloji müharibə, əks təbliğat, siyasi oyunbazlıq, təxribatlardan heç zaman əl çəkməyiblər. Amma İslam Respublikası bütün bu fitnəkarlıqlar qarşısında mətanətlə dayanıb. İslam Respublikası bu ötən müddət ərzində nəinki özünü qoruyub, hətta inkişaf edib, iqtidar sahibi olub.[1]

İslam Respublikası hakimiyyəti dövründə iqtidardan başı gicəllənən təcavüzkar qonşumuz dünya güclərinin təşviqi ilə əziz İranı əsarət altına almaq istədi. Ölkəmizə hücum etdi və xalqımız fədakarlıqla mübarizəyə qalxdı.

Uzun bir dövrdən sonra millətimiz ilk dəfə biganə təcavüzkar qarşısında misilsiz müqavimət göstərib döyüş meydanından qələbə ilə çıxdı. İnqilaba qədər, əvvəlki 200 ildə bu ölkəyə nə qədər hücum olmuşdusa məğlub olmuşduq. Düşmən evlərimizə soxulmuşdu. İlk dəfə idi ki, İslam və İslam İnqilabının bərəkəti sayəsində silahlı qüvvələrimiz düşməni dizə çökürürdü. Elə bir düşmən ki, təkcə öz gücü ilə meydana girməmişdi, dünyanın supergücləri onu himayə edirdi. Xalqımız, silahlı qüvvələrimiz belə bir düşmən üzərində qələbə qazandı. Əlbəttə ki, böyük təlaşlar göstərildi, şəhidlər verildi.[2]

## Düşmən nüfuzunun qarşısını almaq İslam İnqilabının dəyişməz prinsiplərindəndir

İslam quruluşunda demokratiya dini demokratiyadır. Yəni İslam baxışlarına əsaslanır. İslamda demokratiya dünyadakı kimi sadəcə ictimai bir müqavilə deyil. O

---

[1] İmam Riza (ə) hərəminin ziyarətçiləri və civarındakılarla görüş, 2000
[2] Kerman ustanının asayiş keşikçiləri ilə görüş, 2006

zaman xalqın istəyi və rəyi əsasdır ki, buna ehtiyac var. İslamın baxışı budur. Beləcə İslam öhdəçiliyi yaranır. İslam demokratiyası Qərb demokratiyası kimi deyil. Qərbdə demokratik prinsiplər sadəliklə dəyişdirilə bilər. İslam Cümhuriyyətində demokratiya dini bir vəzifədir. Məsullar bu xüsusiyyəti qorumaq üçün dini baxımdan məsuldurlar. Onlar Allah qarşısında cavabdehdirlər. Bu İmam Xomeynini (r) in prinsiplərindən bir prinsipdir.

İctimai ədalətin əsası xalqın böyük hissəsinin hüquqlarına riayət etmək, təbəqələrarası fərqi aradan qaldırmaqdır. Bu İslamın əsas prinsiplərindəndir. İdarəçilikdə fəsadla, korrupsiya ilə mübarizə aparmaq, vəzifədən sui-istifadənin qarşısını almaq inqilabın prinsiplərindəndir. Burada həm maliyyə, həm də siyasi baxımdan sui-istifadə nəzərdə tutulur. Xalqa xidmət inqilabın prinsiplərindəndir. Bütün sahələrdə ölkənin müstəqilliyini qorumaq, düşmən nüfuzuna yol verməmək İslam prinsipidir. İslam İnqilabının prinsipləri dəyişməzdir. Bütün bunlar konstitusiyada öz əksini tapıb. Əlbəttə ki, dövlətlər və məsullar müxtəlif dövrlərdə prinsiplərin həyata keçirilməsi üçün taktikaları dəyişə bilər. İslam İnqilabı İslamın özü kimidir. Sabit hökmlər var, dəyişən hökmlər var. Bəzi hökmlər dəyişməzdir. Bəziləri isə müəyyən şəraitlərdə dəyişə bilər. İnqilab da belədir. İctihad elə bir imkandır ki, ictihad sayəsində məsul şəxs zamanın tələbi ilə taktikanı dəyişə bilir. Əlbəttə ki, işin icrası üçün yeni yol tapılması ictihad sahibinin, müctəhidin işidir. İctihad mahiyyəti dində yenilikçilik olan haram bidət deyil. İctihad və müctəhidin işi prinsiplər əsasında yeni taktikalar seçməkdir. İctihad həm də üsul bəhanəsi ilə bir nöqtə ətrafında fırlanmağa, yerində saymağa qarşıdır. Digər tərəfdən ictihad bəhanəsi

ilə prinsiplərdə dəyişiklik aparmaq olmaz. Bu dağıdıcı fəaliyyətdir. İmamın fəaliyyətlərində bu aydın bir xətdir. Beləcə, üsul, prinsiplər sabitdir. Ədalət, demokratiya, müstəqillik, insan haqlarının müdafiəsi, dünya müsəlmanlarının himayəsi, dünyada zülmə düçar olanlara dəstək verilməsi İslam prinsiplərindəndir. Korrupsiya ilə mübarizə, zülmə qarşı çıxmaq, zorakılığa yox demək dəyişməz prinsiplərdir. Amma bu prinsiplərin həyata keçirilməsi prosesində müxtəlif yollardan istifadə oluna bilər, taktiki gedişlər aparmaq mümkündür.

İmam Xomeyni (r) inqilabın üsullarını, çərçivələrini o qədər dəqiq və aydın təyin edib ki, düşmən cərəyanlar onu mədəniyyət adı altında həzm edə bilməsin. Millət dəyişməz üsullara diqqətli olmalıdır. Bəli, dövlətlər, parlamentlər, məhkəmələr haradasa zəiflik göstərib inqilabın məqsədlərini həyata keçirməyə bilər. Amma bu zəiflik işçilərə, məmurlara, icraçılara aiddir, İslama yox. Təəssüf ki, düşmənlərin zəif nöqtələri İslam Respublikasına aid etməsinə uyanlar olur.

İslam nizamının möhkəm sütunları, aydın xətləri var. İslam üsullarının, prinsiplərinin arxasında möhkəm arqumentlər dayanır. Məsullar, qanunverici orqan, icraedici aparat, məhkəmə orqanları öz zəifliklərini aradan qaldırmalıdır. Bu xalqı səadətə çatdırmağın yolu prinsiplərə, imamın göstərdiyi xətlərə riayət etməkdir. Konstitusiyada bu xətlər öz əksini tapıb, millət bu prinsiplərə sədaqətini dəfələrlə nümayiş etdirib. Düşmən nüfuz yolunu bağlayan bu prinsiplərlə müxalifdir. O nüfuz etmək üçün yollar axtarır. Xalq, xüsusi ilə məsullar ayıq olmalıdır. Şükür ki, əziz xalqımız uzun illər boyu agahlıq nümayiş etdirib, bu nöqtələrə diqqətli olub.

Düşmən bilməlidir ki, bu millətlə zor dilində danışa bilməz, onu güc vasitəsi ilə təslim etmək mümkün deyil. Xalqımıza aydın olan budur ki, istənilən bir xarici təsir dünya və axirət səadəti üçün təhlükədir. Amerika bu gün təkcə bizimlə yox, bütün dünya ilə zor dilində danışır. Öz nüfuzunu genişləndirmək üçün müharibə ilə qorxudur. Hansı millət və dövlət bu hədələrdən qorxub təslim olsa, şübhəsiz öz qəbrini qazıb, öz zərərinə addım atıb.

Amerika rejimi bu gün dünya xalqları ilə, dövlətlərlə zor dilində danışmağı öz haqqı bilir. Baxın, ərəb dövlətləri necə təhqir olunur. Bu xalqlar daim təzyiq altındadır. Bu yolda istədiyi vasitələrdən istifadə edir. Qəsbkar İsrail rejimini İslam və ərəb dünyası qarşısında açıq dəstəkləyir. Eyni zamanda öz nüfuzunu genişləndirir. Bu dünyada çox mənfur bir hadisədir. Amerikaya nifrət hər gün artmaqdadır. Amerika prezidenti Avropaya səfərə gedəndə 10 minlərlə insan bu səfərə etiraz olaraq aksiya keçirir. Bu nə deməkdir? Onların öz sorğularına əsasən Amerika dövləti dünyada ən mənfur dövlətdir. İndi aydın olub ki, Amerikaya nifrət edən təkcə müsəlman ölkələri deyil. Rusiyada, Avropa ölkələrində anti-Amerika ruhiyyəsi var. Dünyada nifrət qazanmaqla nə etmək istəyirlər?

İran xalqı şəxsiyyətli bir xalqdır. Bu xalq öz müstəqillik və ləyaqətinə dəyər verir. İran xalqı hər hansı təhqirə dözümsüzdür. Dünyada bu xalqı təhqir etməyə heç kimin haqqı yoxdur. Hədə-qorxu da faydasızdır. Bəli, düşmən amansız və alçaqdır. Amerika Əfqanıstanda və dünyanın başqa nöqtələrində göstərdi ki, heç bir insani dəyərin onun üçün əhəmiyyəti yoxdur. Yoxsul və məzlum Əfqanıstanda bir qrupla mübarizə adı altında meydana daxil oldular. Axtardıqları adamları tapa bilmədilər. Amma dinc insanların başına bomba ələdilər, onları qətliam etdilər.

Bəli, onlar qəddardırlar. Amma bu qəddarlıq onları məqsədlərinə çatdıra bilməz. Heç şübhəsiz dünya xalqlarının silləsini dadacaqlar.[1]

## *Düşmənin İslam Respublikası ideallarına nüfuzu qarşısında dayanmaq*

İslam Respublikasının hüquqi və rəsmi bir nizam olması mühüm məsələdir. Bu Respublikanın konstitusiyası, parlamenti, dövləti, seçkiləri var. Bütün bunları qorumaq lazımdır, amma bu bəs etmir.

Hər zaman hüquqi bir qurumun daxilində həqiqi bir qurum var. Bu gerçək bir şəxsiyyətdir. Həmin şəxsiyyəti qorumaq lazımdır. Hüquqilik bir cisim kimidir. Hüquqilik bir qəlib, formadır. Amma həqiqilik, mahiyyət ruh kimidir. O hüquqi sistemin mənasını təşkil edir.

Əgər hüquqi sistemin mənası dəyişsə, forması qalsa belə mənasızdır. Onun davamı yoxdur. O çürümüş diş kimidir, yalnız görünüşü var. Möhkəm bir zərbə ilə üzləşən kimi dağılacaq. Əsas hüquqi sistemin daxilindəki həqiqətdir. Ruha bənzətdiyimiz bu həqiqət nədir? Bu İslam Respublikasının ideallarıdır. Ədalət, insanlıq dəyəri, dini dəyərlər, qardaşlıq və bərabərlik üçün təlaş, əxlaq, düşmən nüfuzu qarşısında dayanmaq və bu sıradan başqa dəyərlər hüquqi sistemin mahiyyətini təşkil edir. Əgər İslam əxlaqından, ədalətdən uzaq olsaq, görünüşün faydası yoxdur. Əgər ədalətə diqqətsiz qalsaq, dövlət məsullarının insanlığı ikinci plana keçsə, İslam Respublikasının məsulları da başqa ölkələrin məsulları kimi vəzifəyə qazanc mənbəyi kimi baxsa, xalqa xidmət və vətən

---

[1] İmam Xomeyninin (r) vəfat ildönümü mərasimi, 2003

yolunda fədakarlıq əhəmiyyətini itirsə, xəlqilik, sadə həyat tərzi məsullar üçün yad olsa, düşmən təcavüzü qarşısında dayanmaq unudulsa, beynəlxalq siyasətdə, siyasi əlaqələrdə şəxsiyyət zəifliyi özünü göstərsə İslam Respublikasının adının nə əhəmiyyəti var?! Parlament, dövlət sözlərinə İslam sözünü artırmaqla nəyəsə nail olmaq mümkün deyil. Əhəmiyyət kəsb edən bu qurumlarda İslam ruhunun olmasıdır. Zahiri şüarlarla kifayətlənməyək, mahiyyətə diqqətli olaq.

Unutmayaq ki, xarakter, mahiyyətin dəyişməsi tədrici prosesdir. Çoxları bunu hiss etmir. Əlbəttə ki, bəzən hamı bunu hiss edir. Amma artıq gec olur. Mahiyyət dəyişikliyini vaxtında görmək lazımdır. Universitet, müəllim və tələbələr daim bu məsuliyyəti öz üzərində hiss etməlidir.

İslam Respublikası həm zahir, həm də batində İslam olmalıdır. Sadəcə konstitusiyada, qanunlarda İslama yer verilməsi bəs etmir. Əsas qanunda prezident, parlament sədri, məhkəmə sistemi üçün meyarlar nəzərdə tutulması kifayət deyil. Bütün bunlar lazımdır, amma bəs etmir. Əsas məqsədlərdən yayınmalara diqqətli olmaq lazımdır. Bu nöqtə xüsusi ilə İmam Xomeyni (r) dünyasını dəyişəndən, 8 illik müharibədən sonra daha çox əhəmiyyət kəsb edir. Ötən iki onillikdə əsas iki problemdən biri bu olub. İslam Respublikasını əsas ruhiyyəsindən məhrum etmək üçün çox çalışıblar.

Müxtəlif formalarda, istər siyasətdə, istər mədəniyyətdə çox təlaşlarla rastlaşmışıq. Hətta mətbuatımızda rəsmi və açıq şəkildə dinin siyasətdən ayrı olması ilə bağlı iddialar səslənir. İslam Respublikasının əsası olan bir qayda, din və siyasətin bir olması qaydası sual altına alınıb. Bundan da yuxarı düşmən nüfuzu?! İslam Respublikasının

mətbuatında zalım və sərsəm Pəhləvi rejimi müdafiə olunur. Belə bir halın qarşıya çıxmaması üçün etiqad, düşüncə, sərhədlərini möhkəmləndirmək lazımdır. Siyasi sədd möhkəm olmalıdır. İslam kimliyinin meyarları aydın ortaya qoyulmalıdır. Ədalət, məsulların sadə həyat tərzi, fədakarlıqla iş, fasiləsiz elmi fəaliyyət, biganələrin müdaxiləsi qarşısında dayanmaq, milli haqların müdafiəsi meyarları aydın olmalıdır. Milli haqların şücaətlə müdafiəsi bir meyardır. Nüvə enerjisi bu sıradandır. Bizim onlarla ehtiyacımızdan biri nüvə enerjisidir. Düşmən bu nöqtə üzərində inad göstərirsə, millətimiz də müqavimət ortaya qoyur. Əgər düşmən irəli gəldiyi zaman xalq, məsullar geri çəkilsə, güzəştə getsə, bu zaman düşmən üçün milli haqlara əl uzatmaq yolları açılacaq.[1]

## *İslam İnqilabı ilə düşmənçiliyin bir səbəbi düşmən nüfuzu qarşısında dayanmaqdır*

Dünya imperializminin, başda Amerika və sionist rejimin İslam, İslam Respublikası ilə düşmənçiliyinin əsas səbəbi dilə gətirilənlər deyil. Əsas səbəb İslam Respublikasının kimliyi, iradəsi, təsbit və inkarıdır.

İmperializm, əsarət, millətin təhqiri rədd olunur. Siyasi asılılığa, müdaxilələrə, sekulyar əxlaqa yox deyilir. İslam Respublikası belə hallar qabağa gələndə inkar mövqeyi tutub.

Başqa bir məqam təsbitdir. İslam Respublikası milli kimliyi, İslam dəyərlərini, dünya məzlumlarının müdafiəsini, elm zirvələrinin fəthini təsbit edir, bu yolda möhkəm dayanıb. Amerika və sionist şəbəkəsinin İranla

---

[1] Elm və Texnologiya Universitetində müəllim və tələbələrlə görüş, 2009

düşmənçiliyinin əsas səbəbi budur. Əgər Amerikanın təsirini qəbul etsək düşmənçiliklər azalacaq. Əgər xalqımızın təhqirinə razı olsaq, milli kimliyin və milli dəyərlərin müdafiəsindən əl çəksək heç şübhəsiz, düşmənçilikləri azalacaq. Deyirlər İslam Respublikası rəftarlarını dəyişsin. Amerika kimi imperialist dövlətlərin başçıları İran haqqında danışanda deyirlər ki, biz İslam Respublikasının ləğvini yox, rəftarlarının dəyişməsini istəyirik. Rəftarı dəyişmək nə deməkdir? Yəni inkar etdiklərini inkar etməsin, təsbit etdiklərinin təsbitindən əl çəksin. İstədikləri budur.

Bu inkar və təsbit sayəsində İslam Respublikası çox güclü təchizatlı cəbhə qarşısında dayana bilib. 8 illik müqəddəs müdafiə dövründə Şərq, Qərb, Avropa, Nato, bəzi ərəb ölkələri əl-ələ verdilər ki, İslam Respublikasını səhnədən çıxarsınlar. Amma bacarmadılar. Müharibədən sonra siyasət meydanında da eyni hadisə yaşanır. İslam Respublikası bacardı ki, super güclərin qarşısında müqavimət göstərsin. Nəinki geri çəkilmədik, hətta inkişaf etdik, düşmənə zərbə endirdik.

Bu gün Amerikanın Yaxın Şərqdəki vəziyyətinə baxın. Bugünkü vəziyyəti 15 il əvvəlki vəziyyətlə müqayisə edin. Görün Amerika Yaxın Şərqdə hansı vəziyyətdədir. Amerikaya nifrət hər gün artır. Fələstin məsələsində bir şəkildə, Livan məsələsində başqa bir şəkildə, İraq və Əfqanıstan məsələsində ayrı bir formada həmin nifrətin artdığına şahidik. Amerikanın Yaxın Şərqdəki layihələrində hədəf İran olub. Amma məqsədinə çata bilməyib, zərbə alıb. İslam Respublikası yetərli həddə müqavimət göstərib. Əlbəttə ki, çox fitnəkarlıqlar törədiblər. İnqilabın əvvəllərində bir şəkildə, sonrakı onilliklərdə başqa şəkildə fitnəkarlıq ediblər. Bu barədə

ətraflı danışmaq imkanımız yoxdur. Əziz müəllim və tələbələrin, universitet cəmiyyətinin, geniş xalq kütlələrinin, xüsusi ilə istedadlarımızın diqqət yetirəcəyi məsələ budur ki, İslam Respublikası dünya güclərinin zoru qarşısında müqavimət göstərə bilib. Onların bir məqsədi olub, o da İslam Respublikasını məhv etmək. İslam Respublikası isə nəinki məhv olmayıb, günbəgün güclənib.

İqtidar, potensial imkanlar qorunmalı və inkişaf etdirilməlidir. Mövcud müqavimət gücünü biganəliklə, məsuliyyətsizliklə, təlaş göstərmədən qorumaq mümkün deyil. İslam Respublikasını sözün əsl mənasında qorumaq lazımdır. Təlaş göstərməklə bu respublikanı qoruyub inkişaf etdirmək olar. Çalışmaqla inkişaf zirvəsinə, qarşıya qoyulmuş ideallara çatmaq mümkündür.[1]

İranın siyasi coğrafiyası dəyişib. Amma ölkəmizin siyasi mövqeyi dəyişməzdir. İran dünyanın çox həssas nöqtəsində yerləşir. Dünya xəritəsini qarşınıza qoysanız bir dəfə nəzər salmaqla görəcəksiniz ki, Şərq-Qərb rabitələri baxımından ölkəmiz necə həssas mövqedədir.

Təbii sərvətlər baxımından həssas mövqedəyik. Bir zaman bir imperia ilə qonşu olduğumuz üçün həssas mövqedə idik. Millətimizin istedadı baxımından mövqeyimiz həssasdır. Coğrafi, təbii, tarixi, mədəni, iqtisadi baxımdan kompleks bir həssaslıq var. Bir zaman Amerikanın ovucunda idik. Yüz minlərlə amerikalı Tehranda həssas mövqe tuturdu. Bu millətin büdcəsindən böyük maaş alırdılar. Süfrəmizdən yeyib, bizi təhqir edirdilər. Hansı həddə təhqir olunduğumuzu bilmək üçün

---

[1] Elm və Texnologiya Universitetinin müəllim və tələbələri ilə görüş, 2009

mərhum imamın 1965-ci ildə 13 noyabrdakı çıxışını dinləyin. İmam həmin çıxışda Amerika dövləti yox, amerikalıların vasitəsi ilə İran xalqının təhqirindən söz açır. Təbii sərvətləri aparırdılar, əlaltılarının vasitəsi ilə siyasətlərini məntəqəyə diktə edirdilər. Hər addımlarında bir məqsəd izləyirdilər.

İslam İnqilabı bütün bunları onların əlindən birdəfəyə aldı. Amerikanın vücuduna ağır zərbə vuruldu. Amerika itirdiklərini geri qaytarmaq üçün yollar axtarışına başladı. İstədilər öz adamlarını iş başına gətirsinlər, adı inqilabçı olsun, batində onlara işləsin. Əslində öz hakimiyyətlərini daha da gücləndirmək fikrinə düşdülər. İmamın güclü və təyinedici mövqeyi olmasaydı, istəklərinə çatardılar. 1980-cı il 13 noyabr hadisəsi də ağır zərbə oldu. İmam dağ kimi möhkəm dayanmışdı. Onların istədiyi alınmadı, gözlədiklərinin əksi ilə qarşılaşdılar. Nəinki inqilab Amerika rənginə boyanmadı, Amerikanın nəzarəti altında olmamaq ruhiyyəsi daha da gücləndi. Nəticə bu oldu ki, Amerika rejimi həmişəlik İran xalqına düşmən kəsildi.

Amerikanın fitnəkarlıqlarından biri İraqın İrana təcavüzə vadar edilməsi oldu. 8 illik müharibədə Amerika bütün vücudu ilə Səddama kömək etdi. Hətta amerikalı hərbiçilər müharibədə İraqa dəstək oldu. Bütün bunlar tədricən üzə çıxıb. Zaman ötdükcə yeni-yeni sənədlər ortaya çıxır, xatirələr yazılır, sirlər açılır. 1981-82-ci illərdə iqtisadi mühasirə Amerikanın əsas cinayətlərindən idi. Hansı sahədə inkişaf görürdülərsə həmin sahədə mane olmağa daha çox çalışırdılar. Allahın bu haqda böyük lütfü oldu. Amerikanın bütün fitnəkarlıqları göz qabağında puça çıxdı.[1]

---

[1] Tələbə və məktəblilərlə görüş, 1998

## *Hərbi qüvvələr düşmən nüfuzuna diqqətli olsun*

Silahlı qüvvələr səhnədədir. Onlar bir xalq, bir məmləkətin ətrafında divardır. Divar həmişə möhkəm olmalıdır. Silahlı qüvvələrin öz möhkəmliyini saxlaması zəruridir. Divar daxilində müxtəlif hadisələr baş verir, müxtəlif şəraitlər yaranır. Kimsə yatıb, kimsə oyaqdır. Bir qrup davalaşır, başqa biri toy mərasiminə məşğuldur. Üçüncü bir dəstə əzadarlıq edir. Amma bütün bunlar möhkəm divarlar içində olmalıdır. Silahlı qüvvələrə belə bir divar kimi baxın. Bu divar yerində və möhkəm olmalıdır. Əgər bu qüvvələr diqqətli olsalar, daim düşmənin hərəkətlərini izləsələr, divar daxilində təhlükəsizlik və sabitlik qorunar. Xalq yalnız təhlükəsizlik şəraitində dünya və axirətinə çata bilər. Sabitlik yoxsa hər hansı sahədə müvəffəqiyyət də yoxdur. Demək, silahlı qüvvələr mövzusu diqqət kənarında saxlanılası mövzu deyil. Buna hamı diqqət yetirməlidir. Silahlı qüvvələr özü, dövlətlər, xalq bu məsələyə əhəmiyyət verməlidir. Divar daxilində nə baş verirsə baş versin, divarlar yerində və möhkəm olmalıdır. Silahlı qüvvələri bir divara bənzətdik. Divar müxtəlif mənalar daşıya bilər. Siz özünüz divarsınız. Ordu da bir növ divardır. İnqilab keşikçiləri də, bəsic də divardır. Asayiş keşikçiləri, polisi də divar saymaq olar. Təhlükəsizlik qüvvələri də nə mənadasa divardır. Onların hər birinin öz vəzifəsi var. Sadaladıqlarımın hər biri öz divar funksiyasına diqqətli olmalıdır.[1]

---

[1] Asayiş Keşikçiləri ilə görüş, 2011

Silahlı Qüvvələrə düşmən nüfuzu bu qüvvələrin müqavimətini qırmaq üçündür. Cihad inqilabi cəmiyyətin qorunmasında mühüm amildir, cihadsız həyat yoxdur. Bir xalqa müharibələr qəbul etdirilir. Belə müharibələrdə özünüzü müdafiə etməyə məcbursunuz. Torpağı, milləti qorumaq zəruridir. Biz zalım güclərin ayağı altda əzilən məzlum xalqları da müdafiə etməliyik. Bütün bunlar İslam cihadında nəzərdə tutulub. Cihadın həm müdafiə, həm hücum növü var. Demək, cihad bir prinsipdir. Silahlı Qüvvələrə hər hansı şəkildə düşmən nüfuzu cihad əsasını süstləşdirmək məqsədini daşıyır. Bəs İslam cəmiyyəti daxilində fəsad törədən kimdir? Düşmən gəlib ölkə daxilində bu işi görə bilərmi? Təbii ki, yox. Düşmən ölkə daxilində daxilən onunla eyni olan qüvvələr tapır. Münafiqlər qrupu bir misaldır. Bəs onlara kim deməlidir ki, dayanın, fəsada son qoyun?

Bir nöqtəyə diqqət yetirin. Daxildəki düşmən qüvvələrdən bir qismi xariclə əlaqə saxlayır, onları təcavüzə təhrik edir. İstəyirlər ki, ölkəmizə hücum olsun. Müxtəlif hiylələrlə düşməni buna həvəsləndirirlər. Bunu müharibə zamanı görmüşük. Səninlə bir cəbhədə olan şəxs düşmənlə əlaqəyə girir, cəbhədəki vəziyyət barədə məlumat ötürür. Cəbhədə nə baş verirsə düşmən bundan xəbər tutur. Tehranın bombalanmasını yada salaq. Tehranın harasınasa mərmi düşürdü. Amma bomba atan düşmən hansı nöqtəni vurduğunu bilmirdi. Bunu Tehrandan onlara çatdırırdılar, Tehranda vurulan hansı nöqtədir. Beləcə düşmən öz zərbələrini korrektə edir, dəqiqləşdirirdi. Mən özüm cəbhədə olanda bunu görmüşəm. Əhvazda münafiqlər bu işi görürdülər. Amma maraqlı nöqtə budur ki, bəzən onların öz aralarında mübahisəyə şahid olursan. Bir düşmən o biri düşmənə,

yəni öz əqidə yoldaşına deyir ki, nə üçün aranı qarışdırırsan? Nə üçün elə bir iş görürsən ki, düşmən bizim ölkəmizə sahib olsun? Hər ikisi münafiqdir, hər ikisi düşməndir, amma aralarında fikir ayrılığı var. Qurani-Kərimin Həşr surəsinin 14-cü ayəsində buyurulur ki, onları bir görərsən, hansı ki, qəlbləri ayrıdır. Yəni aralarında ixtilaf var. Bu gün İslama qarşı dayananlar siyasətçi və ya incəsənət adamı olmasından asılı olmayaraq bir cəbhədədirlər. Amma aralarında ixtilaf var. Bəqərə surəsinin 11-ci ayəsində buyurulur ki, onlara yer üzündə fəsad törətməyin deyiləndə, cavab verərlər ki, biz yalnız islah edirik. Onların arasında kimsə dağıdıcılığa etiraz edə bilər. Öz cəbhə yoldaşına etiraz edər ki, nə üçün düşmənə kömək edirsən, təxribat törədirsən, aranı qarışdırırsan? Münafiqlərlə hər hansı şəkildə rabitəsi olan mömin onların ixtilaflarına diqqət edib kimliklərini tanıya bilər. Bəli, bir şəxs düşmən olmadığını, əslində islahat aparmaq istədiyini deyir. Bu adamla ünsiyyətdə olduqda onun əsil mövqeyini görürsən. Münafiqlərlə ünsiyyətdə olduqda sözdə islahatçı olduğunu deyənlərin əməldə təxribat törətdiyinə şahid oluruq. Heç bir söz əməli pərdələyə bilməz. Onların hərəkətlərini izlədikdə görürsən ki, münafiqdir, həqiqi mömin deyil.[1]

Bəli, millət və ölkənin əhatəsindəki divarları süstləşdirməyə qoymamalıyıq. Silahlı qüvvələr belə bir divardır. Əvvəla silahlı qüvvələr təhlükəni ciddi saysın, hərbi qüvvələr siyasi qüvvələr kimi hesabat apara bilməz. Siyasilər deyir ki, düşmənin hücum ehtimalı azdır. Məsələn iyirmi faizdir. Hərbiçi deməlidir ki, düşmənin

---

[1] Quran sinfində bəyanat, 1992

hücum ehtimalı yüz faizdir. Yəni onun hazırlığı tam hazırlıq olmalıdır. Silahlı Qüvvələr daim ayıq olmalıdır.[1]

## Düşmən nüfuzunun növləri və formaları

Düşmən nüfuzunun iki növü var: Biri fərdi nüfuzdur, o biri nüfuz cərəyanı.

1. Fərdi nüfuz

Fərdi nüfuzun nümunələri çoxdur. Təsəvvür edin ki, siz bir təşkilatda rəissiniz və həmin təşkilata maskalanmış biri göndərilir. Zahirinə baxıb düşünürsünüz ki, dostdur. Amma o dost deyil, çöhrəsini dəyişib ki, tapşırığı yerinə yetirsin. Ən kiçiyi budur ki, casusdur, mövcud vəziyyəti öyrənib lazım olan yerə çatdıracaq. Bəzən işi casusluqdan yuxarıdır. Siz rəissiniz və mühüm qərar çıxara bilərsiniz. O çalışacaq ki, sizin qərarlarınıza təsir göstərsin. Biz bunu görmüşük. Təkcə siyasi qurumlarda olmur. Dini qurumlarda da nümunələri var. Mərhum cənab Seyyid Həsən Təhami ölkəmizin məşhur ruhanilərindən olub. Bircənddə yaşayıb. Qum və ya Nəcəfdə qalsaydı hökmən böyük müctəhid olardı. Özü mənə danışıb. Deyirdi ki, iraqlılar ingilislərlə vuruşanda bir müctəhidin zahirən xoşagələn bir xidmətçisi vardı. Bu xidmətçi tələbələrlə ünsiyyət saxlayır, onlarla söhbət edir, onların qəlbini ələ alırdı. İngilislər qələbə qazanıb İraqı ələ alandan sonra ən sonda Nəcəfə daxil olublar. Tələbələrə xəbər çatıb ki, həmin müctəhidin sevilən xidmətçisi ingilis zabitidir. Mərhum Təhami öz söhbətində deyirdi ki, mən inana bilmədim. Sonradan Nəcəfin məşhur bazarlarından olan Huvəyş bazarında onu hərbi geyimdə at üstündə gördüm. Mən divarın kənarına çəkildim ki, ötüb keçsinlər. Mənim

[1] Asayiş Keşikçiləri ilə görüş, 2011

yanımdan keçəndə dedi Seyyid Həsən necəsən? Daha şəkkim qalmadı ki, bu həmin xidmətçidir. Uzun illər bizimlə ünsiyyətdə olmuşdu, qəlbimizi ələ almışdı. Bu mərhum Seyyid Həsənin danışdıqlarıdır... Bəzən düşmənin nüfuzu belə olur. Bir müctəhidə xidmət göstərir. Bu fərdi nüfuzdur. Bir evə, bir müəssisəyə daxil olur, məlumat toplayır. Əlbəttə ki, bu həm də çox təhlükəli nüfuzdur.

2. Nüfuz cərəyanı

Fərdi nüfuzdan da təhlükəli nüfuz cərəyanı və ya cərəyan nüfuzudur. Nüfuz cərəyanı deyəndə ölkə daxilində pul vasitəsi ilə fəaliyyət göstərən şəbəkələr nəzərdə tutulur. Bu işdə pulun, iqtisadi fəaliyyətlərin rolu aydındır. Bu işdə iki təsirli amil var. Biri puldur, digəri cinsi cazibə. İnsanları belə təşkilatlara, şəbəkələrə cəzb edir, onlara aldadıcı bir məqsəd elan edirlər. Cəmiyyətdə təsirli insanları belə şəbəkələrə toplamağa çalışırlar. Məqsəd nə iş görməkdir? İnancları, idealları, baxışları, həyat tərzlərini dəyişmək istəyirlər. Şəbəkə üçün kütlə arasında auditoriya var. Həmin şəbəkə bu auditoriyanın düşüncəsini dəyişməlidir. Elə etməlidir ki, insanlar amerikalı kimi düşünsün, həyata amerikalı kimi baxsın. Bir amerikalı siyasətçinin Amerika xalqı ilə işi yoxdur. Lazım olan budur ki, bir CİA[1] əməkdaşı necə düşünürsə, cəmiyyət də elə düşünsün. O nə istəyirsə insanlar da onu istəsin. Əgər buna nail olsa, rahat otura bilər. Özünün meydana girib bir iş görməsinə ehtiyac qalmır. Artıq cəmiyyət onun üçün işləyir. Məqsəd budur. Cəmiyyətə nüfuz etmək və qarşıya qoyulmuş məqsədlərə nail olmaq. Əgər məmləkətin taleyinə, siyasətinə, gələcəyinə təsirli insanlara yol tapa bilsələr faciələr baş verib. Bu zaman

---

[1] Amerika Kəşfiyyat İdarəsi

artıq bütün məmləkətin siyasətini, ideallarını dəyişiblər. Cəmiyyətdə dəyərlər dəyişilir. Cəmiyyətin istəyi, etiqadları əvəz olunur.

Bu gün siz görürsünüz ki, Fələstində xalqa aşkar zülm olunur. Buna etiqadınız var. Hazırda Fələstində öz evində əyləşmiş ərəb - istər müsəlman olsun, istərsə məsihi - təcavüzə məruz qalır. Ona amerikalı gözü ilə baxırlar. Siz isə onu zülmə düçar olmuş sayırsınız. Əgər sizin baxışınızı dəyişə bilsələr, siz də həmən amerikalı kimi baxacaqsınız. Amerika deyir ki, İsrail öz kimliyini müdafiə edir. Obama nə deyirdi? Deyirdi İsrail özünü müdafiə edir. Gecə-gündüz Qəzzəyə od ələyəndə, müdafiəsiz bir xalqı öz evində, öz torpağında, öz məktəblərində və öz xəstəxanalarında vuranda düşünürdülər ki, İsrail özünü müdafiə edir!! Baxış bu idi. Şəbəkə yaradılanda, nüfuz cərəyanı işə düşəndə İranın daxilində olan insan da amerikalı kimi düşünür. Düşmən nüfuzunun mahiyyəti budur. Görün necə təhlükəlidir![1]

## Düşmən nüfuzunun formaları

1. İqtisadi sahədə nüfuz etmək və iqtisadi təxribat

Təqva nədir? Təqva ardıcıl şəkildə özünə diqqət etmək, özünü qorumaqdır. Təqva sayəsində insan büdrəmələrdən özünü qoruyur, tikanlar əl-ayağını dalamır. Təqva əslində bir zireh, sipər kimidir. Təqva libası geyinmiş insan zəhərli oxlardan qorunur. Burada təkcə mənəviyyat məsələləri nəzərdə tutulmur. Qurani-Kərimdə buyurulur ki, kim ilahi təqva yolunu seçsə, Allah onun üçün qurtuluş yolu açar; ona güman etmədiyi yerdən ruzi verilər.[2] Dünya

---

[1] Bəsic - könüllü dəstələrinin komandanları ilə görüş, 2016

[2] Fələq surəsi, ayə 2-3

işlərində də təqvanın mühüm təsirləri var. Fərdə aid edilən bu məsələlər cəmiyyət və məmləkətə də aiddir. Bəs bir ölkənin, bir cəmiyyətin təqvası nədir? Yüksək idealları olan İslam Respublikası kimi bir cəmiyyət zəhərli oxların hücumundan necə qorunmalıdır? İctimai təqvaya təriflər verə bilərik. İqtisadiyyat sahəsində təqva müqavimət iqtisadiyyatından ibarətdir. Əgər iqtisadiyyatımızı dünyadakı böhranlardan, düşmən siyasətlərindən qorumaq istəsək müqavimət iqtisadiyyatını işə salmalıyıq. Müqavimət iqtisadiyyatı bir istehkam, səddir. Bütün iqtisadi və siyasi gücünü, media vasitələrini işə salıb hücuma keçənlər qarşısında müqavimət iqtisadiyyatı sədd çəkir. Çünki düşmənin nüfuz yollarından biri iqtisadi böhran yaratmaqdır. Bu barədə uzun illərdir xəbərdarlıq edirik. Məsullar da hərəsi öz gücü həddində çalışır. Amma biz müqavimət iqtisadiyyatına bütün vücudumuzla sərmayə yatırmalı, potensial imkanlarımızı işə salmalıyıq. Müqavimət iqtisadiyyatını iqtisadiyyat sahəsində təqva saya bilərik. Bu təkcə bizə aid deyil. Bir çox ölkələrdə müqavimət iqtisadiyyatının nümunələrini görə bilərsiniz. Onlar müqavimət iqtisadiyyatından istifadə edib və bəhrə götürüblər.[1] Bizim iqtisadi qərarlarımızda, iqtisadi proqramlarımızda zəif nöqtələr olub. Həmin zəif nöqtələr düşməndə elə bir fikir yaradıb ki, sanksiyalar vasitəsi ilə bir iş görə bilərlər. Bu bizim üçün də zəif nöqtələri tanımaqda kömək olub. Biz bu nöqtələri Allahın köməyi ilə aradan qaldıracağıq. Amerika üçün sanksiyalar da faydasız oldu. Düşünürəm ki, özləri də bunu başa düşürlər. Sanksiyaların təsirsiz olduğunu görmələrinə dəlil arabir hərbi təhdidə üz tutmalarıdır. Əgər iqtisadi sanksiyalar

[1] Dövlət məsulları ilə görüş, 2016

təsirlidirsə, nə üçün hərbi müdaxilə ilə hədə-qorxu gəlirsiniz?! Aydındır ki, iqtisadi sanksiyalar təsirli olmayıb.

İqtisadi sanksiyalar cavab verməyəndə hərbi müdaxilə ilə hədələməyə məcburdurlar. Əlbəttə ki, hərbi təhdidləri çox ikrah yaradır. Prezidentlər bir-birinin ardınca hərbi müdaxilə ilə qorxudur. Eyni sözü hər prezident təkrarlayır. Hərbi təhdid əvəzinə gedin dağılmış iqtisadiyyatınızı dirçəldin. Bir tədbir görün, dövlətiniz 15-16 gün işdən düşməsin. Gedin dövlət borclarını ödəyin. İqtisadiyyatınızı böhrandan qurtarmaq barədə fikirləşin. Biz demişik ki, İran xalqı dünyanın bütün xalqlarına ehtiramla yanaşır. Əmirəlmömininin (ə) təbirincə onlar sizin ya din qardaşlarınızdır, ya da yaranış qardaşlarınız.[1] Amma İran xalqının reaksiyası da sarsıdıcı olur. Həddini aşana elə bir sillə ilişdirir ki, bu sillə heç vaxt yadından çıxmır. (Bəsic - könüllülərin komandanları ilə görüş, şəmsi 1392)

İqtisadiyyat sahəsində məsulların gözü açıq olmalıdır. Düşmən nüfuzuna yol verməməlidirlər. Düşmən nüfuzu iqtisadiyyatın sütunlarını silkələyir. Hansı ölkədə iqtisadiyyata nüfuz edə bildilərsə kabus yaratdılar, ölkəyə müsibət yaşatdılar. Onların iqtisadi nüfuzundan zərbə almış ölkələrdən birinin prezidenti Tehrana səfərində mənə dedi ki, bizi bir gecədə dilənçiyə çevirdilər. Həm də bu ölkə inkişaf etmiş ölkələrdən idi. Tanınmış bir kapitalist bir ölkəni dizə çökürməyə qərar verir, öz sərmayələrini geri götürür. Belə hallar çoxdur. Amma mədəniyyət, siyasət sahəsində düşmən nüfuzu daha təhlükəlidir.

2. Mədəniyyət sahəsində düşmən nüfuzu və təxribat

---

[1] Nəhcül-bəlağə, 53-cü məktub

Mədəniyyət sahəsi iqtisadiyyatdan çox əhəmiyyət kəsb edir. Çünki mədəniyyət bizim nəfəs aldığımız fəzadır. Siz nəfəs almağa borclusunuz. İstəsəniz də, istəməsəniz də bu işi görməlisiniz. Əgər hava təmiz olsa, təmiz hava ilə nəfəs alırsınız. Əgər hava çirkli olsa onun çirkabı orqanizminizə daxil olur. Bir ölkənin mədəniyyəti də hava kimidir. Mədəniyyət saf olanda onun təsirləri də müsbətdir. Tez-tez daxili istehsaldan danışırıq. Əgər doğrudan da daxili istehsalı işə salmaq istəyiriksə xalqda yerli məhsullardan istifadə mədəniyyəti formalaşmalıdır. Əgər xalqı israfdan çəkindirmək istəyiriksə, xalqda bu etiqadı yaratmalıyıq. Bu mədəniyyətdir. Mədəniyyət xalqın etiqadlarından ibarətdir. Xalqın gündəlik həyatdakı adətləri mədəniyyəti təşkil edir. Deməli, mədəniyyətin əhəmiyyəti böyükdür. Cəmiyyətin qanuna ehtiramla yanaşması bir mədəniyyətdir. İctimai fəaliyyətlər, ailə təşkili, övlad sayı mədəniyyətə aiddir.

Əgər mədəniyyət sahəsində xalqın baxışı düzgün olsa ictimai həyat da müsbət şəkil alacaq. Allah eləməmiş, mədəniyyətdə büdrəmə olsa bu özünü ictimai həyatda da göstərəcək. Baxın ailə institutunun dağıldığı, şəhvətin hakim olduğu cəmiyyətlərə. Qurani-Kərimdə buyurulur ki, şəhvət ardınca getdilər və tezliklə öz azğınlıqlarının cəzasını görəcəklər.[1] Deməli, düşmən daha çox mədəniyyət sahəsinə nüfuz etmək üzərində diqqətini cəmləyib. Çünki bunun təsiri böyükdür. Mədəniyyət sahəsinə nüfuzda düşmənin hədəfi xalqın imanı, etiqadlarıdır. Mədəniyyət sahəsinin məsulları diqqətli olmalıdır. Mədəniyyətdə böhran çox təhlükəlidir. Həssas, ayıq olmaq lazımdır. Demək istəmirəm ki, bütün ideoloji

[1] Məryəm surəsi, ayə 59

problemlərimizin günahkarı biganələrdir. Xeyr, özümüz də müqəssirik. Müxtəlif sahədə məsullar o cümlədən mədəniyyət sahəsinin məsulları lazımi səviyyədə işləməyiblər. Nöqsanlara yol verilir. Hər problemi düşmənin boynuna atmırıq. Amma düşmənin mədəniyyət sahəsinə nüfuz etmək planlarını da yaddan çıxarmamalıyıq. İnqilabın əvvəllərindən təbliğat qurumlarımız fəaliyyətdə olub. Amma düşmən təbliğat aparatı da xalqı rahat buraxmayıb, onu inqilabi ideallara biganələşdirməyə çalışıb. İnsanların qəlb inancını hədəfə alıblar. Buna biganə qalmaq olmaz. Sual oluna bilər ki, məsullar hansı həddə həssas olmalıdır? Bu həssaslıq inqilabın şüarlarından olan azadlıqla zidd deyilmi? Xeyr, bunun azadlıqla heç bir ziddiyyəti yoxdur. Azadlıq anarxiya deyil. Azadlıq bütün ənənələri kənara qoymaq deyil. Azadlıq böyük ilahi nemətdir, onun da öz şərtləri var. Qayda-qanunsuz azadlıq faydalı sayıla bilməz. Əgər bir qrup ölkənin gənclərini hədəfə alıbsa, onların imanının kökünü qazmaq istəyirsə, azadlıqdır deyə seyirci mövqe tutmaq olmaz. Müxtəlif narkotik maddələr, heroinlə gənc nəsli zəhərləyirlərsə, ailə əsaslarını dağıdırlarsa buna biganə qala bilmərik. İncəsənətdən, müxtəlif sənəd növlərindən sui-istifadə edib cəmiyyətin imanını süstləşdirirlərsə buna göz yuma bilmərik. Düşmən nə istəyirsə etsin, biz də azadlıq deyə susaq?! Belə bir azadlıq dünyanın heç yerində yoxdur. Azadlıq şüarları ilə çıxış edən bütün ölkələrdə qırmızı xətlər mövcuddur. Görün Avropada bir nəfər Holokast haqqında danışa bilərmi? Bir hadisənin gerçəkdən olub-olmadığı məlum deyil, amma bu barədə danışmağa qadağa var. Hətta bu hadisəni şübhə ilə qarşılamaq cinayət sayılır. Qanun Holokasta qarşı olanlara cəza təyin edir. Amma azadlıq şüarları verir, özlərini azad

ölkə sayırlar. Özləri qırmızı xətt çəkdikləri halda bizdən qeyd-şərtsiz azadlıq umurlar. Necə ola bilər ki, dəyərlərimizlə bağlı qırmızı xətlərimiz olmasın.[1]

Düşmən təlaş göstərir ki, mədəniyyət sahəsində cəmiyyətin etiqadlarını dəyişsin. O etiqadlar ki, bu cəmiyyəti ayağa qaldırıb, həmin etiqadları hədəfə alırlar. Milyardlar xərcləyirlər ki, bu ideallara zərbə vursunlar. Bu mədəniyyət sahəsində düşmən nüfuzudur. (İnqilab Keşikçiləri komandanları ilə görüş, şəmsi 1394)

## *İnsan haqları adı altında düşmən nüfuzu*

Dünya xalqları yekdil olaraq bu fikirdədir ki, bir millət öz mədəniyyətinə təcavüzə yol versə, məhv olub gedər. O millət qalibdir ki, onun mədəniyyəti qalibdir. Elə bir mədəniyyət ki, onun qələbəsi ilə iqtisadiyyat, siyasət, təhlükəsizlik və hərb sahəsində də qələbə əldə olunur.

Dünyanın super gücləri çalışırlar ki, onların dili dünyaya yayılsın. Çünki dil mədəniyyəti ötürmək üçün əsas yollardandır. Din və etiqad, milli adət-ənənələr dil yolu ilə ötürülür. Bu gün dünyanın böyük gücləri zorla da olsa öz mədəniyyətini başqa xalqlara qəbul etdirmək istəyir. Amerikalılar dünyanın müxtəlif ölkələrinə qoşun yeridib öz adət-ənənələrini zorla qəbul etdirirlər. Biganə mədəniyyətlər buralara da gəlib çatır. Bura insan haqları adı altında yol axtarırlar. Amerikalılardan soruşan yoxdur ki, dünyanın harasında qaradərililərlə sizin kimi vəhşi rəftar edirlər? Dünyanın harasında yüzlərlə qadın və uşağı, kişini bir binaya yığıb od vurublar?! Əgər dünyanın bir yerində belə hadisələr baş veribsə, onda insan haqlarının pozulmasından danışın. Bu hadisələr Amerikada baş verib.

---

[1] İmam Rizanın (ə) hərəmi, 2015

Amerikadan başqa haradasa belə vəhşiliklər görməmişik. Sionistlər də dünyanın ən qəddar cəmiyyətidir. Amerikanın himayəsi altında hərəkət edirlər.[1]

3. Siyasət barəsində düşmən nüfuzu və təxribat

Siyasətə nüfuz etmək odur ki, ölkənin taleyi ilə bağlı qərarlar çıxarılan siyasi mərkəzlərə nüfuz edilsin. Bir ölkənin siyasi qurumları düşmən təsiri altında olarsa, o zaman bu ölkədəki bütün qərarlar həmin xarici dövlətin mənafelərinə uyğun olacaq. Bütün sahələrdə nüfuz etmiş dövlətin iradəsi yeriyəcək. Onların istədiyi budur. İstəmirlər ki, özlərindən bir nəfəri gətirib hakim etsinlər. 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərində Hindistanda öz adamlarını hakimiyyətdə yerləşdiriblər. İngiltərəli bir şəxs Hindistana başçılıq edib. Bu gün artıq zaman dəyişib bu mümkün deyil. İstəkləri budur ki, bir millətin özündən onlar kimi düşünən birini hakimiyyətə gətirsinlər. Onların istədiyi kimi qərar çıxarsın, onların istədiyi kimi addım atsın. Taleyüklü qərarlar çıxarılan mərkəzlərə nüfuz etmək istəyirlər.

Əgər biz ayıq olsaq, onların ümidi puça çıxar. Onlar İran xalqının, İslam Respublikası quruluşunun bir gün yatacağını gözləmirlər. Vəd edirlər ki, 10 ildən sonra İran başqa bir İran olacaq. İmkan verməməliyik ki, düşmənin qəlbində belə bir şeytani ümid möhkəmlənsin. İnqilabın sütunlarını, inqilabi düşüncəni elə möhkəmləndirməliyik ki, aparıcı fiqurların səhnədən çıxması ilə inqilabi hərəkat sönükməsin. İnqilab Keşikçiləri və digər inqilabi qüvvələrin əsas vəzifəsi budur.[2]

4. Təhlükəsizlik sahəsində düşmən nüfuzu və təxribat

---

[1] Prezidentin təqdimat mərasimi, 1994

[2] İnqilab Keşikçiləri komandanları ilə görüş, 2016

Təhlükəsizlik sahəsində düşmən nüfuzu ciddi məsələdir. Amma ideoloji, siyasi sahə ilə müqayisədə bu kiçik məsələdir.[1]

Xalqa müraciətlə deyirəm ki, siz böyük və şücaətli xalq inqilabın ölkədən vurub çıxardığı düşməni 10 illərdir qapı arxasında saxlamısınız, onun nüfuzuna yol verməmisiniz. Dəfələrlə xalqa, məsullara müraciətlə təkrarlamışam ki, düşmən nüfuz etmək istəyir. Harada nüfuz üçün yol görsə dayanmayacaq. Diqqətinizi gücləndirin. Düşmən milli təhlükəsizliyinizi hədəfə alıb. Bir xalq üçün milli təhlükəsizlik hər şeydən əhəmiyyətlidir. Ölkədə sabitlik yoxsa dövlət bir iş görə bilməz. Bütün quruculuq işlərinin həyata keçməsi üçün ölkədə sabitliyə ehtiyac var. Hərc-mərclik, qeyri-sabitlik olanda dövlət iş görə bilmir. İqtisadiyyat da, mədəniyyət də, sosial məsələlər də sabitliklə şərtlənib. Buna görə də düşmən təhlükəsizliyi hədəfə alıb. Xalqımız bunu anlayır. Şükür ki, xalqımız oyaqdır.[2]

Yol vermək olmaz ki, düşmən nəzarət adı altında təhlükəsizlik və müdafiə sahələrinə nüfuz etsin. Dövlət məsullarının belə bir icazəsi yoxdur. Təftiş, nəzarət adı altında biganələri təhlükəsizlik və müdafiə sahəsinə buraxmaq olmaz. Ölkənin müdafiə qabiliyyəti gücləndirilməlidir. Müdafiə sənayesi xalqın vuran əlidir və o inkişaf etməlidir. Dünyaboyu müqavimətçi qardaşlarımızın dəstəklənməsi də müzakirə mövzusu ola bilməz. Biz onları himayə etmişik və edəcəyik.[3]

---

[1] İnqilab Keşikçiləri komandanları ilə görüş, 2016

[2] Universitet hadisələri, 2000

[3] Əhli-Beyt (ə) məddahları ilə görüş, 2016

Təhlükəsizlik sahəsində düşmən nüfuzunun öz amilləri var. Məsullar, inqilab keşikçiləri diqqətli olsun. Təhlükəsizliyə düşmən nüfuzunun qarşısını tam şəkildə əngəlləmək lazımdır.[1]

---

[1] İnqilab Keşikçiləri komandanları ilə görüş, 2016

# İkinci fəsil: Düşmən nüfuzunun hədəfləri və vasitələri

## *Məmləkətə hakim olmaq düşmən nüfuzunun hədəflərindəndir*

Düşmən müxtəlif qiyafələrdə, müxtəlif çöhrələrdə, bəzən qaşqabaqlı, bəzən təbəssümlə, bəzən vədə verməklə, bəzən hədə-qorxu gəlməklə irəli gəlir. Hamı bilməlidir ki, bütün bunlarda düşmənin məqsədi məmləkətə nəzarəti ələ almaqdır. Düşmən müstəmləkə dövrünə qayıtmaq istəyir. Onun istəyi qeyd-şərtsiz ölkəmizə hakim olmaqdır. İslam belə bir qayıdışa tam müxalif olduğundan, bu plana qarşı müqavimət göstərdiyindən onlar da İslama müxalifdirlər. İslam düşmənlə ona görə müxalifdir ki, İslam maarifi, İslam hökmləri onun istəkləri qarşısında möhkəm səddir. Xalqımıza müxalifdirlər. Çünki xalq onların qarşısında dağ kimi dayanıb. Düşmənə müqavimət göstərən bütün qüvvələrə qarşıdırlar. Möminlərlə düşmənçilikləri daha güclüdür. İnqilabi təşkilatlarla qatı düşməndirlər. Hizbullah fərdlərlə sərt müxalifdirlər. Çünki onların möhkəm sədd olduğunu görürlər. Hizbullah düşmən nüfuzu qarşısında dayanıb. Düşmən çalışır ki, İslam Respublikasının inkişafını əngəlləsin, onun tərəqqisinin qarşısını alsın. Qədim Amerika siyasətçilərindən biri deyirdi ki, təkfirçi, terrorçu qruplaşmaların bizim üçün əhəmiyyəti yoxdur, qoy olsunlar. Deyirdi bizim üçün əhəmiyyətli olan İran İslam Respublikasıdır. Çünki İslam Respublikası böyük mədəniyyət yaratmaq fikrindədir.

Əlbəttə o mədəniyyət yox, imperiya sözünü işlədir. Deyirdi bu əsasla İranı əsas düşmən saymalıyıq.[1]

## *Düşmən nüfuz etməklə modern istismar yaradır*

Şəhid ailələri bizim üçün bir yaddaş və iftixardır. Bu da var ki, şəhid ailələri düşmənin xalqımıza qarşı cinayətlərini heç zaman unutmur. Düşmənin cinayətlərini yaddan çıxarmaq olmaz. Əmirəlmöminin (ə) buyurur ki, əgər səngərdə yatsanız, bu o demək deyil ki, qarşınızdakı səngərdə də əsgər yatıb.[2] Kim düşməndən arxayın yatsa, düşmən ona qarşı yatmayacaq. Düşmən oyaqdır. O sizin yatmağınızı gözləyir. Müharibə həmişə silah-sursatla, hərbi olmur. Bəzən siyasi müharibə də gedir. Bəzən mədəniyyət sahəsində savaş açırlar. Düşmən çalışır ki, hər vasitə ilə təxribat yaratsın. Gözlərimiz açıq olmalıdır. Təxribat nöqtəsini görməliyik. İmkan verməməliyik ki, fitnəkarlıq genişlənsin. Mədəniyyət və siyasət sahələrində fitnəkarlıqların qarşısını almalıyıq.

Bu gün imperializmin siyasəti modern siyasətdir. Bu neçə əsrlər davam etmiş qədim siyasətdən fərqlənir. Modern siyasət nədir? Müasir istismar siyasəti budur ki, bu siyasət sayəsində düşmənin nəzərdə tutduğu adamlar özləri də bilmədən ona kömək etsinlər. Düşmən sizin imanınızı öz istəkləri qarşısında maneə görür. Bu maneəni aradan qaldırmaq istəyir. Öz aramızdan adamlar tapılır ki, bu divardan dəliklər açsınlar. Onlar bizdən olsa da düşmənə işləyir. Düşmən onlara sərmayə yatırır. Amerika hətta Konqresdə büdcə ayırıb ki, ölkəmizin daxilindəki

---

[1] İmam Rahilin 26-cı vəfat ildönümü mərasimi, 2016

[2] Nəhcül-bəlağə, məktub 62

qüvvələri maliyyələşdirsin. Bu açıq modern istismar növüdür. Bu ona bənzəyir ki, müsabiqədə rəqibi bir yolla yerə oturdurlar. Məsələn, onu narkotikaya aludə edirlər. O narkotikaya aludə olandan sonra artıq hərəkət etməyə gücü qalmır. O artıq özü də bilmədən düşmənə işləyir. Hərəkət edə bilmirsə demək rəqibi qalib olacaq. Modern istismar belədir. Gənclər ayıq olmalıdır. Qızlarımız ayıq olmalıdır. Müəllim və müəllimələr, ata-analar çox diqqətli olmalıdır. İctimai fikri formalaşdıran insanlar diqqətli olmalıdır. Natiqlər, yazıçılar, sənəd adamları ayıq olmalıdır.[1]

## *Düşmən mənafelərinin genişləndirilməsi düşmən nüfuzunun məqsədlərindəndir*

Super güclərin, dünya quldurlarının bütün təlaşları öz nüfuzunu genişləndirmək, mənafelərini təmin etməkdir. Onlardan soruşulanda ki, siz Fars Körfəzində nə üçün olmalısınız, deyirlər bizim mənafeyimiz bunu tələb edir. Demək, mənafeləri qoşun yeritmək tələb etsə bu işi görəcəklər. Onlara üz tuturam. Sizin mənafeləriniz xalqların mənafelərindən üstündür?! İmperialist güclərin bütün fəaliyyətləri mənafe üzərində qurulub. Əgər islahatçılıq şüarlarını səsləndirirlərsə məqsəd mənafelərini təmin etməkdir, islahatçılıq bir yalandır. Onlar həqiqi islahata səs verməzlər. Onlar ölkəmizdə həqiqi islahatlara müxalifdirlər. İnqilab prinsiplərinə də müxalifdirlər. Çalışırlar ki, müstəqillik ruhiyyəsini xalqdan alsınlar. Onlar bəzi fitnəkar şüarlar səsləndirirlər, daxildə də bir qrup həmin şüarları təkrarlayır. Bu çox üzücü bir haldır, bu barədə çox danışmaq istəmirəm. Bəziləri düşmənə

---

[1] Kerman, şəhid ailələri ilə görüş, 2006

dostdan, biganəyə doğmadan çox etibar edir. Düşmənin sözünü təkrarlayırlar. Bu çox acı haldır. Hər halda bu barədə xalq məlumatlanmalıdır. Bir gün dilə gətirməli olacağam ki, ölkədə kimlər bu xalqın əleyhinə, təcavüzkarların mənafeyinə xidmət edir. Hələ ki, bu mövzudan ötüb keçirəm.

Ey İran xalqı! Ey əziz gənclər! Ey ziyalılar! Ey siyasilər! Quran əmrinə itaət edin, Allahdan qorxun, təqvalı olun. Cümə namazının ən böyük mesajı təqvadır. İlahi təqva budur ki, düşmənin yalanına uyub onun qarşısında təslim olmayaq. Düşmən araya ixtilaf salmaq istəyir. Düşmən arzulayır ki, məsullar arasında düşmənçilik olsun. Düşmən ölkəmizdə daxili müharibə olmasını istəyir. Ölkəmizdəki sabitliyi, təhlükəsizliyi görən gözləri yoxdur. Harada insanlarımız bilərəkdən və ya bilmədən aranı qatsalar, sabitlik pozulsa düşmən bundan xoşhal olur.[1]

## Nüfuz etməklə imanı zəiflətmək

Bu gün düşmən növbəti dəfə gənc nəsli, xüsusi ilə tələbələri öz viranedici fitnəkarlıqlarına hədəf seçib.

Düşmən siyasətçilərin 20 illik təcrübəsinin məhsulu olan dərin bir təhlil İslam Respublikasının düşmənlərini bu qənaətə gətirib ki, İslam Respublikasına nəzarətin, bu ölkəni əsarətə almağın yolu gənc nəslin dini etiqadını zəiflətmək, onların dövlətə düşüncə və qəlb bağlılığını aradan qaldırmaqdır. İslam Respublikasını hökm altına almaq üçün gənclərin təlim-tərbiyə həvəsini sönükdürmək lazımdır. Bu gün dünya imperializmi və beynəlxalq sionizmin bütün təbliğatçılarının və nəzəriyyəçilərinin

---

[1] Tehranın cümə namazı xütbələri, 2001

gəldiyi qənaət budur. Bunun əlamətlərini, bu çirkin təlaşların nişanələrini düşmənin ideoloji, informasiya, təbliğat fəaliyyətlərində müşahidə etmək mümkündür.

Belə bir şəraitdə xətiblərimizin vəzifəsi ağır və həssasdır. Universitetin İslam cəmiyyətləri öz işlərini nizama salsınlar. İnqilabın prinsipləri əsasında fəaliyyət xətti seçsinlər. Düşmən və düşmənin üsullarını tanımaq üçün bütün tələbələr üçün şərait yaradılmalıdır. Xüsusi ilə tələbə mühitində fitnəkarlar və onların fitnəkarlıqları üzə çıxarılıb zərərsizləşdirilməlidir. Təşkilat daxilində və xaricdə ixtilafları minimuma endirin. Bütün hallarda Allahın hüzurunu hiss edin, bilin ki, Allah sizin niyyət və əməllərinizdən xəbərdardır və insan üçün Allahın razılığından layiqli və uca bir məqsəd yoxdur.[1]

## Əsas etiqadlarda təxribatçılıq düşmənin hədəflərindəndir

Prezidentlik dövründə BMT-yə getmişdim. BMT-nin ümumi iclasında çıxışım oldu. Avropanın bir çox şəbəkələri bu çıxışı birbaşa yayımlayırdı. Çünki bu çıxışın böyük təsiri ola bilərdi. Çıxışın səhərisi gün Fars Körfəzində İranəcr gəmisini saxladılar. Nyu-Yorkda idim. Televizoru işə saldım. İranəcr gəmisinin Fars Körfəzini minalaması barədə təxribatçı təbliğat dünyaya yayımlanırdı. Məqsəd BMT-dəki çıxışı təsirsizləşdirmək idi. Neft estakadalarına hücumlar və bu sıradan təxribatçılıqlar Amerikanın reaksiyalarından oldu. Uzun illər əməli şəkildə reaksiya göstərdilər. Həm siyasi, həm iqtisadi, həm tam və ya qismən hərbi addımlar atıldı.

[1] İslam Tələbə Cəmiyyətinin ikinci konqresi, 1999

Amerika İslam Respublikasına qarşı uzun illər bu qəbil fəaliyyətlərdən sonra nəticə çıxardı ki, praktiki reaksiyalar fayda vermir, nəzəri iş görülməlidir. Nəzəri reaksiya nədir? Yəni İslam Respublikası ilə mədəniyyət, əxlaq, din sahəsində mübarizə aparılmalıdır. Əvvəllər də ciddi mübarizə aparırdılar. Amma hiss etdilər ki, əvvəlki yol təsirsizdir. İdeoloji mübarizə ilə bizi iflic edə biləcəklərini düşündülər. Həm əxlaq sahəsində, həm hərbi sənaye sahəsində fəaliyyətlərini davam etdirdilər.

Bizə münasibətdə düşmənin planları ilə kompleks şəkildə tanış olmaq üçün öz müdafiə sənayemizə diqqətli olmalıyıq. Düşmənin planlarından xəbərsizlik bizi müdafiə imkanlarından məhrum edə bilər. 1995-96-cı illərdən etiqad və əxlaq sahəsində fəaliyyətləri gücləndirdilər. O zaman bunu hiss etdim. Bizim ideoloji hücum haqqında irəli sürdüyümüz layihələr bununla bağlı idi. İqtisadiyyat və siyasət sahəsində faəliyyətlərlə yanaşı mədəniyyət sahəsində fəaliyyətlərə start verilmişdi.

Nəzəri, etiqadi fəaliyyətlərin məqsədi aydındır. İslam Respublikasının dayağı xalqdır və xalq öz imanı, etiqadı ilə dövlətə bağlıdır. Bu həqiqəti ötən illərdə yaxşı dərk ediblər. Əgər İslam Respublikası bu dayaqdan məhrum edilsə düşmən məqsədə çatar. Buna görə də həmin sahədə fəaliyyətlərini gücləndirdilər. Etiqad və dəyərlərə hücum etdilər.

İnqilabi dəyərlər, hətta İslam, aşura, şiəlik, dinin siyasətdən ayrı olmaması kimi mövzularda şübhə yaratmaq cərəyanı işə düşdü. Seminarlar, konfranslar keçirdilər. Xaricdə nəşriyyatlar işə saldılar. Ölkə daxilindəki mərkəzlərdən istifadə etdilər. Kimi nə baş verdiyini anlayırdı, kimi anlamadan addım atırdı. Ölkə

daxilində bəziləri gözəl başa düşürdülər ki, düşmənə kömək edirlər. Təəssüf ki, bu hələ də davam edir.

Biz gözləməməliyik ki, düşmən öz təxribatlarından əl çəksin. Bu yalnız o zaman baş verə bilər ki, oxu daşa dəysin, ümidləri qırılsın. Düşmən siyasi, etiqadi məsələlərdə, Fələstin məsələsində, Hizbullah məsələsində, elmi məsələlərdə şübhə yaratmaq yolunu seçib. Əsas plan nədən ibarətdir? İstəyirlər İranı əsarət altına alsınlar, İran imperializmin bazasına çevrilsin.

Digər tərəfdən ölkə daxilində xalqın dövlətə inamını qırmaqla zəmin hazırlayırlar. Xalqla respublika arasında fasilə yaratmaq, onları bir-birindən uzaqlaşdırmaq əsas siyasətləridir. Sonra beynəlxalq səviyyədə ictimai fikir formalaşdırmaq istəyirlər. Bu zəminə nə ehtiyac var? Amerika əmin olub ki, belə bir zəmin olmadan qələbə üzü görməyəcək. Bu bir həqiqətdir. Hərbi üstünlük hər şeyi həll etmir.[1]

Amerikanın hərbi nəzarəti həyata keçirmək üçün belə bir zəminə ehtiyacı var.[2]

## *Dini və inqilabi etiqadlara zərbə*

Əgər siz deyirsinizsə ki, biz inqilabın keşikçisiyik bunun bir mənası inqilab üçün təhlükə olmasıdır. Bəli, təhlükə olmayan yerdə keşik çəkməyə ehtiyac yoxdur. İnsan o zaman keşik çəkir ki, təhlükə hiss edir. Siz inqilab üçün təhlükələri öz vücudunuzla təsdiqləyirsiniz. Əgər inqilab keşikçisiyiksə təhlükələri tanımalıyıq.[3]

---

[1] Şəhid Behişti Universitetinin tələbələri ilə görüş, 2004
[2] Şəhid Behişti Universitetində tələbələrlə görüş, 2004
[3] İnqilab keşikçiləri komandanları ilə görüş, 2016

Keşikçiliyin bir mənası həmişə ayıq olmaqdır. Əmirəlmöminin (ə) buyurur ki, döyüş adamı həmişə ayıqdır.[1]

Zəruri deyil ki, müharibə başlasın. Özünü müharibə üçün hazırlamış insan ayıq olmalıdır. Kiminlə müharibə? Biz heç bir müharibəyə başlamamışıq və başlamayacağıq. Bizim bitərəf, müdaxilə etməyən, xalqlar və dövlətlərlə işimiz yoxdur. Bizim savaşımız müdaxilə edənlər, təcavüz yolunu seçənlərlədir. Əmirəlmöminin (ə) buyuruğundakı "əl-əriq" sözü ayıq mənasını bildirir. Yəni həmişə ayıq. Deməк, keşikçiliyin bir mənası daim ayıq olmaqdır. Təbii ki, təhlükəni tanıyıb dəyərləndirsəniz, ona uyğun hazırlığınız da olacaq. Bir zaman informasiya təhlükəsi yox idi. Buna görə də elektronika kimsəni maraqlandırmırdı. Bu gün bu təhlükə var, ona görə də elektronikanı öyrənirik. İnqilab keşikçisi olan gənc mütəxəssislər də çalışdılar və aydın oldu ki, onların bu sahədə də görə biləcəyi iş çoxdur. İnsan təhlükəni görəndə bu təhlükəni aradan qaldırmaq üçün vasitələr əldə etməyə çalışır. Əgər bu vasitələr varınızdırsa onları qoruyun, yoxunuzdursa əldə edin.

Keşikçiliyin iki mənası nəzərə gəlir. Bunun biri keşikdə dayanmaqdır. Başqa bir mənası əzizləmək, sevməkdir. İnqilabın keşikçiliyi təkcə inqilabı qorumaq mənasında deyil. Bu inqilaba sevgidir, inqilabı əziz saymaqdır. İnsan o insanın keşiyini çəkir ki, onu sevir. Əhəmiyyətli bildiyimiz, dəyər verdiyimiz insanların keşiyində dururuq. Bundan ötrü inqilabı düzgün tanımaq lazımdır. İnqilab keşikçiləri bütün sahələrdə inqilabla bağlı mərifətə çatmalıdır. İnqilabı düzgün tanımaq lazımdır. İdeoloji

[1] Nəhcül-bəlağə, məktub 62

işlərdə nöqsanlar varsa bunu aradan qaldırmalıyıq. İnqilab keşikçiləri tam təchiz olunmalıdır. Möhkəm inqilabi məntiqlə təchiz olmaq lazımdır. İnqilab düşmənləri müxtəlif yollarla hərəkət edir. Nüfuz yollarından biri etiqadlarda süstlük yaratmaqdır. Çalışırlar ki, inqilabi və dini dəyərlərə etiqadı zəiflətsinlər.

Bütün yollardan istifadə edirlər. Hər növ adamları var. Universitet müəllimlərini də ələ alıblar. Fəal tələbələr arasında adamları var. Düşüncə və elm sahəsində istedadlar da varlarıdır. Təxribat törətmək üçün hər zümrədən əlaltıları mövcuddur. İnqilab keşikçiləri hər sahədə hazırlıqlı olmalıdır. İnqilabdan öncə məntiq gücündən çox yerdə faydalanırdıq. Quran və Nəhcül-bəlağədən söhbətlərimiz olurdu. Bu söhbətlərdən sonra gənclər deyirdi ki, artıq universitetdə marksistlərlə söhbətdə aciz qalmırıq. Artıq deməyə sözləri olurdu. Problem təkcə rədd etməklə, yox deməklə həll olmurdu. Dediyini isbat etməlisən, həqiqəti sübuta yetirməlisən. Bu gün inqilab keşikçilərinin arasındakı gənclər belə bir iqtidara malik olmalıdır. Bu əsas işlərdəndir. Bu elə inqilabın keşiyində dayanmaqdır. İnqilabın keşiyində dayanmaq, onu sevmək, öhdənə düşən məsuliyyəti yerinə yetirmək, inqilabın qədrini bilməkdir.[1]

---

[1] İnqilab Keşikçiləri komandanları ilə görüş, 2016

## *Düşmən nüfuzunun hədəflərindən biri xalqın İslam ideallarına rəğbətini aradan qaldırmaqdır*

Bu gün dünya ölkələrində, müsəlman məmləkətlərdə Amerikaya, Amerikanın müdaxilələrinə, Amerikanın əlaltılarına nifrət ruhu güclənməkdədir. Xalqlar İslamın verdiyi izzət ardıncadır. Düşmənin qorxduğu budur ki, İranda baş vermiş İslam inqilabı başqa ölkələrdə də təkrarlansın. Müxtəlif yollarla bunun qarşısını alırlar. Amma İslam düşüncəsinin, İslam oyanışının qarşısını almaq mümkünsüzdür. İslam oyanışı bütün İslam dünyasında genişlənməkdədir. Bu nöqtəyə diqqətli olmalıyıq.

İran xalqı necə böyük iş gördüyünü bilməlidir. Təbiidir ki, bu şəraitdə düşmənlər bütün vücudu ilə İran İslam Respublikasına qarşı səfərbər olacaq. Nə üçün bu işi görməlidirlər? Hərbi yolla problem həll olmur, bunu özləri də bilirlər. Çevriliş yoluna da əl atıblar, səmərəsiz olduğunu görüblər. Cəmi bir yolları qalıb və bu yol millətin arasına nüfuz etməkdir. Yalan, böhtan, şayiələrlə İslam və inqilaba qarşı soyuqluq yaratmaq istəyirlər. Uzun illər boyu xalqı hərəkət və müqavimətə şövqləndirmiş bir çeşmənin qarşısında dayanmaq istəyirlər. Bu onların əsas proqramlarındandır.

Özləri bunu süqut adlandırırlar. Deyirlər biz İslam Respublikasının süqutunu istəyirik. Burada süqut xalqın inqilab ideallarına qarşı biganələşməsi, inqilaba münasibətdə tərəddüddə olmasıdır. Bu düşmənin siyasətidir. Dəfələrlə təkrarlamışam, düşməni tanımaqdan da mühümü düşmənçiliyi, düşmənçilik üsulunu tanımaqdır. Düşmənin hansı yolla nüfuz etdiyini bilsək

diqqətimizi həmin yola toplayarıq. Düşməni hamı tanıyır. Bu gün İran xalqının, müstəqillik və azadlığın düşməni imperialist Amerikadır. Buna şübhə yoxdur. Özləri də bunu etiraf edir. Əlbəttə ki, bəzən riyakarlıqla deyirlər ki, biz İran xalqının düşməni deyilik. Amma əsl müxalifətləri elə İran xalqı ilədir. Çünki bu böyük hərəkatı yaradan İran xalqıdır. Bu gün sədaqət, qeyrətlə İslam nizamını yaşadan xalqdır. İran xalqı Amerikanın qarşısında dayanıb. Əgər xalq inqilab və dövlətə, məsullara dayaq durmasaydı onlar düşmənin təzyiqlərinə tab gətirməzdi. Biz düşməni tanıyırıq. Qalır düşmənin üsullarını tanımaq. Bu gün düşmənin üsulu geniş xalq kütlələri arasında ixtilaf yaratmaqdır. Xalqı inqilaba qarşı qoymaq istəyirlər. Elə şüarlar irəli sürürlər ki, xalqın əzəmətli hərəkatı ilə heç bir uyğunluğu yoxdur.

Dünyanın bir çox ölkələrində istedadlar imperialist çevrələrin təsiri altındadır. İngiltərənin müstəmləkəçiliyi dövründə də belə olub. Sovetlər Birliyi də belə edib. Bu gün də Amerika eyni yolla gedir. İstedadları, alimləri seçib, onları xalq arasında özlərinə sözçü edirlər. Bu istedadlar onların sözünü təkrarlamalıdır. İstedadlar onların ideyalarına cəmiyyəti inandırmalıdırlar. Beləlləri bizim ölkəmizdə də olub. Bu gün də var. İnqilabın əvvəllərində də belələri vardı. Onlar düşmənin ruporu funksiyasını daşıyır. Onların mənafelərindən çıxış edir, onların sözünü təkrarlayırlar. Xalqımız aydın şəkildə öz məqsədlərini ortaya qoyub. İnqilab dövründə, müqəddəs müdafiə illərində xalq İmamın arxasında dayandı, yüz minlərlə gənc öz həyatını qurban verdi. Bu xalq Qərb demokratiyası ardınca deyil. Müsəlman xalqımız, mübarizə dövründə şah rejiminin həbsxanalarında işkəncə

altında olanlar demokratik respublika yox, İslam Cümhuriyyəti ardınca idilər.

Bəzən bütün oğullarını, kürəkənlərini, həyat yoldaşlarını qurban verən imanlı xanımlarımız nəinki bədbinləşməyib, bununla qürur duyub. Onlar Qərb demokratiyası istəyində deyildilər. Xalqın istəyi konstitusiyada öz əksini tapıb. Xalq mənəvi və maddi inkişafı İslam sayəsində əldə etmək istəyir. Dünyada İran xalqı kimi ilahi dəyərlər yolunda yüz minlərlə şəhid verən ikinci xalq yoxdur. Elə xalqımızın tarixində də bu hadisə əvvəllər qeydə alınmayıb. Bu İslam İnqilabının uğurudur. Onlar Qərb demokratiyasını təcrübədən keçirdilər. Hansı fəlakətlər baş verdiyini gördük. Demokratiya adı altında Qərb ölkələrinin, xüsusi ilə Amerikanın sərvətlərimizə sahib olduğuna şübhəmiz qalmadı. Xalqımız belə demokratiya istəmir. Bu gün də xalqın məqsədi inqilab ideallarının gerçəkləşməsidir. İlk növbədə ədalət, mənəviyyat, azadlıq, müstəqillik ardıncayıq. Biganə və xarici güclərin əli olmayan bir müstəqillik istəyirik. Xalqımız bu yolda fədakarlıq edir, bundan sonra da bu yolu davam etdirəcək. Xalq ehtiyatlı olmalıdır ki, düşmən müxtəlif üsullarla sıralarımıza nüfuz edə bilməsin. Təhlükəsizlik, siyasət, mədəniyyət sahəsində diqqətli olmaq lazımdır.[1]

---

[1] Cümə namazıama xütbələri, 2003

## Düşmən nüfuzunun hədəflərindən biri gənc nəsil arasında fəsad, əxlaqsızlıq toxumu səpməkdir

Düşmənin fitnəkarlıqlarından biri də fəsad, əxlaqsızlıq yaymaqdır. İslamın əsl əsgəri olan gəncləri əxlaqsızlığa sövq etmək istəyirlər. Gənclər bilsin ki, bütün bunlar təxribatdır. Nəzərinizə çatdırıram ki, bu gün ölkə səviyyəsində biganələrin rəhbərliyi altında fitnəkar fəaliyyətlər var. Gəncləri azğınlığa sürükləyirlər. Bir xalqın gəncləri günah işlərə məşğul olsa heç bir nəticə əldə edə bilməz. Bəsic, mömin, saf gəncləri dünya ləzzətlərinə əsir etmək istəyirlər. Bu həmin gənclərdir ki, Allah yolunda gözünü qırpmadan cihad meydanına gedib. Məsullar da, gənclər də diqqətli olsun. Ümid edirik ki, məsullar fəsad və günahın kökünü qaza biləcək.[1]

## Düşmən nüfuzunun başqa bir hədəfi: Yoxsulluq və ayrıseçkilik yaratmaq

Bu gün millət üçün əhəmiyyətlidir ki, məsullar bütün güclərini işə salıb ölkədə işləri sahmana salmaq üçün meyarlar nəzərdə tutsunlar. Üç meyar qeyd etdik: Yoxsulluqla mübarizə, fəsadla mübarizə, ayrıseçkiliklə mübarizə. Əgər məsullar yoxsulluğa, fəsada, ayrıseçkiliyə münasibətdə barışmaq mövqeyi tutsalar Allahın tövfiq və hidayətindən bütün cəmiyyət bəhrələnər. Bu zaman düyünlər açılar. Xalq meydandadır. Bu xalq çox sədaqətlidir. Bu xalq Qurana könül verib. Əgər bu işlərin görülməsini istəyiriksə, düşmən nüfuzunun qarşısını almalıyıq. İmam Xomeynini (r) in bu sahədə öz qaydası

---

[1] Xürrəmabad əhalisi ilə görüş, 1992

vardı, dəfələrlə bunu dilə gətirmişdi. Harada görsəniz ki, bu xalqın andlı düşmənləri bir nöqtəyə diqqət və qayğı göstərir, o zaman onların işlərinə şəkk edin. Əlbəttə ki, bəzən bir şəxsiyyəti hörmətdən salmaq üçün onun tərəfini saxlayırlar. Bəzən öz əlaltılarını böyük göstərmək xatirinə onu himayə edirlər. Xoşbəxtlikdən xalqımız siyasidir. Xalqımız ayıqdır belə hiylələrə aldanmır.[1]

## *Nüfuz etməklə məmləkətin həyati sahələrində inkişafın qarşısını almaq*

Nə üçün zalımların qarşısında dayanıb müqavimət göstəririk? Nə üçün onlara təslim olmuruq? Cavab sadədir. Əgər imperialistlər, dünya zorluları ölkəmizə hakim olsa artıq bu millətin mənafeləri kölgədə qalacaq. İqtisadiyyat, mənəviyyat, mədəniyyət sahəsində xalqın mənafelərinə əhəmiyyət verilməyəcək. Necə ki, inqilabdan öncə belə idi. Əlaltı bir hökumət vardı və öz ağasının mənafelərinə xidmət edirdi. Bütün bunları nəzərə alan xalq düşmənə müqavimət göstərməyə məcburdur. Onun kamillik və xoşbəxtlik yolu budur.[2]

Biz məmləkətimiz üçün nəzərdə tutduğumuz rütbəyə çatmalıyıq. Başqaları gözləməyəcək ki, biz onlardan önə keçək. Başqa ölkələr də təlaşdadır. Bəzi ölkələrin ciddi iqtisadi təlaşlarına şahidik. Təbii ki, biz onların əl atdığı hər yoldan istifadə edə bilmərik. İslam Respublikasının getdiyi yol şərafətli və nəcib bir yoldur. Bununla belə, nəzərdə tutduğumuz rütbəyə çata bilərik. Bir qədər sürəti artırıb sürətli olsaq uğur qazanarıq. Bunun üçün cihada ehtiyac var. Həm sürətli, həm tədbirli olmalıyıq. Bu yolla

---

[1] Qum əhalisi ilə görüş, 2001
[2] Ərak əhalisi ilə görüş, 2001

nəzərdə tutduğumuz sahələrdə birinci rütbəyə çata bilərik. Bu sadəcə bir həvəs deyil. Bu gün xalqımızın taleyi bununla şərtlənib. Bir ölkə iqtisadiyyat, elm nöqteyi-nəzərindən özünütəmin həddinə çatmasa zərər görəcək.

Bir xalq öz ehtiyaclarını təmin edə bilməsə düşmən qarşısında kiçiləcək. O zaman düşmən zor göstərəcək, yuxarıdan aşağıya baxacaq, biz belə bir vəziyyətdə olmaq istəmirik. Ölkəmiz 200 il təcavüz və təhqirə məruz qalıb. Dövlət qurumlarının, səltənət aparatının bacarıqsızlığı və ləyaqətsizliyi xalqın təhqirinə səbəb olub. İngilislər ilk dəfə 1800-cü ildə ölkəmizin siyasi aparatına nüfuz edib. O zaman başqa Avropa ölkələri də eyni işi görüb. 1800-cü ildə İngiltərənin ilk səfiri ölkəmizə ayaq qoyub. Özü də Hindistandan gəlib. O zaman Hindistanda hakimiyyət ingilislərin əlində idi. Buşehrdə gəmidən düşən kimi rüşvət verməyə başlayıb. Çox rahatlıqla məmurları ələ alıb. Lovğa şahzadələr, əmirlər onun hədiyyələri, rüşvətləri qarşısında iki qat əyiliblər. Düşmənin hakimiyyəti o zaman başlayıb. Düşmənə nüfuz etmək icazəsi verilib. Biz bunun davam etməsini istəmirik. İnqilab onların qarşısında polad bir sədd yaradıb. Biz bu səddi möhkəmləndirmək fikrindəyik.

Heç bir qiymətə icazə verməyək ki, onlar bizim iqtisadiyyatımıza, mədəniyyətimizə, siyasətimizə, taleyimizə müdaxilə etsinlər. Bunun üçün daxildən və xaricdən möhkəmlənmək lazımdır. Daxildən olan bir istehkam iqtisadiyyat istehkamıdır. İranın məntəqədə birinci olması sadəcə həvəs deyil. Bizim taleyimiz bundan asılıdır. Ardıcıl təlaş, düşüncə, fədakarlıq, paklıqla bu işi

görməliyik. Ölkənin bütün potensialı bu istiqamətdə yönəldilməlidir.[1]

Dövlət məsulları arasında ixtilaf yaratmaq da düşmən nüfuzunun hədəflərindəndir. Təlaşlardan biri də ölkədə əsas güclər, cərəyanlar arasında ixtilaf yaratmaqdır. Parçalayıb komandanlığı ələ almaq istəyirlər. Ölkəni milli məclis, dövlət və məhkəmə sistemi kimi üç orqan idarə edir. Bu üç orqan arasında ixtilaf yaratmaq istəyirlər. İslam Respublikasına zərbə vurmaq üçün çoxdan bu plan üzərində işləyirlər. Bir zaman bunu açıq da deyirdilər. İki hakimiyyətlilikdən danışırdılar. Ölkə daxilində də bəziləri tutuquşu kimi onların sözünü təkrarlayırdı. Amma söz xaricdən gəlmişdi. Ölkə daxilində də bəziləri məlumatsızlıqdan həmin fikirə dəstək verirdi. İndi isə həmin planı açıq elan etmirlər, amma məqsəd elə odur. Biz xarici kəşfiyyat idarələri ilə bağlı məlumatlarda, onların əlimizdə olan məruzələrində bu planın izini görürük. Buna görə də ixtilafa yol verməK olmaz.[2]

## Daha bir düşmən nüfuzu: Məsulların hesablamalarını dəyişmək, xalqı dövlətə münasibətdə ümidsizləşdirmək

Bu gün bizim qarşımızdakı cəbhə Amerika və sionizm tərəfindən idarə olunur. Bu cəbhə bizə qarşı bütün yollara əl atıb. İran xalqına qarşı bütün yollardan istifadə ediblər. Dövləti gücləndirən, xalqın müqavimətini artıran amilləri aradan qaldırmaq istəyirlər. Özləri də deyirlər ki, İran xalqına qarşı sanksiyaların məqsədi xalqı yormaq, onların

---

[1] İqtisadiyyat fəalları ilə görüş, 2012

[2] Səkkizinci parlament üzvləri ilə görüş, 2009

ictimai fəallığını zəiflətmək, onları dövlətə münasibətdə ümidsizləşdirməkdir. Eyni zamanda dövlət məsulları arasında pozuculuq edirlər, məsulların öz hesabatlarına inamına zərbə vururlar.[1]

Bu gün İslam Respublikasının düşmənlərinin fəaliyyətlərində mühüm bölmələrdən biri məsulların hesabatlarının hədəfə alınmasıdır. Bizim bu barədə kifayət qədər məlumatımız var. Təbii ki, dövlət məsullarının qarşıdakı fəaliyyətlərlə bağlı hesabatları var. Düşmən çalışır ki, məsullar öz hesabatlarına münasibətdə ümidsizləşsinlər. İctimai fikiri dəyişmək, xalqın məsullara etimadını qırmağa çalışırlar. Dövlətin idarəçiliyi ilə bağlı inqilabi və dini düşüncə də hədəfdədir.[2]

Sözləri budur ki, dövlət məsullarında onların qərarlarına şübhə yaratmaq istəyirlər. Guya hər hansı bir qərarın büdcəsi, xərci nəzərdə tutulduğundan çox yuxarıdır. Bu təxribatdır. Bu məsulların iradəsini qırmaq istəyidir. Bütün gücləri ilə bu çirkin məqsədə çatmaq istəyirlər. Xalqda və məsullarda şübhə, tərəddüd yaratmaq qarşılarına qoyduqları əsas məqsədlərdir.[3]

## *Kütləvi informasiya vasitələri düşmən nüfuzunun mühüm vasitələrindəndir*

Bilin ki, imperializmin nüfuz vasitələrindən biri kütləvi informasiya vasitələri, tele-radio şəbəkələridir. Bu sahəyə çox pul xərcləyirlər. Mən ötən illərdə Amerika və sionizmin, dünya quldurlarının, böyük sərmayədarların kütləvi informasiya vasitələrinə diqqətindən danışmışam.

---

[1] Qum əhalisi ilə görüş, 2012
[2] İnqilab keşikçilərinin dəniz qüvvələri komandanları ilə görüş, 2016
[3] Qum əhalisi ilə görüş, 2012

Cümə namazında bu barədə söhbətimiz olub. Onlar bu yolla xalqın düşüncəsinə nüfuz etmək istəyir. Kütləvi informasiya vasitələri onlar üçün bir silahdır. Ölkə daxilində də bəziləri onlarla səs-səsə verib.

Təbii ki, bu sahədə xətaya yol verənlərin hamısı düşmən deyil. Bəziləri nadan dostlardır. Mən bizim tərəfdə olanlardan ciddi şəkildə düşüncələrini işə salmalarını istəyirəm. Bilsinlər ki, bu gün düşmən kimdir. Düşmənin planını bilsinlər. Ağıl budur ki, bütün bunları görəsən. Siz atəş açanda, bomba atanda düşünməlisiniz ki, düşmən sizin bu ərazini vurmağınızı istəyir, yoxsa yox? Düşmənin istəyini həyata keçirməyin, işini asanlaşdırmayın, ona sərf edən addımlar atmayın. Siyasi təhlil gücünüz olsun. Düşmənə işləyən xətalara yol verməməyiniz üçün məsələni yaxşı araşdırın. Təbii ki, münafiq, riyakar düşmən özü üzə çıxa bilmədiyindən sadə, səmimi, nadan insanların arxasında gizlənir. Bu adamları tapıb xəbərdarlıq etmək lazımdır. Bu gün ölkənin və millətin ehtiyacı var ki, insanlarımız iti düşüncəli və iti baxışlı olsun. Ayıq olaq, düşməni tanıyaq, onun işləri barədə məlumatımız olsun.[1]

---

[1] Cihad quruculuğu məsulları ilə görüş, 1999

# Üçüncü fəsil: Düşmən nüfuzu yaradan amillər

## *Düşmən nüfuzundan qəflətdə olmaq zərbə almaqla nəticələnir*

Qurani-Kərimdə Uhud savaşından danışılarkən buyurulur: “Sizə bir müsibət üz verən zaman deyirsiniz ki, bu müsibət haradandır?! Hansı ki, bundan iki qat artıq zərbə vurmusunuz. De ki, bu müsibət özünüzdəndir...”[1] Ühüd savaşında acı hadisələr baş verdi. Müsəlmanlar əvvəlcə qalib gəldilər, sonra bir qrup onlara verilmiş tapşırığı yaddan çıxardı və mövqeyini tərk etdi. Onlar qənimət toplamaq üçün meydana getdilər. Fürsətdən istifadə edən düşmən İslam qüvvələrinin arxasına keçib onlara zərbə vurdular. Bu zaman müsəlmanlar qorxularından dağa dırmanmağa başladılar. Həzrət Peyğəmbərin (s) həyatı üçün təhlükə yarandı. Peyğəmbər (s) yaralandı. Sonradan müsəlmanlar gileyləndi ki, nə üçün belə oldu. Dedilər ki, Allah bizə qələbə vəd etmişdi. Cavab olaraq Allah-Taala buyurur ki, biz sizi qalib etdik, Allahın vədi həyata keçdi; amma siz özünüz işi pozdunuz; əvvəla düşmən sizə zərbə vurdusa, siz də onlara zərbə yetirdiniz; təəccüb etməyin, döyüş meydanında həm vurulmaq var, həm də vurmaq... Siyasət meydanında da, dünya iqtisadiyyatında da vurmaq və vurulmaq var. Vurulmamaq intizarında olmalı deyilik. Ayədə müsəlmanların dilindən nəql olunur ki, onlar nə üçün vurulduqlarından heyrətləndilər. Sonra Quran buyurur ki,

---

[1] Ali-İmran surəsi, ayə 165

müqəssir özünüzsünüz. Bəli, müsəlmanlar müəyyən məqamlarda öz vəzifələrini yerinə yetirmədilər. Azğın nəfsi ayaq altına almadıqlarından bunun acısını daddılar. Bəzi şeylərdən çəkinmək lazım idi, çəkinmədilər. Siyasətdə də belədir. Rifah, dəbdəbəçiliyə meyilləndik. Onlar zəif nöqtələr idi. Biz varlı yaşayanda xalq da bizə baxıb, var-dövlət ardınca gedəcək. Bəziləri bəhanə axtarır. Bizə baxırlar və deyirlər ki, onlar necə yaşayırsa biz də elə yaşamaq istəyirik. Bəziləri bu əqidədədir ki, israf və ifrata yol vermək olmaz. Amma bizə baxanda, bizdə israf və ifrat görəndə düşünürlər ki, başçılar belə edirsə nə üçün onlar nəfslərinə qarşı çıxmalıdır?! Bütün bunlar təhlükəli hallardır. İnqilab və inqilabçıların yolu İslam təlimləri əsasında dəbdəbəçilikdən çəkinməkdir. Xalq üçün bacardığınız səviyyədə rifah yaradın. Milli gəliri bacardığınız qədər artırın. Ölkənin sərvətli olması üçün çalışın. Amma məsullar bu arada özlərinə yox deməli, dəbdəbəli həyatdan çəkinməlidir.

Cihad və isar ruhiyyəsindən uzaqlıq, düşmənin ideoloji hücumlarına diqqətsizlik, düşmənin pusquda olmasına göz yummaq, kütləvi informasiya vasitələrində düşmən təxribatlarına diqqətsizlik, beytül-maldan istifadədə məsuliyyətsizlik bizim günahlarımızdır, zəif nöqtələrimizdir.[1]

---

[1] Dövlət məsulları ilə görüş, 2012

## *Düşmən nüfuzuna diqqətsiz olanda düşmən səni borclu çıxarır*

Şəhidlərin xatirəsini unutmamalıyıq. Onların xatirəsi əzizdir, həmişə zehnimizdə canlı olmalıdır. Ölkənin bütün vilayətlərində bu nöqtəyə diqqət yetirilməlidir. Böyük Xorasan vilayəti 23 min şəhid verib. Bu vilayət indi 3 vilayətə bölünüb. Bu rəqəm olduqca böyük rəqəmdir. Yol verməyin ki, bu xatirələr unutqanlıq tozu altında qalsın. Şəhidlərin xatirəsini əziz saxlayın. Dövlət məsulları bu işi görməlidir. Şəhid mərkəzlərinin məsulları buna vəzifəlidir. Başqa dövlət qurumlarının da bu sahədə məsuliyyəti var. Ailələr də təsirləri olan mühitdə bu işi görməlidir. Şəhid adı heç zaman unudulmamalıdır. Şəhidlərlə həmişə qürur duymalıyıq. İnadkar düşmən təbliğatlarında şəhadət dəyərləri də hədəfdədir. Bəzən bunu anti-dəyər kimi göstərmək istəyirlər. Ölkəmizdə belə hadisələr baş verib. Əlbəttə ki, qarşısı alınıb. Bəziləri o qədər həyasızlaşıb ki, şəhid adı, şəhadət hadisəsinin özünü sual altına alıblar. Görün düşmən ideoloji və siyasi təxribatlarında hansı yollara əl atır. Çox ayıq olmalıyıq. Bu təxribatların qarşısı alınmalıdır. İslam meyarlarına görə şəhidlər övliyalar və siddiqlər sırasındadır. Bu çox uca bir baxışdır və insan ağlına çətin sığır. Şəhid materialist baxımdan belə öz milləti yolunda həyatını qurban verən insandır. Heç bir vicdanlı və ləyaqətli insan bu həqiqəti inkar edə bilməz. Ölkəmizdə elə bir zaman oldu ki, bu həqiqəti inkar etmək istədilər. Şəhid övladları atalarının adı ilə fəxr etsinlər. Onlar hansısa ölkəyə hücum zamanı yox, öz ölkələrini müdafiə edərkən şəhadətə çatıblar. Onlar xalqın milli ləyaqətini qorumaq yolunda fəda olublar. Bir zaman şər BƏƏS rejimi dövründə İrana hücum oldu, ən azı İranın bir hissəsini qoparmaq istədilər. Torpaqlarımıza, evlərimizə

soxuldular. Xalqımızı təhqir etmək istəyirdilər. Baxın görün ki, bu gün işğalçılar İraqda nə edir. Xarici kişi qeyrətli ərəb kişisinin gözü qabağında müsəlman zövcəsi və bacısının üstündə axtarış aparır. Qeyrətli kişi bu səhnəyə necə dözsün?!

Qeyrətli bir ərəb gənci həyat yoldaşının, övladlarının gözü qabağında yerə yıxıb təpikləyirlər. Ləyaqətli bir ailə bu vəziyyətdə nələr çəkir! Bu oyunu İran xalqının da başına gətirmək istəyirdilər. Səddam, BƏƏS rejimi, Amerika və Sovetlər Birliyi kimi himayədarlar İran xalqı ilə belə rəftar etməyə cəhd göstərdilər. Bizim fədakar əsgərimiz yol vermədi. Bundan böyük qürur ola bilər?! Gənc döyüşçülərimiz düşmənin təcavüzü qarşısında dağ kimi dayandılar və bundan böyük qürur ola bilməz. Sən gənc oğlan, sən gənc qız, sən gənc xanım həmin şəhidin yadigarlarısınız. Ey şəhidin ailəsi, ata-anası, onunla iftixar edin. Şəhidlərlə qürur duymaq hamımızın işidir. Yol verməyək ki, şəhidlər unudulsun. İnqilabçı mömin insanlar, xalq ayıq olsun, yoxsa nüfuz edənlər bizi borclu da çıxaracaq. Qurani-Kərimdə buyurulur: "Qorxu halından çıxanda acı dilləri ilə qəzəblərini sizə yönəldirlər. Qənimətdən paylarını istəyəndə də hərisdirlər. Onlar iman gətirməyiblər, buna görə də Allah əməllərini puç etdi."[1] Təhlükə yaranan zaman yuvalarında nəfəs almadan oturublar. Təhlükə aradan qalxandan sonra, fədakar insanlar sinələrini sipər edib təhlükəni uzaqlaşdırdığı zaman bunlar da yuvalarından çıxırlar. Bu zaman dilləri uzun və itidir, səni borclu da çıxararlar. Yol verməyin ki, inqilabın, imamın cihad xəttinin, Allaha imanın düşmənləri sizi borclu çıxarsın.

---

[1] Əhzab surəsi, ayə 19

## *Diqqətsizlik və qəflət düşmən nüfuzuna yol açır*

Millətimiz, gənclərimiz, qadın və kişilər elə düşünməsin ki, cihad dövrü başa çatıb. Hələ də təhlükə ilə üzbəüzük. Olsun ki, silahlı hücum təhlükəsi yoxdur. Bu gün İran xalqı elə bir iqtidara çatıb ki, hərbi təcavüzə cürət etməzlər. Bilirlər ki, bu işi görsələr ağır zərbə alacaqlar. Millətin müqavimətli olduğunu bilirlər. Bəli, hərbi təcavüz təhlükəsi ehtimal olunmur. Amma təcavüz təkcə hərbi təcavüz deyil. Düşmən bizim milli iradəmizin sütunlarını hədəfə alıb. Milli birlik, dərin imanımız hədəfdədir. Kişilərimizin və qadınlarımızın səbr və dözümü hədəfə alınıb. Bu hücum hərbi hücumdan da təhlükəlidir.

Hərbi təcavüzdə düşmənimizi görürük. İdeoloji hücumda isə düşmən qarşımızda dayanmayıb. Bu vəziyyətdə diqqət lazımdır. Mən bütün İran xalqından, xüsusi ilə şəhid ailələrindən, siz əzizlərdən, xüsusi ilə gənclərimizdən xahiş edirəm ki, düşüncə və mənəviyyat sərhədlərini tam diqqətlə qoruyasınız. İcazə verməyin ki, düşmən qarışqa kimi düşüncə və etiqad sütunlarına daraşsın. Bu çox mühümdür. Mənəviyyat və iman sərhədlərini qorumaq hamımızın vəzifəsidir. Təəssüf ki, bu gün İran xalqının düşmənləri sərhədlərimizin bu tayında da iş görür. Keçmişdə, inqilabın əvvəllərində də düşmənin belə planları olub. Amma regionda baş verən son hadisələr haşiyəsində coğrafi sərhədlərimizin kənarında bazalar qura biliblər. Bu mərkəzlərdən amansızca, hiyləgərliklə istifadə edirlər. Hamı diqqətli olmalıdır. Əziz gənclər! Bu gün vətən sizin diqqətinizə, ayıqlığınıza ehtiyaclıdır. Qəlblərdən vəhdət və səmimiyyəti çıxarmaq istəyənləri yaxşıca araşdırın. Hər vasitə, hər bəhanə ilə xalq arasında ixtilaf yaratmaq

istəyənlər var. Bu sahədə fəaliyyət göstərən birini görsəniz bilin ki, bu şəxs düşmənin əlidir. İstər bilərəkdən bu işi görür, istər bilmədən, fərq etməz. Bilmədən də bu işi görsə yenə düşmənə işləyir. Son nəticə eynidir. Sizə bilərəkdən zərbə vuranla bilmədən zərbə vuran arasında nəticə baxımından fərq yoxdur. Ayıq olmaq lazımdır. Xoşbəxtlikdən xalq ayıqdır. Ötən illərdə xalqımız kifayət qədər təcrübə toplayıb, möhkəmlənib. Xalqımız düşmənin çeşidli fitnəkarlıqları ilə tanışdır. Özümüzü daxildən gücləndirməliyik. Elm, iqtisadiyyat, texnologiya sahəsində inkişaf etməliyik. İmanımızı gücləndirməliyik. Gənclərimizin Allahın yardımı ilə ölkədə əsas işləri ələ alacağı gün uzaqda deyil. Məmləkətimiz yaxın gələcəkdə o mərhələyə çatacaq ki, heç bir düşmən müdaxilə fikirinə düşməyəcək. Nə hərbi baxımdan, nə siyasi baxımdan, nə iqtisadi baxımdan addım atmağa cürətləri çatmayacaq. Bugünkü nailiyyətlərimiz uzun illər boyu təlaşın səmərəsidir. Əziz şəhidlərimizin qanının bərəkəti ilə gənclərimiz böyük təlaş sərgiləməkdədir.

## *İki qrup düşmən nüfuzunu asanlaşdırır*

Düşmən göz gəzdirir ki, zəif nöqtə tapsın. Sonra bu zəif nöqtəyə doğru hərəkət etsin. Xalq, məsullar düşmənə zəif nöqtə göstərsələr, düşmən aman verməyəcək. Şayiələrə, təfriqələrə, məsuliyyətsizliklərə, pozuculuqlara şahid oluruq. Bütün bunlar düşmənin nüfuz nöqtələridir.

İki qrup düşmən nüfuzunu asanlaşdırır. Birinci qrup qərəzlidir, İslam və inqilabla, respublika və ruhaniyyətlə problemləri var. Belələri var, amma təsirsiz deyil. İkinci qrup qərəzsiz insanlardır. Onlar qərəzli adamların əlində bilmədən vasitəyə çevrilirlər. İkinci qrupu məlumatlandırmaq, ayıltmaq lazımdır. Bizi qəbul etməyən

hər adamla sərt rəftar etmirik. Çalışırıq ki, sərtlik göstərmədən tədbir görək. Biz düzgün müdiriyyətlə düşməni dosta çeviririk. İnsaflı olanlarda belə rəftarın təsiri var. Əlbəttə, bəziləri qərəzli və fitnəkardır. Şübhəsiz ki, İslam Respublikası belələri ilə qanun əsasında rəftar edir.

Mömin insanların, xüsusi ilə gənclərin vəzifəsi budur ki, əvvəlcə qərəzli adamları müəyyənləşdirsinlər. Qərəzli insanları xeyirxah insanlarla səhv salmaq olmaz. Sonradan məlumatsız insanları, bilmədən müxalifət göstərənləri ayıltmaq lazımdır. Gənclərin ruhiyyəsi, nikbinliyi güclüdür. Onlar daha çox məsuliyyət hiss etməlidir. Xalqı məlumatlandırmaq, istənilən bir libasda olan düşməni tanımaq əsas vəzifələrimizdəndir.

## *Düşmən bir mövzuya çox diqqət yetirirsə, bu onu göstərir ki, həmin mövzu nüfuz etmək üçün seçilib*

Bu gün Amerika və müttəfiqləri, onların əlaltıları fürsət gözləyirlər. İnqilabdan intiqam almaq istəyirlər. İnqilabi gənclərdən xəbis şah Məhəmməd Rzanın, onun zalım ailəsi və SAVAK xəfiyyə idarəsinin intiqamını almağa çalışırlar. Nüfuz etmək üçün nöqtə axtarırlar. İnqilabın daxilinə nüfuz etmək istəyirlər. Ayıq olun, necə ki, keçmişdə ayıq olmusunuz.

Xalqımız düşmənin uzanan əllərini kəsəcək. Düşmən xalqımızın düyünlənmiş yumruğu ilə üzləşəcək. Xəbis olmaqla yanaşı diqqətsiz və nadan düşmənlərimizə deyirəm ki, siz İran xalqına münasibətdə səhvə yol vermisiniz, bu xalqı tanımamısınız. İnqilabdan bu günə qədər bu xalq və ölkə haqqında apardığınız araşdırmalar yanlışdır, buna görə də daim məğlub olursunuz. Bu xalq

İslama bağlı xalqdır. Bu xalq İslama xidmətləri sevir. Bu xalq öz xoşbəxtliyini İslamda axtarır. Bu xalq İslama iman və sədaqəti ilə sizin bütün düyünlərinizi açacaq və heç vaxt təslim olmayacaq.

Bəsic - könüllülər ölkə boyu ayıqdır. Bütün silahlı qüvvələr, o cümlədən ordu, İnqilab Keşikçiləri, asayiş keşikçiləri - polis ayıq olmalıdır. Hamı ayıq olmalıdır. Amma Bəsicin - könüllülərin ikiqat ayıq olmasına ehtiyac var. Şəhər ya kənd, universitet ya hövzə, harada olursa olsun Bəsic ayıqlığını qorumalıdır. Düşmən zərbə vurmaq üçün bir istiqamətlə irəliləmir. O müxtəlif yollarla irəli gəlir. Gözünüzü açın, düşməni tanıyın. İmam Xomeyni (r) bu xətləri bizim üçün aydınlaşdırıb.

Düşmən bir mövzuya çox diqqət yetirirsə, siz də həmin mövzuya diqqətli olun. Bilin ki, düşmən həmin nöqtəni fitnəkarlıq üçün seçib. Düşmən inqilaba, xalqa, xalqın sevgisinə fokuslananda bilin ki, düşmən bütün bunlardan qorxur. Sizin inqilab səhnəsində hüzurunuz, ayıqlığınız və hazırlığınız düşmənin ümidini qırır.[1]

## *Müstəqilliyin olmaması düşmənin nüfuz yoludur*

Müstəqilliyi olmayan məmləkətlərlə qəddarlıqla rəftar edirlər. Təlaş göstərirlər ki, milli kimliyi xalqın əlindən alsınlar. Millətin qürur duyduğu dəyərləri aradan qaldırmaq istəyirlər. Onlara tarixlərini unutdurmağa çalışırlar. Maddi sərvətlərini çapıb-talayırlar. Mədəniyyətlərini, dillərini əllərindən alırlar. Bir ölkənin o biri ölkə üzərində hakim olması üçün bu işlər görülür.

[1] Hərbi Dəniz Qüvvələri, bəsic - könüllülərlə görüş, 1991

İstismar dövründə belə idi. Burada istemarla istismarı fərqləndirməli oluruq. İstemar düşmənin birbaşa hakim olmasıdır. Düşmənlər İrana heç vaxt belə hakim ola bilməyiblər. İngilislər bir zaman bu işi görmək istəyirdilər, İran xalqı yol vermədi. İstemar alınmayanda istismar başlayır. Çalışırlar ki, öz nüfuzlarını imkan həddində gücləndirsinlər.

Mən öz yaxın keçmişimizdən, ötən yüz ildən 4 nümunə üzərində dayanmaq istəyirəm. Bu 4 nümunədən aydın olur ki, düşmən ölkənin siyasi qurumları və mədəniyyətinə hakim olanda o məmləkət və xalq necə acınacaqlı vəziyyətə düşür.

Bir nümunə Məşrutə dövrüdür. Qacar istibdadı dövründə xalqı boğaza yığdılar, xalq qiyam qaldırdı. Bu qiyama din alimləri başçılıq edirdi. Nəcəfdə olan mərhum Ayətullah Axund Xorasani kimi təqlid mərcəsi, Tehranda mərhum Şeyx Fəzlullah Nuri, mərhum Seyyid Abdullah Behbəhani, mərhum Seyyid Məhəmməd Təbatəbai Məşrutə hərəkatına rəhbərlik edirdi. Nəcəf elm hövzəsi onları himayə edirdi.

Onlar İranda ədalətin bərpasını istəyirdilər. İstəyirdilər ki, istibdad aradan qalxsın. O zaman İngiltərənin İranda nüfuzu güclü idi. Ziyalıları bir növ öz qəlibinə salmışdı. Təbii ki, xalqa, məmləkətə can yandıranlar arasında da ziyalılar vardı. Biz onların haqqını tapdaya bilmərik. Amma bir qrup ziyalı açıq-aşkar ingilislərə muzdurluq edirdi. Məşrutə İngiltərə üslubunda bir hərəkat idi. Ziyalılar ədalətli hökumət qurmaq əvəzinə, məşrutəni hakimiyyətə gətirdilər. Nəticəsi nə oldu? Din alimlərinin rəhbərliyi altında, dini şüarlarla başlamış hərəkat qısa bir müddətdən sonra mahiyyətini dəyişdi, qiyamın önündə gedən şeyx Fəzlullah Nuri kimi bir şəxs Məşrutə hökuməti

tərəfindən edam olundu. Bir müddət sonra Seyyid Abdullah Bəhbəhanini evində terror etdilər. Çox çəkmədi ki, Seyyid Məhəmməd Təbatəbai cəmiyyətdən təcrid olundu, ev dustağı vəziyyətində dünyasını dəyişdi. Məşrutəni öz istədikləri formaya gətirdilər. Məşrutənin nəticəsi Rza Xan hökuməti oldu.

İkinci nümunə Rza Xan hökumətinin özüdür. İngilislər Qacar dövləti ilə müqavilə imzaladılar, bu müqavilə əsasında ordu, iqtisadiyyat İngiltərənin nəzarəti altına keçdi. Mərhum Seyyid Həsən Müdərris bu qərardada qarşı səsini qaldırdı. Yol vermədi ki, həmin layihə Milli Şura Məclisində təsdiqlənsin. İngilislər bu layihədən nəticə almayıb yeni fikirə düşdülər. Hakimiyyətə bir diktator gətirmək qərarına gəldilər. Bu yolla Müdərris kimilərini likvidə etmək istədilər. Elə bir diktator ki, xalqı dizi altda əzsin, onların səsini kəssin. Bu diktator İngiltərənin istəklərini həyata keçirməli idi. Beləcə Rza Xanı iş başına gətirdilər. Rza Xanın İranda hakimiyyətə gəlişi İran tarixinin ibrətamiz səhifələrindəndir. Bu tarixi məmləkətimizin bütün gəncləri bilməlidir. Rza Xandan qabaqkı vəziyyət İngiltərənin himayəsi və Rza Xanın dəmir yumruğu ilə aradan qalxdı. Bir istibdad rejimi yaradıldı. Bu rejim 55 il davam etdi. İngilislər Rza Xanın vasitəsi ilə ölkənin siyasi və ideoloji həyatına hakim oldular.

Üçüncü nümunə şəmsi 1942-ci ilin sentyabr ayına aiddir. Rza Xan ingilis ağaları tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı, onu İrandan çıxardılar. Yerinə oğlu Məhəmməd Rzanı gətirdilər. Məhəmməd Rza ingilislərə tam təslim olmaq şərti ilə hakimiyyətə gəldi. İngilislər nə istəyirdisə Məhəmməd Rza o işi görürdü. Artıq istemara, birbaşa xarici hakimiyyətə ehtiyac qalmırdı. İranlı bir xain

biganələrin, xaricilərin istəkləri əsasında öz xalqına hakim olubsa artıq xaricinin gəlib hakimiyyətə sahib durmasına ehtiyac qalmır. Bu işi gördülər!

Dördüncü nümunə 1954-cü ilin avqust ayına aiddir. Əvvəlcə mərhum Ayətullah Kaşanini hiyləgərliklə səhnədən çıxardılar. Sonra Müsəddiq hökumətini süquta uğratdılar. Sonra İrandakı əlaltılarının köməyi ilə 28 avqust çevrilişini həyata keçirdilər. Ondan qabaq Məhəmməd Rza İrandan qaçmışdı. Onu geri qaytardılar və cinayətkar Pəhləvi rejiminin hakimiyyəti daha 25 il uzandı. Mən dörd nümunə göstərdim. Bu dörd nümunə çox ibrətamizdir.[1]

Bizim ölkəmizdə istibdad həmişə xarici qüvvələrə arxalanıb. İstər pəhləvilər, istər onlardan qabaq qacarilər xarici qüvvələrə güvənməklə hökmranlıq ediblər. Rza Xan İngiltərəyə güvənirdi. Məhəmməd Rza əvvəl İngiltərəyə üz tutdu, sonra Amerikaya tərəf çevrildi. O Amerikanın mənafelərini təmsil edirdi. Onlar da Məhəmməd Rzanı dəstəkləyirdilər. Bu məmləkəti 50 il zor altında saxladılar. Elm, iqtisadiyyat, sənaye, mədəniyyət, əxlaq böyük tənəzzül yaşadı, məmləkət çox geriləmdi. Hakimlərin işi eyş-işrət, sərvət toplamaq, xarici ağalarına xidmət etmək idi. Xarici qüvvələrə güvənməklə İranda yerlərini möhkəmləndirdilər. Bu səltənəti yerindən tərpətmək hər adamın işi deyildi. İmam Xomeyni (r) İslamın hidayət bayrağı ilə meydana girdi. İmamın prinsipləri İslam prinsipləri idi. İmamın ədaləti İslam ədaləti idi, imamın demokratiyası İslam demokratiyası idi.[2]

[1] Qum əhalisi ilə görüş, 2001
[2] İmam Xomeyninin (r) vəfat ildönümü, 2003

Bir millət yad qüvvələrə imkan versə ki, onun siyasi, ideoloji qurumlarına hakim olsunlar, bu millətin aqibəti məlumdur. Əgər İslam İnqilabı baş verməsəydi, bu xalq imamın ardınca tarixin böyük hərəkatını yaratmasaydı bu gün İran xalqının nə vəziyyətdə olacağını demək çətin idi. Xalq bu sərvətini itirmişdi, Qərbdən heç bir texnologiya, elm, sənaye gətirilməmişdi. Neft sudan da ucuz qiymətə satılırdı. Bu sərvət uzun müddətli müqavilələrlə düşmənin ixtiyarına verilmişdi. Xalqın düşünən beyinlərini aparmaqla ölkədə elmin səviyyəsinin yüksəlməməsinə çalışırdılar.

Amerika və İngiltərənin İrana nüfuz etdiyi günlər bu xalq üçün çox ağır keçdi. Öncə İngiltərə, sonra Amerikanın nüfuz etməsi nəticəsində məmləkət çox geri qaldı. Bu yüz il uzandı. Bu gün biz hər mərhələyə daxil olanda onların pozuculuqlarının, xəyanətlərinin nişanələrini görürük. İslam İnqilabının ən böyük işi Amerikanın xəyanətkar əllərini İrandan kəsməsi oldu. İslam İnqilabının iftixarlarındandır ki, Amerikanın nüfuzunu əngəllədi, onun bu ölkədəki köklərini baltaladı. Bəli, o zamanlar hakimiyyətdə olanlar buna mane olmaq istəyirdilər. Mən 1980-cı ildə Ali Müdafiə Şurasında olduğum zaman bunu yaxından müşahidə etmişəm. Belə bir layihə hazırlamışdılar ki, həmin layihə əsasında Amerikanın hərbi təlimatçıları başqa bir adla İslam Respublikasının ordusunda fəaliyyət göstərsin. Nə qədər cinayət və xəyanətə imza atmış Amerikanın müşavirlərini saxlamaq istəyirdilər. Mən mane oldum. Mübahisələr oldu, nəhayət bu layihə söhbəti dayandırıldı. Sonra Allah onlara imkan vermədi ki, bu işi davam etdirsinlər. İnqilabın qələbəsindən bir il ötməmişdi ki, həmin cənablar Əl-Cəzairdə Amerika ilə müzakirələr mövzusunu ortaya

atdılar. Amma İmam Xomeyni (r) mane oldu, buna yol vermədi.

Beləlarindən islahat, azadlıq sözünü eşidəndə bədbinləşməyin yeri var. Belə bir əzəmətli inqilabdan sonra qapıdan qovulmuş Amerikanı pəncərədən qaytarmaq istəyirdilər. İndi azadlıq, islahatdan danışırlar. Beləlarindən şübhələnən, nigaran olan insanın haqqı var. İstiqlal inqilabın əsas prinsiplərindən idi. Bu ölkəyə biganələrin nüfuz etməsinə qadağa qoyulmuşdu. Artıq Amerika və İngiltərə heç bir şəkildə ölkənin siyasi, ideoloji işlərinə qarışa bilməzdi.[1]

## *Hakimiyyətə gələn ayrı-ayrı dövlətlərin zəifliyi düşmən nüfuzuna yol açır*

Biz son 2-3 əsrdə ağır zərbələr almışıq. Həm ölkə daxilindəki diktatorlar, həm xarici düşmənlər böyük zərər verib. Miladi 1800-cü ildən xarici dövlətlərin nüfuzu başlayıb. Yəni 200 ili keçib ki, İngiltərə Hindistana nüfuz edib. 200 ili ötüb ki, Hindistanın İngilis hökumətinin nüfuzu baş verib. O zaman britaniyalı general Con Malkolm İrana gəlir. Tarixi vərəqləyənlər bu hadisələrlə tanışdır. O zamankı dövlətlərin zəifliyi düşmən nüfuzuna yol açıb. Qərb mədəniyyəti, qərb siyasəti meydanı alıb. Tədricən zəifləmişik. Bu bir gerçəklikdir. Biz məmləkətin bugünkü problemləri ilə məşğul olarkən, həmin problemləri araşdırarkən keçmiş dövrü nəzərdən qaçıra bilmərik. Bizə ağır zərbələr vurulub. Həm siyasətə, həm mədəniyyətə, həm sərvətlərimizə böyük zərər dəyib. Təəssüf ki, bu gün həmin sahələrdə lazımi işlər

---

[1] Qum əhalisi ilə görüş, 2001

görülməyib. Araşdırmaçılarımız, tarixçilərimiz məmləkətimizin qarət olunması mövzusunu dəqiq araşdırmalıdır. Bir ara ingilislər, bir ara ruslar, sonra başqaları və nəhayət Amerika sərvətlərimizi qarət edib, xalqımızı alçaldıb, siyasi hakimiyyəti ələ keçirib. Bu gün Qərbə bağlı siyasətçilər və məsullardan eşitdikləriniz onların bacarıqsızlıq nümayiş etdirməsi məmləkətimizə Qərb mədəniyyətinin, Qərb siyasətinin nüfuz etməsi ilə bağlıdır. Bu bir gerçəklikdir.[1]

## *Düşmən nüfuzuna yol açan amillərdən biri şəxsiyyət, iradə zəifliyidir*

İmam dağ kimi dayandı, millət də onun arxasında möhkəm dayaq oldu. Düşmən də bir düşmən deyil, bütün bir cəbhə idi. Əllərindən gələni etdilər, amma nəticəsi olmadı. Küçə döyüşləri, tayfalar arası döyüşlər, hərbi çevrilişlər, səkkiz illik müharibə, iqtisadi sanksiyalar, ağır təbliğat maşınının işə salınması inqilabdan bu günə qədər xalqın iradəsini qırmaq üçündür. İnqilabdan başlayaraq yalan danışırlar, böhtan deyirlər, şayiə yayırlar, aranı qarışdırırlar, ölkə daxilində çaşqınlıq yaratmaq istəyirlər.

Onların izlədiyi hədəflər arasında əsas hədəf İslam Respublikasının süqutu olub. Düşünüblər ki, əgər bu işi görə bilməsələr ikinci addımda inqilabın mahiyyətini təhrif etsinlər. Yəni inqilabın forması qalsın, mahiyyəti dəyişsin. İnqilabdan onun ruhunu alsınlar. Bu sahədə çox çalışıblar. Son tamaşaları 2010-cu il fitnələri oldu. Ölkə daxilində nəfsi ardınca gedən bir qrup düşmənin fitnəkarlıqlarına uydu. Dəfələrlə demişəm ki, bu

---

[1] Dövlət məsulları ilə görüş, 2014

fitnəkarlığın mühəndisi ölkə sərhədlərindən xaricdədir. Ölkə daxilindəkilər onlarla həmkarlıq edir. Bəziləri bilərəkdən bu addımı atıb, bəziləri nadanlıqdan.

Üçüncü hədəfləri bu idi ki, İslam Respublikası yaşasa zəif şəxsiyyətli adamlardan faydalansınlar. Onları özünə tərəf-müqabil etsinlər, iş başına gətirsinlər. Yəni elə bir vəziyyət yaransın ki, inqilabi prinsiplərin davamı əngəllənsin. Nəticə etibarı ilə bu respublika Amerikaya qarşı çıxmasın, müqavimət göstərməsin.

Bütün bu planlar yaşadığımız günə qədər pozulub. Çox çalışıblar, hər yola əl atıblar. Bir an olsun fəaliyyətlərinə ara verməyiblər. Amma müvəffəq olmadılar. Çünki xalq ayıqdır. Ölkədə gözəl istedadlarımız var. Xalqımız, məsullarımız təlaş göstərir. Bu günə qədər düşmənin fəaliyyətləri səmərəsiz olub və inqilab öz yoluna davam etməkdədir.[1]

## Amerika ilə rabitə düşmən nüfuzuna yol açmaqdır

Bu gün Amerika sionistlərin, bəzi müttəfiqlərinin və əlaltılarının köməyi ilə regionda inqilabları yoldan döndərmək istəyirlər. Bir növ inqilab dalğasına süvar olub, bundan faydalanmağa çalışırlar. Amma faydası olmayacaq. Təbii ki, xalq üçün müəyyən problemlər yaranır. İxtilaflar ortaya çıxır. Bütün bunları təcrübədən keçirmişik. İnqilabımızda da ixtilaf yaradıblar, sıralarımıza nüfuz ediblər, tayfaları vuruşdurublar, ölkə daxilində çaxnaşma yaradıblar, xarici bir düşməni ölkəmizə hərbi təcavüzə vadar ediblər. Bütün bunlar baş

[1] Tehranda cümə namazı xütbələri, 2011

verib. Amma xalqımız möhkəm dayanıb, inqilab yolunu əzmlə davam etdirib. Bütün problemlərdən ötüb keçmişik. Bundan sonra da belə olacaq.[1]

Amerika ilə siyasi əlaqələr bizim zərərimizədir. Əvvəla, bu əlaqələr Amerikanın təhlükəsini azaltmır. Amerika İraqla siyasi, diplomatik rabitələri olan bir zamanda bu ölkəyə hücum etdi. Həmin vaxt İraqda səfiri var idi. Amerikanın İraqda səfiri vardı, İraqın da Amerikada. Diplomatik rabitə heç bir zorakı qüvvənin qarşısını ala bilmir. İkincisi, Amerika üçün diplomatik münasibətlər bir vasitədir. Onlar diplomatik münasibətlər vasitəsi ilə ölkələrə nüfuz edirlər. Öz şəbəkələrini yaratmaq üçün belə rabitələrdən faydalanırlar. İngilislər də belə idi.

İngiltərənin uzun illər fəaliyyət göstərmiş səfirlikləri əslində özünü satmağa hazır olanlar üçün bir mərkəz idi. İnqilabdan sonra Amerikanın səfirliyi eyni funksiyanı yerinə yetirirdi. Ölkədə təxribatlar, iğtişaşlar Amerika səfirliyində planlaşdırılırdı. Onların pozucu fəaliyyət üçün ölkə daxilində bir mərkəzə ehtiyacları var. Bir kanal axtarırlar ki, ölkəyə öz casuslarını rahat göndərə bilsinlər. Hazırda bundan məhrum olublar. İndi bəziləri oturub, Amerika ilə əlaqələrin olmamasının ölkəmizə zərər olduğunu sübut etməyə çalışır. Xeyr cənablar! Amerika ilə əlaqələrin olmaması bizim xeyrimizədir. Əgər bir gün Amerika ilə münasibət qurmaq faydalı olsa bunu elan edəcək ilk şəxs mən özüməm.

Deyirlər ki, nə üçün Amerikanı özümüzə düşmən edirik? Məsələn, prezident bir söz deyir və bəziləri bu sözün düşmənçiliyə səbəb olduğunu iddia edir. Xeyr cənablar, Amerikanın düşmənçiliyi bu sözlərlə

---

[1] Məbəs bayramı münasibəti ilə məsullarla görüş, 2012

şərtlənməyib. Amerika prinsiplərimizə görə bizimlə düşməndir. İnqilabın əvvəlindən bu günə qədər düşmən olublar. Səkkiz illik müharibə başa çatandan bu günə qədər ardıcıl şəkildə İran xalqını hədələyiblər. Onların hərbi təcavüz ilə qorxutması bu günün söhbəti deyil. Unutmayın ki, düşmən təhlükəsini zəiflədəcək amil sizin iqtidarınızdır. Zəiflik yox, qüdrət nümayiş etdirin. Sizin özünüzü zəif göstərməyiniz düşməni tamaha salır. Amma hiss edəndə ki, siz güclüsünüz geri otururlar. Zəifliyinizi görsələr irəli gələcəklər. Bizim problemimiz Amerika xaqlı yox, Amerika rejimi ilədir. Amerika xalqı ilə heç bir düşmənçiliyimiz yoxdur. Heç bir xalqla düşmən deyilik. Əlbəttə ki, Amerika rejimi ciddi təbliğatlar vasitəsi ilə Amerikada ictimai fikiri dəyişib. Amerikalıların çoxu İran həqiqətlərindən xəbərsizdir. Bilmirlər İranda nə baş verir. Bircə bunu eşidiblər ki, İranda insan haqları pozulur, irtica var. Bunu dövlət onlara aşılayıb. Xalq da inanıb. Bu təbliğat olmasaydı Amerika xalqı da başqa xalqlar kimi idi. Bir sözlə, bizim xalqlarla problemimiz yoxdur, problemimiz Amerika rejimidir.[1]

## *Müzakirə düşmənin nüfuzu üçün bir bacadır*

Amerikanın imperializmin təzahürü olaraq İslam Respublikasının qarşısındakı siyasəti aydın bir siyasətdir. Təbliğat üsullarında bunu pərdələməyə çalışırlar. Amma diqqətlə baxan insan bunu görür. Bu nədən ibarətdir? Amerika onu İranın maddi və mənəvi sərvətlərindən məhrum edən amilləri aradan qaldırmaq istəyir. Bəs bu

---

[1] Tələbə və məktəblilərlə görüş, 1998

hansı amillərdir? Bu İran xalqının müstəqillik istəyi, İslam sevgisidir. İslam bu milləti zülmün caynağından xilas edib. Amerikanı İranın sərvətlərindən məhrum edən bu xalqın mübarizə ruhiyyəsidir. Bu xalq zor qarşısında təslim olmur. Amerika harada müqavimət güclüsə oranı daha çox hədəfə alıb. Gənclərimiz bu barədə lazımınca düşünməli və bu məsələyə diqqət yetirməlidir.

Onların insan haqları mövzusunda şüarları özləri də bilirlər ki, sadəcə şüar, gözdən pərdə asmaqdır. Bunu təzyiq üçün vasitə kimi istifadə edirlər. Amerika uzun illərdir hansı dövlətlə baş-başa gəlsə insan haqlarının pozulmasını bəhanə kimi ortaya atır. Hay-küy salır ki, bu ölkədə insan haqları, demokratiya prinsipləri pozulur. Özləri də gözəl bilirlər ki, bu yalandır. Artıq dünya da bunu görür.

Onların İran İslam Respublikasından istəyi dəfələrlə dilə gətirdikləri kimi Fələstin məsələsidir. İstəyirlər ki, İran bu məsələdə geri çəkilsin, İsrail rəsmi tanınsın. Necə ki, bir çox ölkələr Fələstin problemi barədə düşünmür. İstəyirlər ki, biz Amerikanın regionda, xüsusi ilə İranda hüzurunu qəbul edək. Amerikanın əsl istəyi budur. Amma bu istəklərini pərdələyirlər, saxta ittihamlar, böhtanlarla çıxış edirlər. Əsl məqsədləri isə qeyd etdiklərimdir.

Yaxşı bilirlər ki, İran xalqı nə qədər ki, İslam prinsiplərinə sadiqdir Amerikanın istəkləri gözündə qalacaq. İslama etiqadlı bir şəxsin zülmə boyun əyməsi mümkünsüzdür. İslamda zülm etmək pis sayıldığı kimi zülmə təslim olmaq da pis sayılır. Məkarimul-əxlaq duasında bu mövzuya toxunulur. İmam Səccad (ə) duada dilə gətirir ki, Pərvərdigara, mənə zülm olunmasına yol vermə; Sən mənə qarşı zülmə mane olmağa qadirsən; mənə də başqasına zülm etmək imkanı vermə, Sən buna da

qadirsən.[1] Qurani-Kərimdə möminlərə tapşırılır ki, nə zülm edin, nə də sizə zülm olunsun.[2]

Necə ola bilər ki, bir şəxs müsəlman olsun, eyni zamanda zülmə boyun əysin?! İranın qədim düşməni Amerikaya münasibət isə aydındır. Amerika İran xalqına çox zərbə vurub. Bilirlər ki, İslam durduqca münasibət dəyişməyəcək. Buna görə də İslam Respublikası ilə düşməndirlər. Bu respublika ilə mübarizədə israrlıdırlar. Bilirlər ki, İran xalqı və İslam Respublikası zor qarşısında boyun əyməyəcək.

Təbliğat siyasətlərini tənzimləyirlər. Ardıcıl şəkildə birbaşa təbliğat aparırlar. Ölkə daxilində də əlaltıları var. Əlaltı təkcə o şəxslər deyil ki, Amerikanın kəşfiyyat orqanlarından pul alsınlar. Bəziləri müftə nökərlik edir. Təbliğat aparırlar ki, Amerika ilə əlaqələri kəsmək olmaz! Təlqin edirlər ki, bu əlaqələr kəsilsə ölkə yaşaya bilməz. Təbliğatları budur ki, Amerika ilə müzakirə aparılsa, əlaqə qurulsa problemlər aradan qalxacaq. Bütün bunlar puç və həqiqətdən uzaq olan sözlərdir.[3]

Amerika öz düşmənçiliyini gizlədir. Vəzifə bölgüsü aparır. Biri səhnəyə təbəssümlə çıxır, o biri fitnəkar planlar hazırlayır. Zahirdə İranla müzakirə aparmaq istəyirlər. Amma bu bir bəhanədir. Müzakirə İrana nüfuz etmək üçün bir vasitədir. Müzakirə vasitəsi ilə öz istəklərini diktə etmək istəyirlər. Biz yalnız nüvə mövzusunda müzakirələrə icazə vermişik və bunun da ciddi səbəbləri var.[4]

---

[1] Səhifeyi-Səccadiyyə, dua 20
[2] bax: Bəqərə surəsi, ayə 279
[3] Tələbə və məktəblilərlə görüş, 1998
[4] Xalqın müxtəlif zümrələri ilə görüş, 2016

Bəziləri müzakirə məsələsində səhlənkarlıq edir. Məsələyə ciddi yanaşmırlar. Mövzunu düzgün dərk etmirlər. Bəziləri də biganədir. Onlar üçün ölkədə baş verən hadisələrin əhəmiyyəti yoxdur. Onları milli mənafelər maraqlandırmır. Belələri ilə işimiz yoxdur. Amma bəziləri biganə deyil, eyni zamanda məsələyə ciddi yanaşmır, mövzunun dərinliyini dərk etmir. Söhbət düşəndə deyirlər ki, nə üçün Amerika ilə müzakirələrə müxalifsiniz? Deyirlər ki, Əmirəlmöminin Əli (ə) İmam Hüseyn (ə) də müzakirə aparıb. Məsələyə ciddi yanaşmadıqlarından belə sözlər deyirlər. Onların bu sözləri mövzunu dərindən dərk etmədiklərini göstərir. Məmləkətin problemlərini belə səthi təhlil etmək olmaz. Ümumi, sadəlövh baxışla problemləri aradan qaldıra bilmərik. Əmirəlmöminin (ə) Zübeyrlə, İmam Hüseyn (ə) İbn Sədlə danışanda əslində nəsihət verirdi. Bugünkü müzakirə fərqli formatdadır. Bu gün müzakirə deyəndə müamilə nəzərdə tutulur. Yəni nəyisə verirsən, əvəzində nəyisə alırsan. Məgər Əmirəlmöminin (ə) Zübeyrlə müamilə edirdi?! İmam Hüseynin (ə) İbn Sədlə sövdələşməsi vardı?! Tarixi belə dərk edirsiniz?!

İmamların həyatını belə təhlil edirsiniz?! İmam Hüseyn (ə) qarşı tərəfə nəsihət verdi, onu Allahdan qorxmağa çağırdı. Əmirəlmöminin (ə) Zübeyrlə söhbətində ona Peyğəmbər (s) dövrünü xatırlatdı, nəsihət verdi, onu Allahdan qorxmağa çağırdı. Bunun təsiri də oldu. Zübeyr döyüş meydanından kənarlaşdı. Bu gün isə müzakirə tamam başqa mahiyyət kəsb edib. Böyük şeytan olan Amerika ilə müzakirələrdən söz düşəndə imamları yada salmaq məsələni dərk etməməyin göstəricisidir. Qəzetlərdə, saytlarda yazırlar, söhbətlərində təkrarlayırlar ki, Əmirəlmöminin (ə) Zübeyrlə müzakirə apardı, amma

biz Amerika ilə müzakirə aparmırıq! Bəli, bu həddə yanlışlığa uğrayıblar.

İkincisi, biz elə bugünkü mənada müzakirəyə müxalif deyilik. Biz bu gün bütün dünya ilə müzakirə aparırıq. Avropa ölkələri ilə müzakirələrimiz var. Latın Amerikası ölkələri ilə müzakirə aparırıq. Müzakirə aparmaq problemimiz yoxdur. Amerika ilə müzakirədən imtina etməyimiz ümumiyyətlə müzakirədən imtina etmək mənasında deyil. Biz sadəcə Amerika ilə müzakirəyə müxalifik və bunun səbəbləri var. Düşüncəli insan bunu anlamalıdır. Bizim müzakirə apardığımız ölkələr arasında biganələr də var, düşmənlər də. Amma biz müzakirələri davam etdiririk. Amma Amerika ilə müzakirə həssas məsələdir. Çünki Amerika müzakirə deyəndə İslam Respublikasına nüfuz etməyi nəzərdə tutur. Onlar üçün müzakirənin tərifi budur. Onlar öz hökmlərini yeritmək üçün yol axtarırlar. Dünyanın nəhəng təbliğat maşını Amerikanın əlindədir. Bu gün sionizm cərəyanı bəşəriyyətin zərərinə işləyir. Amerika ilə İsrail eyni əqidədədir, hər ikisi bəşəriyyətə və dəyərlərə düşməndirlər. Bu ölkələrlə müzakirə onların iqtisadiyyatımıza, mədəniyyətimizə, siyasi hakimiyyətimizə nüfuzuna yol açmaqdır.

Nüvə müzakirələrində nə zaman imkan yarandısa nüfuz etməyə çalışdılar. Əlbəttə ki, İran tərəfindən müzakirə aparanlar çox diqqətli idilər. Biz Amerika ilə müzakirələri bu səbəbdən yasaqlayırıq. Amerika ilə müzakirələrin heç bir mənfəəti yoxdur, bu müzakirələr başdan-başa zərərdir. Amerika ilə müzakirə bütün başqa ölkələrlə müzakirədən

fərqlənir. Başqa ölkələrlə müzakirədə qarşılıqlı faydalar mövcuddur. Bunu Amerikaya aid etmək olmaz.[1]

Onların düşmənçilikləri İslam Respublikası nizamı üzərində təmərküzləşib. Müzakirələrdən danışmaqları yalnız nüfuz etmək üçündür.[2]

Bu gün məmləkətimizin problemi bir qrup biganə, bir qrup səhlənkar insanlarla bağlıdır. Əlbəttə onların sayı azdır.

Əzəmətli inqilabi cəmiyyətlə müqayisədə belə insanlar azlıq təşkil edir. Amma onlar fəaldırlar. Yazırlar, danışırlar, təkrarlayırlar, düşmən də onlara kömək edir. Bu gün İslam Respublikasının düşmənlərinin əsas işlərindən biri öncə qeyd etdiyim kimi dövlət məsullarının hesablamalarına şübhə yaratmaqdır. İctimai fikir üzərində işləyirlər. Əlbəttə ki, biz bütün bunlardan xəbərdarıq və prosesi izləyirik. İnqilabi, dini, məmləkətin xeyrinə olan düşüncələri aradan qaldırmağa çalışırlar. Əsas hədəfləri də gənclərdir. Belə bir vəziyyətdə gənclərimiz çox diqqətli olmalıdır. Həmd olsun Allaha ki, ayıqdırlar. Həm universitetdəkilər, həm silahlı qüvvələrimiz, həm asayiş keşikçilərimiz, həm ordu, həm inqilab keşikçiləri, həm bəsic açıq gözlə fəaliyyətdədir. Bu baxımdan nigarançılığım yoxdur. Bu gün tərəf müqabilim olan və dənizdə təhlükəsizliyi öhdəsinə almış gənclər öz işlərinin əhəmiyyətini dərk etsinlər. Bu gün İslam Respublikasında iman düşmən cəbhəsindəki küfrlə üzbəüzdür. Mübahilə zamanı Peyğəmbər (s) və onun ailəsinin mənəvi iqtidarı düşməni səhnədən çıxardı. İran xalqı da Allahın yardımı və gücü ilə öz mənəvi və maddi imkanlarını işə salaraq

---

[1] İnqilab Keşikçilərinin Dəniz Qüvvələri komandanları ilə görüş, 2016

[2] İnqilab Keşikçilərinin Dəniz Qüvvələri komandanları ilə görüş, 2016

düşməni meydandan çıxaracaq. (İnqilab Keşikçilərinin Dəniz Qüvvələri komandanları ilə görüş, şəmsi 1394)

## Seçkilərdə diqqətsizlik düşmən nüfuzuna səbəb olur

Biz nüvə müzakirələrində, "bərcam" adlandırılan nüvə razılaşmasında düşmən nüfuzu məsələsi barədə danışdıq. Bu çox mühüm məsələdir. Ölkədə müxtəlif sahələr barədə informasiyası olanlar yaxşı bilirlər ki, bu xalqın düşüncə və imanına nüfuz etmək üçün necə çirkin planlar hazırlanıb. Bu gün fəaliyyətdədirlər. Seçkilər zamanı çox diqqətli olmaq lazımdır. Əgər düşmənin təsiri altında olan biri İslam Şura Məclisinə və ya Xibrə Məclisinə yol tapsa qarışqa kimi daxildən sütunları yeməyə başlayacaq. Bəli, bu nöqtələri nəzərə aldıqda düşmən nüfuzunun nə dərəcədə əhəmiyyətli məsələ olduğu aydınlaşır. Bu sahədə maarifləndirməyə ehtiyac var. İttihamsız, qarayaxmasız, nümunələr göstərmədən cəmiyyəti maarifləndirməliyik.

Düşmən nüfuzu mövzusunda maarifləndirməyə ehtiyac var. Qurani-Kərim müxaliflərə (o zamankı yəhudilərə) xitabən buyurur ki, nə üçün həqiqəti batilə qatırsınız, haqqı bilərəkdən pərdələyirsiniz?![1] İradlardan biri budur ki, batili haqqa qatırlar. Bu yolla həqiqəti gizləyirlər. Həqiqəti deməliyik, bu bizim vəzifəmizdir.

Həssas günlərdə yaşayırıq. Dövrümüz olduqca həssasdır. Geniş bir cəbhə inqilabımıza qarşı dayanıb. Ortaya pul qoyurlar, silah qoyurlar, fitnəkarlıq edirlər. Öz təbirlərincə düşüncə mərkəzləri yaradırlar. Daim fəaliyyətdədirlər. Səbəbi də budur ki, təhlükə hiss edirlər.

[1] Ali-İmran surəsi, ayə 71

Haqlıdırlar. Həqiqətən də təhlükə hiss etməlidirlər. Çünki İslam təfəkkürü İslam Respublikasının sərhədlərini aşıb. Bu xoş çiçək ətri kimidir, onu bağçada tutub saxlamaq olmaz. O bağın ətrafına da yayılır. Həqiqi İslam təfəkkürü beləcə yayılır. Əlbəttə ki, biz zahirdə müqəddəs və əməl olunmayan bir İslam nəzərdə tutmuruq. Nəzərdə tutduğumuz İslam cəmiyyətə təsirli İslamdır, cəmiyyəti quran İslamdır. İslam düşüncəsi bu gün dünyaya yayılır. İslam təfəkkürü müsəlman ölkələrində təsirli şəxsiyyətlər yetişdirib. Düşmən buna görə qorxur. Bunu da bilirlər ki, bu düşüncənin çeşməsi İslam İslam Respublikasıdır. Bu respublikanı siyasi, ideoloji bombardmana məruz qoyurlar. Rəngarəng işlər görürlər. Pul xərcləyirlər, fitnəkarlıq edirlər. Çox düşünürlər ki, İslam Respublikası ilə necə rəftar etsinlər. Əllərindən gələn işi görüblər. Bizdə məlumat var. Mənim sözlərim təhlil, ehtimal yox, informasiyadır. Daxildəki fəaliyyətlər, şər qüvvələrin fəaliyyətləri, böyük məbləğdə pullar xərclənməsi, əxlaqi fəsadlara meydan açılması bu sıradandır. İslam Respublikasına nüfuz etmək üçün bütün yollara əl atırlar. Bu məsələyə diqqətli olmalıyıq və bu çox mühümdür.

Amerikalılar ölkəmizdəki seçkilərə də öz çirkin niyyətlərini həyata keçirmək üçün vasitə kimi baxırlar. İranda köklü dəyişiklik ardıncadırlar. Biz də dəyişiklik istəyirik. Mən dəfələrlə demişəm ki, cəmiyyət bir yerdə saya bilməz, irəli getməlidir. Cəmiyyətdə dəyişikliklər baş verməlidir. Buna görə də tam islamlaşma istiqamətində gedirik. Amma nəzərdə tutulan məqsədə qədər uzun məsafə var. Ardıcıl hərəkət etməliyik ki, məqsədə yaxınlaşa bilək. Elə bir məqsəd ki, İslam Peyğəmbəri (s) təyin edib. Çalışmalıyıq. Necə ki, düşmən dəyişiklik istəyir biz də dəyişiklik istəyirik. Amma onların istəkləri

bizim istəklərimizə ziddir. Onların istədiyi dəyişiklik bizim əsas məqsədlərdən uzaqlaşmağımızdır. İstəyirlər onların yönəltdiyi istiqamətə üz tutaq. Ölkə daxilində azca gərginlik olanda ümidləri artır. İki tanınmış şəxsiyyət arasında problem yarananda dərhal tamah salırlar, gözləyirlər ki, nüfuz etmək üçün şərait yaransın. Seçkilərə də beləcə tamah salıblar. İran xalqı düşmənin istəklərinə tam əks istiqamətdə ardıcıl şəkildə hərəkatda olmalıdır. Seçkilərdə və başqa ictimai kampaniyalarda sabitqədəmliklə düşmənin ağzından vurmalıyıq.

## *İslam vəhdətinin olmaması düşmən nüfuzlarındandır*

22 bəhməndə, Qüds günü İran xalqının dünya imperializminə qarşı şüarlarına diqqət yetirin. Amerikaya qarşı, sionist rejimə qarşı şüarlar verilir. Hansı ki, onlar bəzən sözlərini bir ölkənin dili ilə deyir, işlərini bir İslam ölkəsinin vasitəsi ilə həyata keçirirlər. Amma biz İslam ölkələrinə qarşı şüar demirik. Bilirik ki, əsl düşmən onlar deyil, onlar düşmənə aldanıblar, alət olublar. Bu proses düşmənşünaslıqdır. Biz təcrübədə buna çatmışıq. Bəzi ölkələrdə İslam qrupları üçün hərəkət etmək imkanı yaransa da təcrübələri olmadıqlarından səhvə yol veriblər. Həqiqi düşmənlə sazişə gediblər, dosta qarşı çıxıblar. Bunun zərbəsini də alıblar. Allahın verdiyi nemətin qədrini bilməyiblər.

İran xalqının təcrübələrindən biri vəhdət yaradılmasıdır. Bizim də ölkəmizdə fərqli baxışlar var. Siyasi, ideoloji məsələlərdə səliqə fərqləri mövcuddur. Amma bütün fərqlərə baxmayaraq xalqımız vəhdəti qoruyur. Ölkəmizin bəzi məntəqələrində kompakt şəkildə tayfalar yaşayır. Həmin tayfalar da 22 bəhməndə, Qüds günü, müxtəlif

inqilabi mərasimlərdə iştirak edirlər. Kürd dilli, bəluç dilli, ərəb dilli, türk dilli məntəqələrimiz var. Bəzən bu məntəqələrdə inqilabın xeyrinə fəaliyyətlər başqa yerlərdən daha güclü olur. Bu İslam vəhdətidir. İran xalqı bunu təcrübədən keçirib. 35 ili ötür ki, bu vəhdət qorunur. Bu vəhdət sayəsində böyük uğurlar qazanmışıq. Bir çox ölkələr vəhdət olmadığından müvəffəq ola bilmir. Kiçik bir milli və ya dini ixtilaf ölkə daxilində vəziyyəti gərginləşdirir, vəhdət pozulur. Bu halda Allah nemətini geri götürür. Qurani-Kərimdə buyurulur: "Allahın nemətini küfrə dəyişənləri görmədiniz?! Öz qövmlərini məhvə sürüklədilər?! Bu həmin cəhənnəmdir ki, onun alovunda yanarlar, bu çox pis sığınacaqdır..."[1] Allahın verdiyi neməti tanımasaq, şükür etməsək, nankorluq göstərsək, Allah da bu millətlə rəftarını dəyişir. Qurani-Kərimdə buyurulur: "Allah bir qövmə verdiyi neməti o zamana qədər dəyişmir ki, onlar özləri dəyişsinlər..."[2] Nə qədər ki, doğru yolda hərəkətdəyik, Allahın iradəsinə təslimik, Allah bizə olan nemətini qoruyur. Amma özümüz özümüzə pislik edirik. İxtilaf yaradırıq. Bir-birimizə qarşı fitnəkarlıq edirik. Bir-birimizlə yaxalaşırıq. Bu halda Allah nemətini geri götürür. Allahın kimsə ilə qohumluq əlaqəsi yoxdur. Demək, insan nə qədər ki, özü nemət üçün zəminəni pozmayıb, Allah neməti qoruyur. Zəminə aradan qalxanda nemət də aradan qalxır. Bu İran xalqının təcrübəsidir. İran xalqı Allahın nemətini qoruya bilib. Bu təcrübəni ötürmək olar. Bu gün İslam ölkələri təxribatlarla üz üzədir. Bu gün dünyadakı təxribatlar nə İrana qarşıdır, nə şiə və sünniyə qarşı. Təxribatlar İslama

---

[1] İbrahim surəsi, ayə 28, 29
[2] Ənfal surəsi, ayə 53

yönəlib. Quran İslamın kitabıdır. Quran fəryad qoparır ki, Allah heç vaxt kafirləri möminlərə qalib etməz.[1] Bu şiənin yox, Quranın sözüdür. Buna görə də Quranla, İslamla müxalifdirlər. Xalqı oyadan istənilən bir hadisəyə qarşıdırlar. İmperializmə qarşı çıxan istənilən bir qüvvəyə qarşıdırlar. Bu da İslamdır. Fəryad qoparan İslamdır. Buna görə İslama müxalifdirlər.

İslamla düşmənçilik üsulları da fərqlidir. Düşünürlər, yeni yollar axtarırlar. Nüfuz etmək üçün, zərbə vurmaq üçün variantlar üzərində işləyirlər. İnqilabın əvvəllərində bizə informasiya çatdı ki, sionist rejim İslam və şiəliyə qarşı düşüncə mərkəzi yaradıb. Böyük bir cəmiyyət davamlı şəkildə mütaliələr aparır, araşdırır ki, İran cəmiyyətinə necə nüfuz etmək olar. Bu oyanışın qarşısını necə almaq barədə düşünürlər. Oyanmış müsəlman xalqlar özündə güc görür. Hiss edir ki, onun zərbə vurmaq imkanı var. Bunu onlar da başa düşür və bu oyanışın qarşısını almaq istəyirlər. Bu yolda çoxlu pul xərcləyirlər. Onlarla belə böyük mərkəzlər fəaliyyətdədir. Avropada, Amerikada, İsraildə, onlardan asılı bir çox ölkələrdə belə böyük mərkəzləri fəaliyyətdədir. Onlar ara qarışdırmağı, təxribatı, fitnəkarlığı, İslamı gözdən salmağı, İslam ölkələrini parçalamağı, İslam xalqlarını bir-birinə qarşı qoymağı özlərinə vəzifə sayırlar. Bir gün xüsusi hərbi qurumlar vasitəsi ilə, başqa bir gün İŞİD vasitəsi ilə qarşıya qoyduqları məqsədə doğru hərəkət edirlər. İxtilaf yaratmaq üçün vasitələr axtarırlar.

Bütün bunlar bizim təcrübələrimizdir. İran xalqı bütün bu prosesləri yaşayıb, dərk edib. Məzhəblər arasında, şiə və sünnilər arasında birliyə çox əhəmiyyət veririk. Bu

---

[1] Nisa surəsi, ayə 141

sadəcə söz deyil. Çünki dərdi tanımışıq və İslam vəhdətini dərman kimi görürük. Bu ümmətə ürəyimiz yanır. Ona görə də vəhdət dalıncayıq. İran xalqı artıq bunu başa düşüb və əməl edir. Amma bir çox millətlər hələ ki, bunun əhəmiyyətini dərk etmir. Həcc bu düşüncəni yaymaq üçün bir fürsətdir. Təbii ki, bunun müxalifləri də var. İxtilaf ardınca olanlar dostluq rabitələrinə qarşıdırlar. Hər halda yollar axtarılmalıdır, tədbir görülməlidir.[1]

## *Daha bir nüfuz yolu: Milli ixtilaf yaratmaq*

İnqilabın başlanğıcında İmamın quruculuq, islahat fəryadları bərəkəti ilə qəlblər və zümrələr bir-birinə yaxınlaşdı. İnqilabdan əvvəl cəmiyyətdə olan parçalanmalar bu gün yoxdur. Ruhani ilə universitet tələbəsi, hərbiçi ilə mülki şəxs, ziyalı ilə ticarət əhli arasında olan çatlar artıq bu gün mövcud deyil. Uzun illər bu problem üzərində iş aparılıb. İnqilabdan sonra həmin çatlar aradan qaldırılıb. Bu gün yenidən həmin çatları yaratmağa cəhd göstərirlər. Çalışırlar ki, dinlər və məzhəblər arasında da münasibəti pozsunlar. Belə çatlar düşmənə yol açır. Düşmən bu ixtilaf sayəsində cəmiyyətə nüfuz edir, öz siyasətlərini yeridir. Hamı diqqətli olmalıdır.[2]

Bu gün düşmən Şimali Afrika hadisələrinə görə, İranın elmi inkişafına görə narahatdır. Onlar İranın elmi inkişafını nüvə sənayesi ilə məhdudlaşdırmaq istəyirlər. Amma bu belə deyil. İran xalqının başqa xalqlara müsbət təsiri onları narahat edir. İslam oyanışına görə narahatdırlar. Düşmən məğlub olduğunu hiss edir. Buna

---

[1] Həcc məsulları ilə görüş, 2016
[2] Cümə namazı xütbələri, 2003

görə də narahatdır. Əlbəttə ki, Amerikanın dövlət məsulları özünü qalib kimi göstərməyə çalışır. Öz fəaliyyətlərindən ağızdolusu danışırlar. Amma öz aralarında gözəl bilirlər ki, həqiqət nədən ibarətdir. Bunu dünya da bilir. Hamı bilir ki, Amerika bu mübarizədə məğlub olub. Bu məğlubiyyəti ört-basdır etmək üçün çalışırlar. Üsullarından biri tədricən, hiss olunmadan cəmiyyətə nüfuz edib parçalanma yaratmaqdır. Bu onların həmişəki işidir. Bu işdə İngiltərə daha peşəkardır. İxtilaf yaratmaq ustasıdırlar. Amerikalılar onlara şagird sayıla bilər. Nüfuz etməklə ixtilaf yaratmaq siçovullar kimi yerinaltı ilə yol açıb dağıdıcılıq etmək kimidir. Bu onların həmişəki işidir. Diqqətli olaq. İxtilafları minimuma endirək. Qeyd etdik ki, cəmiyyətdə ixtilafların olması normaldır. İki dövlət məsulu dost olduğu halda onların baxışlarında fərqlər var. Bu həmişə olub. Amma baxış fərqləri düşmənçiliyə, qarşıdurmaya çevrilməməlidir. Belə olmasın ki, xalqın gözü qarşısında yaxalaşsınlar. Bəzən xalqın bir məsələdən xəbər tutması vacib olur. Amma iki məsul arasında olan ixtilafın ictimailəşdirilməsinin heç bir mənası yoxdur. Belə ixtilafların şişirdilməsinə yol verməməliyik. İxtilafları aşkarlamağa ehtiyac yoxdur. Məsullar arasında olan ixtilafları xalqın arasına çıxarıb onları narahat etməyə dəyməz. Seçkilər zamanı, seçkilər ərəfəsində xalqın hislərindən sui-istifadə edib ixtilaf yaratmaq heç şübhəsiz məmləkətə xəyanətdir.

Bu gün dünya imperializminin diqqət mərkəzində olan təxribatlardan biri ölkə daxilində qarşıdurma yaratmaqdır. Bu sahədə düşmən dəyirmanına su tökənlər, qarşıdurmaya gedənlər Allah qarşısında cavabdehdir. Düşməni tanımalıyıq. Düşmənin planlarından xəbərdar olmalıyıq. Diqqət yetirməliyik ki, düşmən bizim hansı sözlərimizdən

sui-istifadə edib təfriqə sala bilər. Hansı sözlərimiz düşmənə ümid verər, onun ruhiyyəsini yüksəldər.[1]

Düşmən ümid edir ki, cəmiyyətimizdə parçalanma yaratmaqla ölkəyə nüfuz etsin. Bu çox zərif və dəqiq məsələdir. Bu sahəyə böyük pullar yatırılır. Belə deyil ki, düşmənin təfriqə yaratma planlarına cavabımız təkcə əlimizi göydə düyünləyib şüar vermək olsun. Düşmənin çox dəqiq işlənmiş mexanizmləri var. Buna görə də ayıq olmalıyıq.

Əgər kiminsə haqqında bizə söz gətirirlərsə, kiməsə qarşı şayiə düzəldirlərsə, bizə təlqin edirlərsə ki, danışmaq, səsini çıxarmaq vəzifəmizdir, ağlımıza gələn ilk fikir bu olmalıdır ki, düşmənin burada bir planı var, bizim vasitəmizlə ixtilaf yaratmaq istəyir.

Vəhdət əsas prinsipimiz olsun. Hətta dini vəzifə hiss edəndə araşdıraq ki, bu vəzifənin icrası vəhdətə zərbə vurur, yoxsa yox. Təfriqə yaradan vəzifəni yerinə yetirmək haramdır. Vəhdəti qorumaq vacibdir.[2]

Unutmayaq ki, İran xalqının vəhdəti düşmənin bütün ümidlərini puça çıxarıb. Bu vəhdət qorunmalıdır.[3]

Xoşbəxtlikdən məsullarımız zəhmətkeş, canıyanandır. Onlar xalq üçün, məmləkət üçün iş görmək istəyir. Təbii ki, bəzən diqqətsizliklər ola bilər. Amma onların niyyəti safdır, iş görmək istəyirlər. Allah-Taala bu saf niyyətlərə görə hamıya əvəz versin. Şübhəsiz inşallah İran xalqı bu meydanda qalibdir.[4]

---

[1] Qədir bayramı münasibəti ilə görüş, 2010
[2] İmam-cümələrin beyət mərasimi, 1990
[3] Bicar əhli ilə görüş, 1990
[4] Tələbə və məktəblilərlə görüş, 2013

## *Nəfs istəkləri, şəxsi mənafelər ardınca getmək düşmən nüfuzuna yüzlərlə yol açır*

Əgər müxtəlif xətt və cərəyanların hər biri Allahın razılığı ardınca olsa təhlükə yoxdur. Təhlükə o zaman yaranır ki, insan üçün meyar Allahın razılığı deyil. İnsan nəfs istəkləri, şəxsi mənafelər ardınca olduqda saysız problemlər ortaya çıxır. Bu zaman düşmən nüfuzu üçün yollar açılır. Belə bir vaxtda Allahın hidayətindən uzaq düşürük. Əgər məqsədimiz Allahın razılığı olsa Allahın hidayətindən daha çox bəhrələnərik. Allahın razılığını bir kənara qoyub nəfs istəkləri ardınca getsək, bu zaman Allahın hidayətinə ümid etməyə dəyməz. Təbii ki, Allahın lütfü hər zaman üzərimizdədir. Sadəcə nəfs istəkləri ardınca olanda bu lütfə ümid bəsləməməliyik. Məqsədimiz Allahın razılığı olanda bütün işlərimizdə bu razılığı meyar seçirik. Hər şeydən öncə dostluğumuz və düşmənçiliyimiz Allahın razılığı üçün olur.[1]

## *Tamaha salmaq, qorxutmaq, yalan düşmənin nüfuz yollarındandır*

Bu gün İslam ümmətinin, xüsusi ilə haqq uğrunda ayağa qalxmış millətlərin iki ehtiyacı var. Birincisi sabitqədəmlik, ümidsizliyə yol verməməkdir. Allah-Taala Qurani-Kərimdə Peyğəmbərinə (s) buyurur ki, sabitqədəm ol, səninlə birlikdə olanlar da tüğyan qoparmasınlar.[2] Başqa bir ayədə buyurulur ki, sən də onları Allahın vahid ayininə doğru dəvət et, sənə əmr edildiyi kimi sabitqədəm

---

[1] Parlament nümayəndələri ilə görüş, 2000
[2] bax: Hud surəsi, ayə 112

ol.[1] Həzrət Musa (ə) qövmünə xitabən buyurur ki, Allahdan yardım istəyin, sabitqədəm olun, yer üzü Allaha məxsusdur; Allah onu bəndələrindən istədiyinə tapşırar, sonda isə xoş aqibət təqvalılarındır.[2] Ayağa qalxmış millətlər üçün bu arada təqvanın böyük nümunəsi hərəkatlarını dayandırmamalarıdır. Beləlırinə xoş aqibət vəd olunub. Hərəkata başlamış xalqlar üçün ikinci zəruri məsələ düşmən hiylələri qarşısında ayıq olmaqdır. İmperialist güclər xalqların haqq-ədalət yolunda hərəkatlarından zərbə alıblar. Onlar sakit dayanmır, bütün hərbi və siyasi imkanlarını işə salırlar ki, yenidən itirdikləri nüfuzu geri qaytarsınlar. Tamaha salmaq, qorxutmaq, yalan danışmaq onların üsullarıdır. Təcrübə göstərir ki, öndə gedən insanlar arasında bu vasitələrə aldananlar olur. Bilərəkdən ya bilməyərəkdən qorxu, tamah, qəflət onları düşmənə xidmətə sövq edir. Gənclərin, ziyalıların, din alimlərinin diqqəti bu nöqtələrə yönəlməlidir.

Küfr cəbhəsinin təhlükəli planlarından biri hədəfə aldığı ölkələrdə yeni üsul-idarə yaratmaqdır. Bütün imkanlarını səfərbər ediblər ki, İslam kimliyini kölgədə qoyacaq bir üsul-idarə qursunlar. Xalqına və məmləkətinə can yandıran bütün insanlar çalışmalıdır ki, İslam, İslam demokratiyası səhnədə olsun. Bu arada konstitusiyanın rolu böyükdür. Milli birlik, məzhəblərin, qəbilələrin rəsmi tanınması qələbə şərtlərindəndir.[3]

---

[1] Şura surəsi, ayə 15

[2] bax: Əraf surəsi, ayə 128

[3] Böyük Həcc Konqresinə müraciət, 2012

## *Şayiə yaymaq düşmənin nüfuz yollarındandır*

Düşmənin cəmiyyətimizə nüfuz etmək üçün üz tutduğu yollardan biri şayiə yaymaqdır. İnqilab başlayandan bu günə qədər bacardıqları qədər şayiə yayıblar. Məqsədləri xalqın qəlbini titrətmək, onları ümidsizləşdirməkdir. Bir xalq ümidlə irəli gedə bilər. Cəbhədəki döyüşçü yalnız ümidlə vuruşa bilər. Əgər ondan ümidi alsaq hər şeyi almış oluruq. Düşmənin müxtəlif yollarla həyata keçirdiyi təbliğata diqqət yetirin. Onların təbliğatından belə təsəvvür yaranır ki, İranda bütün sahələrdə süqut yaşanır. Bütün ümidləri qırmaq istəyirlər. Lənət olsun belə xəbis düşmənə! İnqilab bu xalqı gəncləşdirib. Xalqımız iman və mədəniyyətlə irəli gedib. Ötən illərdə saysız problemlər aradan qaldırılıb, arxada qalıb. Ümidsizliyə yer varmı?! Ümid Allahdandır. Ümidisizlik şeytandandır. Allah-Taala buyurur ki, onun rəhmətindən ümidimizi üzməyək.[1] Xalq kütlələri bilməlidir ki, qarşıdakı günlər ötən günlərdən qat-qat üstün və şirin olacaq. Allahın lütfü ilə xalqımızın təlaşları sayəsində bacarmadığımız iş yoxdur. Düşmən isə millətin ümidini qırmağa çalışır. Ümidlər qırılsa işlər də yarıda qalır.[2]

---

[1] bax: Yusif surəsi, ayə 87

[2] Xürrəmabad əhli ilə görüş, 1992

# Dördüncü fəsil: Düşmən nüfuzu ilə mübarizə yolları

## *Düşmənin fitnəkarlığını, düşmən nüfuzunu tanımaq onunla mübarizə yoludur*

Uhud savaşı bir qrupun öz mövqeyini buraxıb qənimət ardınca getməsi, nəticədə müsəlmanların məğlub olması çox dəyərli bir nümunədir. Həmin döyüşdə mövqeyini buraxanlar Allah-Taala tərəfindən qınandı. Bu nümunəni yaddan çıxarmamalıyıq. Dünya güclərinin zahirinə aldanmaq, Amerika və digər imperialistlərdən qorxmaq çəkinməli olduğumuz xüsusiyyətlərdir. Öndə gedənlərimiz, gənclərimiz qəlblərində bu hislərə yol verməməlidir. Düşmənə inam, onun təbəssüm və vədlərinin tələsinə düşmək digər bir bəladır. Məsullarımız və aparıcı insanlarımız bu xüsusiyyətlərdən pəhriz etməlidir. Düşmən hansı libasda olsa onu tanımalıyıq. Xalqımızı və inqilabımızı düşmənin dost qiyafəsində hiylələrindən qorumalıyıq. Digər bir təhlükəli xüsusiyyət özünə güvənib düşməndən qəflətdə qalmaqdır. Şücaət düşüncə və tədbirlə yanaşı olmalıdır. Şeytan qarşısında, cin və insanlardan olan şər qüvvələr qarşısında Allahın verdiyi bütün imkanlardan bəhrələnmək lazımdır. İxtilaf yaratmaq, inqilabçı qüvvələri bir-birinə vurmaq, mübarizə cəbhəsinin arxasında qarışıqlıq yaratmaq böyük təhlükələrdən biridir. Bütün bu hallarla ciddi mübarizə aparmaq lazımdır.[1]

---

[1] Beynəlxalq İslam Oyanışına bəyanat, 2012

Bir neçə tövsiyəm var. İlk tövsiyəm məsullara aiddir. Dünyada və regionda baş verən hadisələr göstərir ki, biz olduqca həssas zamandayıq. Sözün əsl mənasında bu bir tarixi dönüş nöqtəsidir. Bunu bilin. Əgər güclü olmasanız, sizə güc göstərəcəklər. Nəinki Amerika və Qərb, hətta Səddam kimiləri də sizə zor deyəcək. Gərək güclü olasınız.

Güc amilləri hansılardır? Necə bilək ki, güclüyük? Ruhiyyə, ümid, iş, təlaş, iqtisadi təxribatlarla tanışlıq, ideoloji hücumlardan xəbərdarlıq, təhlükəsizliyə yönəli fitnəkarlıqları görmək güc amilləridir. Bu amillər dövlət qurumlarının imkanlarını genişləndirir. Hamınıza bunu tövsiyə edirəm.[1]

## *Düşmən nüfuzu qarşısında bəsirət möhkəm səddir*

Quran bizi tarixdən ibrət götürməyə çağırır. Tarixdən ibrət götürmək üçün istəyimiz, nigarançılığımız olmalıdır. Bu nigarançılıqlar gələcəklə bağlıdır. Sual olunur ki, nə problemimiz var ki? Problem, baş verən hadisə ilkin İslam dövrünə aiddir. Düşünməyin yeri var ki, nə üçün Peyğəmbərin (s) vəfatından cəmi 50 il sonra əmirindən tutmuş qarisinə qədər müsəlman camaat Kufə və Kərbəlada bir yerə toplaşıb Peyğəmbərin (s) ciyərparəsini al-qana bələdilər. Nə üçün belə oldu? Mən Aşura ibrətləri ünvanında söhbətlərimdə bu barədə danışmışam. Bəli, Aşura dərsləri başqa mövzular kimi ayrıca bir dərsdir. Aşura dərslərindən də mühüm Aşura ibrətləridir. Belə bir vəziyyət yaranır ki, xalqın gözü qabağında Peyğəmbərin

---

[1] Dövlət məsulları ilə görüş, 2015

(s) ailəsini təqib edir, onları İslam yolundan çıxmaqda suçlayırlar.

Onlara xarici dedilər. Xarici bu mənada deyil ki, onlar xarici ölkədən gəliblər. O zaman xarici sözü başqa mənada işlənib. Xarici deyəndə xəvaric qrupdan olanlar nəzərdə tutulub. Əgər bir şəxs adil imama qarşı qiyama qalxsa, xüruc etsə, Allahın, onun Rəsulunun (s), möminlərin lənətinə hədəf olur. Deməк, xarici deyəndə ədalətli imama qarşı çıxanlar nəzərdə tutulub. Bu əsasla o dövr müsəlmanlarının xaricilərdən xoşu gəlməyib.

Hədisdə deyilir ki, ədalətli imama qarşı qiyam qaldıran, xüruc edən şəxsin qanı hədərdir, yəni qətli vacibdir. İslamda insan həyatına çox dəyər verilir. Amma ədalətli imama qarşı çıxanla güzəştsiz rəftar olunur.

İmam Hüseynin (ə) qiyamı zamanı elə insanlar vardı ki, Peyğəmbərin (s) oğlunu, Fatimeyi-Zəhranın (ə.s) oğlunu, Əmirəlmömininin (ə) oğlunu ədalətli imama qarşı xüruc etmiş, qiyam qaldırmış şəxs kimi tanıtdırırdı. Kimdir adil imam? Onlar Yezid ibn Müaviyəni ədalətli imam sayırdılar!! İmam Hüseyni (ə) xüruc etmiş kimi tanıtdırmaqda müvəffəq oldular. Zalım hökumət istədiyini danışır. Nə üçün xalq inanmalıdır? Nə üçün xalq sakit dayanmalıdır? Məni narahat edən bu nöqtədir. Sual yaranır ki, nə üçün vəziyyət bu yerə çatdı? Nə baş verdi ki, İslam ümməti İslam hökümlərinin xırdalıqlarına məşğul olub belə bir əhəmiyyətli məsələdə səhvə yol verdilər? Belə hadisələr insanı narahat edir. Biz Peyğəmbər (s) və Əmirəlmömininin (ə) dövründəki cəmiyyətdən möhkəmmiyik? Nə edək ki, onların səhvini təkrarlamayaq? Nə üçün bu vəziyyətin yarandığına əhatəli cavab verilmir. Bəzi səbəblər göstərilir ki, bütün bunlar qənaətbəxş deyil. Ona görə də bu mövzu üzərində

dayanmaq, qısa şəkildə fikir bildirmək istəyirəm. Sözlərimi deyəndən sonra özünüz mühakimə aparın. Mütaliə əhli olanlar bu barədə araşdırma aparsın, mütaliə əhli olmayanlar bu səhvi təkrarlamamaq üçün yol axtarsın.

Əgər bu gün biz o səhvi təkrarlamağın qarşısını almasaq, 10-15 ildən sonra İmam Hüseynin (ə) dövründəki duruma düşə bilərik. Bu vəziyyətə düşməmək üçün dərinliyi görən iti gözlərimiz olmalıdır. Əgər sadiq bələdçi yol göstərsə, düşüncəli insanlar işi düzgün yola istiqamətləndirsə, bu hərəkət arxasında möhkəm iradə dayansa möhkəm bir sədd qurulacaq ki, bu səddi keçə bilməyəcəklər. Amma bu işi taleyin ümidinə buraxsaq İmam Hüseynin (ə) dövründəki şərait təkrarlanacaq. O zaman bütün qanlar boşa gedəcək.[1]

Mən bəsirətli olmağın əhəmiyyəti barədə çox danışmışam. Xalq baş verən hadisələrdən baş açmalıdır. Xalq görməlidir ki, aranı qarışdıran kimdir. Belə olsa düşmən öz əlaltısını meydanda işə sala bilməz. Düşmənin istədiyi xalq arasında öz əlaltılarını fəallaşdırmaqdır.[2]

Düşmən təlaşdadır. Bu sahədə kifayət qədər təcrübəsi var. Lazımi vasitələrə də malikdir. Düşmənə qalib gəlmək üçün onun imkanlarını, düşmənçilik imkanlarını öyrənməliyik.

Bəsirətlə addım atılsa insan kütlə arasında xainləri seçə bilər. Fəzanı bulaşdıran, insanları bir-birinə qarşı qoyan, böhtan yayan, saf adamı çirkin adamlara qatan addımlar bu fəzanı zəhərləyib və belə bir fəza zərərlidir.[3]

---

[1] Məhəmməd Rəsulullah 27-ci korpusunun komandanları ilə görüş, 1997

[2] Bəsic - könüllülərlə görüş, 2010

[3] Bəsic - könüllülərlə görüş, 2010

Əlbəttə ki, biz ilahi yardımdan faydalanırıq. Bizə qeybi kömək var, buna şəkk etməyin. Bunu müşahidə edirik. Amma biz ayıq olmasaq, düşüncə ilə hərəkət etməsək, lazımi tədbirləri görməsək ilahi yardım da kəsiləcək.[1]

İran xalqına üz tuturam ki, böyük şücaətlə düşməni ölkədən çıxaran, onu qapı arxasında saxlayan, ona nüfuz etmək imkanı verməyən xalq ayıq olsun. Mən ötən illərdə bu sözləri çox təkrarlamışam. Məsullara xəbərdarlıq etmişəm ki, düşmən nüfuz etmək əzmindədir. Harada bir pəncərə tapsa özünü o pəncərəyə vuracaq. Ayıqlığınızı gücləndirin.[2]

## *Anı tanımaq düşmən nüfuzunu əngəlləmək yollarındandır*

Özümüzü döyüş meydanında hiss etməliyik. Təsəvvür edin ki, meydandayıq, qarşımızda düşmən olduğunu görürük. Sıralarımızı möhkəmləndirmişik, savaşa hazırıq. Topxanalarımız düşmənə tuşlanıb. Bu zaman düşmən hiylə işlədir və mövqeyini dəyişir. Biz nə etməliyik?

Biz deməməliyik ki, bu günə qədər hədəfimiz bu istiqamətdə olub, yenə də həmin istiqamətdə atəş açmalıyıq. Xeyr, baxmalıyıq ki, düşmən haradadır. Yaxşı ordu manevr imkanları böyük olan ordudur. Yaxşı ordu hərəkətdə olan ordudur. Yaxşı ordu düşmənin yerdəyişmələrini vaxtında dəyərləndirir, və lazım olan nöqtəyə atəş açır. Siyasət və ideologiya meydanı da belədir. Baxmalıyıq ki, düşmən nə iş görür. Təbii ki, düşmən öz düşmənçiliyindədir. Müxtəlif şəraitlərdə müxtəlif şəkillərdə mövqe tutur. Düşmənin mövqeyini

---

[1] Xibrə Məclisi üzvləri ilə görüş, 2010

[2] Universitet hadisəsi ilə bağlı bəyanat, 2000

müəyyənləşdirmək bizim işimizdir. Biz düşmənin hərəkətlərinə uyğun olaraq işimizi qurmalıyıq. Məbada düşünək ki, düşmən qarşısında hərəkətsizlik möhkəm mövqe tutmaqdır. Kimsə düşmənin hərəkətlərinə uyğun olaraq manevr edilməsini, yerdəyişmələri geri çəkilmək kimi dəyərləndirməsin. Bu geri çəkilmək deyil. Biz düşməni öz arxamızca çox çəkmişik. Çox olub ki, öz manevrlərimizlə düşməni gic etmişik. Düşmən bu inqilabi xalqdan, bu inqilabdan çox əziyyət çəkib. Bu baxımdan nigarançılıq yoxdur. Düşmənin hərəkətlərinə uyğun manevrlər də işi kamilləşdirir. Düşmənin hərəkətlərinə diqqət yetirməklə mövqe tutub hücumları dəf etməliyik. Bu gün bütün gücümüzü zərbə gözlənilməyən bir istiqamətə sərf etməməliyik. Səngərlərimizi düşmən mövqelərinə uyğun seçməliyik.

İki müqəddiməni diqqətinizə çatdırdım. İndi görək düşmən nə iş görür? Bunu bilməlisiniz ki, düşmən haradadır, necə zərbə vurmaq istəyir? Hücum istiqamətini müəyyənləşdirməlisiniz. Hazırkı dəqiqədə vəziyyəti müəyyənləşdirmək lazımdır. Düşmənin bu dəqiqəki planı sabah təkrarlanmaya bilər. Düşmənin planını dəqiq müəyyənləşdirmək bu dəqiqə üçün zəruridir. Dəqiqənin problemini tapıb, həmin problemə uyğun hərəkət etməliyik. Yaşamış zamanın anından xəbərsiz qalmamalıyıq. Bu an çox mühümdür. Bu an düşmənin nə plan cızması çox əhəmiyyət kəsb edir.

Hamı bilir ki, düşmənin iqtisadi təxribatları var. Bu onun həmişəki işidir. Düşmən hətta düşmən saymadıqlarını iqtisadi cəhətdən özündən asılı etmək istəyir. Baxın görün Amerikaya nökərçilik edən məntəqə ölkələrinə münasibət necədir? Amerika iqtisadi baxımdan onlarla necə davranır? Onları azad buraxıb, özündən asılı

şəkilə salıb? Heç vaxt azad buraxmaz! Onları istismar edir, özündən asılı vəziyyətə salır. Düşmən iqtisadi sahədə dostları ilə də belə rəftar edir.[1]

## *İslam və ruhaniyyət düşmən nüfuzuna mane olur*

İran xalqının diqqət yetirməli olduğu başqa bir məsələ həqiqi İslam alimlərini, fədakar ruhaniləri dəyərləndirməkdir. Həmd olsun Allaha ki, ötən illərdə xalq bu nöqtəyə diqqətli olub.

Düşmən gözəl bilir ki, bu məmləkətin xilası İslam sayəsində, İslam Respublikası sayəsində mümkündür. Bunu hamı bilməlidir, bu nöqtəyə hamı diqqət yetirməlidir. İnqilab dövrünü görməmiş gənclər bilsinlər ki, əgər İslam İnqilabı və İmam Xomeyni (r) olmasaydı xalq Amerikanın əsarətindən və Pəhləvi diktaturasından xilas ola bilməzdi. Bu ölkədə milli qurtuluş üçün bütün yollar təcrübədən keçirilmişdi. Bütün cəhdlər boşa çıxmışdı. Müxtəlif partiyalar, şərq və qərbə bağlı cərəyanlar tarixin müəyyən dönəmində vəziyyəti dəyişməyə cəhd göstərmişdilər. Amma onların heç biri müvəffəq olmadı. Əksinə ölkədə zorakılıq və ədalətsizlik daha da gücləndi. Hətta İslam İnqilabından öncə gənclər silahlı qiyama əl atanda bu qiyam amansızlıqla yatırıldı. Nəticədə Pəhləvi rejiminin təzyiqləri biraz da gücləndi. Qəlblərdə bir ümidsizlik yarandı. Pəhləvi rejiminin qarşısında duracaq yeganə qüvvə xalq idi. Yəni bütün xalq səhnəyə çıxmalı idi. Zalım rejimi devirməyin başqa yolu yox idi. Bu xalqı səfərbər edib meydana çıxaracaq

---

[1] İmam-cümələrlə görüş, 1996

yeganə qüvvə ruhanilər oldu. Din bayrağı altında, dini şüarlarla xalq səfərbər edildi. Ölkəmizdə belə təcrübələr var, bu təcrübələrə diqqətli olmaq lazımdır.

Məşrutədə din alimləri olmasaydı Məşrutə olmazdı. Məşrutə din alimləri sayəsində qələbə qazandı. Mərutədəki qərbpərəstlər, ingilis nökərləri din alimləri və dini şüarları kənara qoyandan sonra istibdad və xarici əsarət yenidən hakim oldu.[1]

Xaricilərlə, fransızlarla mübarizə yoluna diqqət yetirin. Bu mübarizənin önündə alimlər gedirdi. Bunun bir nümunəsi Mirzayi Şirazidir. Başqa bir nümunəsi Məşrutədə Nəcəf alimləridir. Həm Asid Məhəmməkazim, həm Axund Molla Kazim Xorasani ölkədə xaricilərin hökmranlığına müxalif idi. Biganələrin təsiri səbəbindən Məşrutədən də ehtiyatlanırdılar. Asit Əbdül-Hüseyn Lari, Asit Abdullah Biladi, Mərhum Xiyabani, o dövrdə meydanda olan bütün ruhanilər azadlıq eşqi ilə yanan insanlar idi. Xaricilərin ölkədə hökmranlığına nifrət bu insanların müştərək istəyi idi. Zahirdə görünən küfrün İslam qarşısında dayanması idi. Çünki xaricilər kafir idilər. Fransızlar kafir idilər, ölkəyə küfr gətirirdilər. Bu qarşıdurma zahirdə dini bir qarşıdurma idi. Amma zahiri kənara qoyub məsələnin mahiyyətini araşdıranda görürsən ki, bu təkcə dini qarşıdurma olmayıb. Mərhum Hacı Ağa Nurullahın məsələsi bir misal ola bilər. Yəni mövzu o deyildi ki, ölkəyə məsihilər hökmran olacaq. O zaman İsfahanda məsihilər yaşayırdı. İsfahanda həmişə məsihilər olub və problemsiz yaşayıb. Demək, savaş din savaşı deyildi, mövzu bu gün istiqlal adlandırdığımız müstəqillik məsələsi idi. Yəni meydana girən insanlar iqtisadiyyat,

[1] İmam Xomeyninin (r) vəfat il dönümü, 2003

mədəniyyət, siyasət sahəsində əsarətə qarşı çıxırdılar. Həmin dövr qərbin müxtəlif məntəqələrə rahatlıqla nüfuz etdiyi dövr idi. Mərhum Hacı Ağa Nurullahın “Müsafir və muqim” kitabında bu məsələlər yetərincə əks olunub. Mən o kitabın müəyyən hissələrini nəzərdən keçirmişəm, şübhə qalmır ki, müəllif çox işıqlı bir insan olub. O xarici əsarətin mahiyyətini dərk edib. Əgər İngiltərə ölkəmizə İslam da gətirsəydi yenə də işi istismar idi. Yalnız ad dəyişə bilərdi, işin mahiyyəti dəyişmirdi. İstər məsihi olsun, istər müsəlman, istismarçının işi istismar etməkdir. Yaranmış vəziyyət böyük din alimlərini vadar edirdi ki, müqavimət göstərsinlər.

Rza Şahla da elə buna görə baş-başa gəldilər. Mərhum Hacı Ağa Nurullahın mübarizəsi iki hissəyə bölünür. Biri istibdadla mübarizədir, biri xaricilərlə mübarizə. Mərhumun həyatında hər iki mübarizə hiss olunur və onları bir-birindən ayırmaq mümkündür. Amma Rza Xanla mübarizəsində də belə görünür ki, ona xaricilərin əlaltısı kimi baxır. Bugünkü nəsil üçün bu mövzu aydındır. Amma o zaman belə deyildi. O zaman hətta Rza Şaha qarşı şüarlarla insanları özlərinə cəzb edirdilər. İnsanlar da inanırdı. Amma Rza Şah haqqında çox gözəl təbirləri olan və ad çəkməyənlər vardı. Tam aydın idi ki, Rza Şah nəzərdə tutulub. Bu insanlar Rza Şahın məhv etmək istədiyi insanlar idi. Hiss olunur ki, mərhum Hacı Ağa Nurullah o zaman Rza Şahla mübarizənin təkcə istibdad və ya şapka ilə mübarizədən ibarət olmadığını başa düşüb. Məsələ budur ki, iş başına bir adam gətirilmişdi və bu adam İngiltərənin İrandakı planlarını həyata keçirməli idi.[1]

[1] Hacı Ağa Nurullah İsfahani konfransı üzvləri ilə görüş, 2006

Neftin milliləşməsi hərəkatında da vəziyyət belə idi. Bu mübarizənin mərkəzində olan ruhanilərdən biri Ayətullah Kaşani idi. Xalq meydanlara çıxmışdı. Elə ki, rəftarlar dəyişdi, inhisarçılıq ortaya çıxdı, mərhum Kaşani kimi ziyalı və şücaətli ruhani sıradan çıxarıldı, millət də kənara çəkildi. Milli hərəkat dövlətinin başçıları tənha qaldılar. Sonra düşmən gəldi, onların başına istədiyi oyunu açdı.

İranda xalq həmişə dinin çağırışı ilə meydanlara çıxıb. Ədaləti dinin kölgəsində görüb. Ruhanilərə etimadları olduğundan onların ardınca gediblər. İmam Xomeyni (r) böyük din alimi, müctəhid kimi meydana daxil oldu. Bu pak və sınaqdan çıxmış insanın ardınca ruhanilər səhnəyə gəldi. Bütün xalq meydanlara axışdı. Artıq düşmən müqavimət göstərə bilmədi. O zaman meydanlara çıxmış xalq istibdadın kökünü qazmağı bacardı.[1]

## *Düşmən nüfuzu ilə mübarizədə alim və ruhanilərin vəzifəsi*

Bu regiondakı ölkələrdə ilk oyanış dalğası məntəqə ölkələrinə hakim olmaq istəyən xaricilərin gəlişi ilə eyni vaxta düşür. Bu hərəkatlar adətən din alimləri, dini islahatçılar tərəfindən başlanılıb. Seyyid Cəmaləddin, Məhəmməd Əbdəh, Mirza Ağaye Şirazi, Axund Xorasani, Mahmud Əl-Həsən, Məhəmmədəli Şeyx Fəzlullah, Hacı Ağa Nurullah, Əbuləla Mədudi və onlarla tanınmış ruhani və islahatçı bu hərəkatlara rəhbərlik edib. İran, Misir, Hindistan, İraqdan olan bu böyük şəxsiyyətlərin adı tarixə həmişəlik yazılıb.

---

[1] İmam Xomeyninin (r) vəfat ildönümü mərasimi, 2003

Müasir dövrdə də İmam Xomeyni (r) adı İran İslam İnqilabının lideri olaraq istibdad qaranlıqlarını işıqlandırır. Bu inqilabda yüzlərlə tanınmış, minlərlə tanımadığımız alim fəaliyyət göstərib. Ölkənin daxilində və xaricdə böyüklü-kiçikli islahatlar həyata keçib. Bu sırada ruhani olmayan Həsən Əl-Bənna, İqbal Lahuri kimi dini islahatçılar olub. Ruhanilər və dinşünas mütəfəkkirlər xalq üçün ümid yeri olub. Bu böyük insanlar ehtiyac duyulan anda xalqın qarşısında hərəkət edib. Onların bir işarəsi xalqın doğru yola hərəkətində təsirli olub. Bu şəxsiyyətlər İslam oyanışı hərəkatına faydalı olduğu kimi İslamın və dəyərlərin düşməni olanlara problem yaradıb. Təlaş göstəriblər ki, bu düşüncə sahiblərini aradan götürməklə hərəkatların istiqamətini dəyişsinlər. Əgər başqa hərəkat rəhbərlərini sövdələşməyə çəkib əsas hədəfdən yayındıra biliblərsə, təqvalı və agah ruhaniləri heç vaxt sapdıra bilməyiblər və bundan sonra da bunu bacarmayacaqlar.

Xalqın ruhanilərə etimadı onların vəzifəsini ağırlaşdırır. Onlar böyük diqqət və agahlıqla düşmənin fitnəkar planlarını ifşa etməli, nüfuz yollarını bağlamalıdırlar. Dünyanın rəngli süfrəsi böyük bəladır. Zor sahiblərinin təbəssümünə aldanmaq, onlardan hədiyyə qəbul etmək xalqdan ayrılmağın əsas amilləridir. Şəhvət və qüdrət sahibləri ilə yaxınlıq xalqın etimadını itirmək deməkdir. İradəsi zəif insanlar güc sahiblərinə tez aldanır, onların tələsinə düşür. Bu Quran ayəsini həmişə yadınızda saxlayın: Bu axirət sarayını o insanlar üçün qərar vermişik ki, yer üzündə üstünlük və fəsad ardınca deyillər; (ən gözəl) aqibət təqvalılar üçündür...[1] İslam oyanışı hərəkatı dövründə bəzi səhnələrlə rastlaşırıq. Amerika və sionizm,

[1] Qəsəs surəsi, ayə 83

onların əlaltıları həm də din alimləri, müctəhidlər yetişdirməyə başlayıb. Təbii ki, onların emalatxanasından çıxan din alimi və müctəhid iman və təqva əhlini zəhərli süfrə ətrafına çağıracaq. Din alimi və dini şəxsiyyətlər bu nöqtəyə çox diqqətli olsunlar.[1]

## *Etiqadların dəyişdirilməsinə mane olmaq düşmən nüfuzu ilə mübarizədə ruhanilərin işidir*

Belə görünür ki, bizim ictimai və fərdi rəftarlarımız iki amildən təsirlənir. Bunlardan biri istedadlar və imkanlardır. Bir fərd təsəvvür edin ki, onun fəaliyyətlərinin bir hissəsi istedad və imkanlarına aid olan səhnədə ortaya qoyulub. İkinci təsirli amil düşüncədir. Biz mədəniyyət, ideologiya deyəndə həmin düşüncəni nəzərdə tuturuq. Mən mədəniyyət deyəndə həmişə bu mənanı nəzərdə tutmuşam. Yəni insanın varlığına hakim olan düşüncə! Bu düşüncə onun hərəkətlərinə istiqamət verir. Bu bizim rəftarlarımıza istiqamət verən təsirli amildir. Mövzunu aydınlaşdırmaq üçün bir döyüş səhnəsi təsəvvür edin. Bir qrup fədakar döyüşçü qəti iradə ilə vuruşur. Necə ki, səkkiz il müharibədə buna şahid olduq. O zaman döyüş məntəqəsinə daxil olanda mömin gənclərin əzmlə vuruşduğunu görürdük. Onlardan soruşsaydıq ki, nə üçün vuruşursan, deyərdilər ki, bu mənim vəzifəmdir, imam göstəriş verib, din göstəriş verib. Deyərdi ki, düşmən mənim məmləkətimə təcavüz edib, sərhədlərimiz və namusumuza əl uzadıb, biz bir millət olaraq özümüzü müdafiə edirik. O öz düşüncəsini ortaya qoyur. Allaha,

---

[1] İslam oyanışı alimlərinin iclası, 2014

axirətə, şəhadətə, imamın göstərişlərinə etiqadını dilə gətirir. Bir millətin öz torpaqlarını müdafiə etməsinə etiqadlıdır. Bir-biri ilə çülğaşmış etiqadlar onun sözlərində özünü göstərir. Siz görürsünüz, onun düşüncəsi səbəb olub ki, evini, ailəsini, həyatını, təhsilini, rahatlığını bir kənara qoyub cəbhəyə gəlsin, həyatını təhlükəyə atsın. Bu yolda canından keçənlər görmüşük, bu yolda əlil olan fədakar insanlar aramızdadır.

İndi bir nəfər tapılır, döyüş meydanına daxil olur və məqsədi bu gənclərin etiqadını sarsıtmaqdır. Deyir ki, rəqib yox, biz ona hücum etmişik. Beləcə gənclərin düşüncəsini bulaşdırmağa cəhd göstərir. Çalışır ki, şəhadəti gözdən salsın, etiqadlara zərbə vursun. İmamın göstərişlərinə münasibətdə şübhələr yaradır. Bir insanın öz məmləkətini qorumalı olmasına qarşı şübhə yaradır. Bu zaman düşmənin sinəsinə güllə kimi sancılmağa hazır olan gənc peşman, tərəddüdlü, döyüş əzmini itirmiş insana çevrilir. Yəni əvvəlki amilə, istedad və imkanlara malik olan insan düşüncəsi pozulduğundan, yəni ikinci amili itirdiyindən qeyri-fəal şəxsə çevrilir. Alimin qələmi şəhidin qanından üstündür sözləri burada özünü göstərir.[1] Alimin qələmi şəhidin qanından necə üstün ola bilər? Bu o zaman olur ki, həmin qələm fəaliyyətsiz bir insanı fəaliyyətə gətirir. Bir alim buna qadirdir. Bizim ruhani tələbələrimiz döyüş meydanında bu işi görüblər. Onların təbliğatı ilə süst insanlar böyük fədakarlıqla meydana daxil olub. Alimin qələmi, sözü tərəddüdlü insanlardan güclü müqavimətçi yaradır.

Mədəniyyətin rolu budur. Siz bunu bütün məmləkətin simasında nəzərdən keçirin. Bu gün bizim məmləkətimizin

---

[1] Minhacus-Sadiqin, c. 9, səh. 211

xalqın müqavimətinə, düşüncə gücünə, əzm və iradəsinə ehtiyacı var. Düşmən qarşısında müqavimətə ehtiyaclıyıq. Bu məsuliyyəti kim yerinə yetirməlidir. Düşmənin kimliyini, düşmənçiliyin necəliyini, günün ehtiyaclarını xalqa kim anlatmalıdır. Xalqa, gənc nəsilə, tələbələrə müqavimət və fədakarlıq sərmayəsi olan dini kim çatdırmalıdır? Bu işi elm hövzələri və ruhanilərin öhdəsinə atmaq bəs edir? Biz İslam dövlətiyik. Üzərimizə məsuliyyət götürmüşük. Dini məsuliyyətlərimiz var. Ruhani libasında olanlar da, olmayanlar da məsuliyyət qəbul edib. Öhdəmizə götürmüşük ki, İslam nizamını möhkəmləndirək, təkmilləşdirək. Xalqı fədakar və müqavimətli qüvvəyə çevirmək bizim işimiz deyilmi? Əgər onların etiqadlarında, düşüncələrində durğunluq və çaşqınlıq yaransa düşmən qarşısında, şübhəyə düşsələr o meydanda müqavimət göstərə bilərmi? Xalqı belə bir əzm və iradədə kim saxlamalıdır? Biz məsullar buna cavabdeh deyilikmi? Xüsusi ilə ideologiya və mədəniyyət sahəsinə cavabdeh insanlar, Mədəniyyət İnqilabı Ali Şurası buna vəzifəli deyilmi? Bu şura həmin məqsədlə yaradılmayıbmı?

Əgər bu xalqı etiqadlı və müqavimətli tərbiyə etsək xalq və məmləkətin gələcəyini təzmin etmiş oluruq. Müqavimət səddində nə qədər süstlük və zəiflik yaranarsa xalqın etiqadlarına zərbə dəyərsə, şəhadət və cihad kimi müqəddəsliklər arxa plana keçərsə, xalqın və məmləkətin gələcəyi bir o qədər təhlükəyə düşər. Bu xalq gələcək bir səadət üçün qiyam edib. Bəs xalqın gələcək üçün təzminat olan etiqadını necə qoruya bilərik? Yalnız ideoloji işi gücləndirməklə! Mədəniyyət sahəsinə cavabdeh insanlar məsuliyyət hiss etməli, meydana çıxmalıdırlar. İstər

Mədəniyyət İnqilabı Ali Şurası olsun, istər təbliğat təşkilatları olsun, hamı bu işdə özünü məsul saymalıdır.[1]

## İmanı gücləndirmək, agahlıq, düşmənin tərpənişinə iti baxış düşmən nüfuzu ilə mübarizə yoludur

Əziz gənclər və tələbələr! Sizi və təlaş gücünü imandan alıb gənclik enerjisini məmləkətin inkişafına sərf edən bütün gəncləri salamlayıram. Sizin üçün Allah-Taaladan daimi yardım istəyirəm. Bu gün siz gənclərin vəzifəsi ağır və təhlükəlidir. Bu yolda mübarizə dəqiq və zərifdir. İmperialist düşmənlər İslam Respublikasını mühasirəyə almağı planlaşdırır. Onların inqilabdan sonrakı dövrdə İran xalqını dizə çökürmək təlaşları xalqın iman və bəsirəti ilə boşa çıxıb. Artıq öz məqsədlərini açıq nümayiş etdirmək zorundadırlar. Təkəbbürlü düşmən mədəniyyət, siyasət, iqtisadiyyat sahəsində bütün nüfuz yollarını tələsik nəzərdən keçirir. Ümid edir ki, bu yolla İran xalqını, İslam Respublikasını mühasirəyə ala biləcək. İnqilabdan əvvəl caynaqları bu məmləkətin üzərində necə dayanmışdısa, ümid edir ki, bir də həmin günlərə qayıtsın. Hamıya, xüsusi ilə gənclərə zəruridir ki, böyük iradə və ayıqlıqla düşmənin planlarını ifşa etsinlər. Güclü iman, agahlıq və iti baxış müvəffəqiyyətin əsas şərtidir. Universitetlərdə imanlı və qeyrətli gənclərin əl-ələ verməsi qaçılmaz bir ehtiyacdır. Allahdan hamınız üçün yardım diləyirəm.[2]

---

[1] Mədəniyyət İnqilabı Ali Şurasının üzvləri ilə görüş, 2000

[2] İslam tələbə cəmiyyətlərinin konfransına müraciət, 2003

## *İslam şəriətinə bağlılıq düşmən nüfuzuna mane olur*

Səkkiz il uzanan müqəddəs müdafiə illərində yeniyetmə və gənclərimiz təpədən-dırnağa silahlanmış İraq ordusuna sarsıdıcı zərbə endirdi. İraq ordusunu Amerika, Sovetlər Birliyi, Avropa ölkələri, məntəqə ölkələri himayə edirdi. Həm hərbi təchizat, həm informasiya dəstəyi vardı. Bizim 25 yaşlı gənc komandirlərimiz İraq ordusunun təcrübəli generallarını diz çökürdü. Mənim prezidentliyimin ilk illərində gənclərimiz Xürrəmşəhri geri aldı. O zaman İrana bir beynəlxalq heyət gəldi. Bu heyətin rəisi mənə dedi ki, sizin indiki vəziyyətiniz bir ilki vəziyyətinizlə çox fərqlənir. O doğru deyirdi. Dünya inana bilmirdi ki, bizim gənclərimiz, bəsic - könüllülər, gənc inqilab keşikçiləri, ordu Xürrəmşəhri geri ala bilər. Düşmən və onun himayədarlarının istehkamları darmadağın edildi. Gənclərimiz Xürrəmşəhri, sərhədlərimizi geri aldılar. Müştərək su xətti də nəzarətə götürüldü. Bizim qüvvələrin FAV-a çatması düşmən üçün çox təhqiramiz idi. Biz FAV-ı əlimizdə saxlamaq istəmirdik. Bu sadəcə Səddam rejiminin təhqiri idi. FAV-ın alınması BƏƏS ordusunun alçaldılması idi. Bizim gənclərimiz bu işi gördülər. Nə hərbi təchizatları qənaətbəxş idi, nə də informasiya dəstəyi. Yalnız iman və düşüncə gücü ilə bu işi gördülər. Komadanlarımızın 25 yaşı olardı. Bu yaşda çox böyük qəhrəmanlıqlara imza atdılar.

Bu gənclər Əfləq BƏƏS ordusunu məğlub etdilər. Əfləq İraqın BƏƏS partiyasının mənəvi rəhbəri sayılan Mişel adlı suriyalının familiyasıdır. Səddam İraqda hakimiyyətə gələndə bu şəxs onun haqqında mədhiyyələr söylədi, Səddamı ərşin ərəb ümmətinə hədiyyəsi adlandırdı. Olsun ki, elə bu təriflərinə görə İraqda yüksək

məqam qazandı. Bu Əfləq BƏƏS ordusu bizim gənclərimiz qarşısında diz çökdü.

Bu böyük istedad, zəngin torpaq, misilsiz coğrafi mövqe, iftixarlı tarix, bizə qürur gətirir. Ən dəyərlisi isə gənclərimizin qəlbindəki imandır. Bu iman dünyanın diqqətini cəlb edib. Çalışmalısınız ki, gələcəyi ən gözəl şəkildə qurasınız. Buna ümid verən gəncliyimiz var. İnqilabdan əvvəl də zəngin tariximiz, qiymətli coğrafi mövqeyimiz, dəyərli gənclərimiz var idi. Amma bu inkişaf yox idi. Nə üçün? Çünki o zaman bu məmləkətin hakimiyyəti ilk öncə imandan məhrum idi. Daxilində heç bir müqəddəs hiss olmayan fərdlər məmləkətə başçılıq edirdi. İkincisi, etiqadları olmadığından düşməndən asılı vəziyyətdə idilər. Əziz İran quldurların qarət etdiyi behişt idi. Nə üçün qarət edə bilirdilər? Çünki kəndxudanı görüb, razı salıb kəndə girmişdilər. Hakimiyyətdəki məsulları da öz quldurluqlarına şərik etmişdilər. Xalqı çapıb talayırdılar. İnqilab gəldi, düşmən nüfuzu qarşısında böyük maneə yaratdı. Bu maneə nə idi? Şəksiz, İslam idi! Nə qədər ki İslam səhnədədir imperializmin təbliğatçıları qorxu içində olacaq. Təbii ki, İslam ictimai-siyasi həyata qarışmayıb, məscidlərdə məhdudlaşsaydı ondan qorxmazdılar. Əgər iman əhli sakit bir guşəyə çəkilib ibadətlə məşğul olsaydı cəmiyyətin idarəçiliyinə əl aparmasaydı düşmən İslamla müxalif olmazdı. Belə bir İslama əhəmiyyət verməzdilər. Amma İslam Allahın istədiyi, Quranda göstərildiyi kimi səhnəyə gəldi. Belə bir İslamdan qorxmaqlarının yeri vardı. Belə bir İslamda onlar üçün təhlükəli tələblər var. Bunun biri insan şəxsiyyətinə verilən dəyərdir. İkincisi, qarətçilərin qarşısını almaqdır. Tövhid kəlməsində bunlar əks olunub. La ilahə illəllah! La ilahə illəllahın tələbi budur ki, zalımlarla, istismarçılarla,

dünyanı çapıb talayanlarla, millətlərin başına min oyun açanlarla saziş olmaz. Tövhid icazə vermir ki, müsəlman azğın güclə sazişə getsin. Görün Fələstində, İraqda, Əfqanıstanda nə faciələr yaradırlar. Əvvəllər Bosniyada, Livanda, başqa İslam ölkələrində cinayətlər törədiblər. Bəzi millətlərin zəiflik göstərib zalım güclər qarşısında boyun əyməsi o gücləri bugünkü iqtidara çatdırıb. Əgər xalqlar öz haqlarını tanıyıb tələb etsələr, dünya zorlularına baş əyməsələr, onların saxta şüarlarına aldanmasalar zalımlar bu qədər güclənə bilməz.

İslam icazə vermir ki, müsəlman xalqlar imperializmin hakimiyyəti altında olsun.

Müsəlman insanın şəxsiyyəti bütün şəraitlərdə qorunmalıdır. Bu İslamın batinində olan bir tələbdir. İslam bir həyat proqramı kimi təqdim olunanda bu nöqtələr də əsas yer almışdı.[1]

İslam şəriətinə riayət etmək İslam nizamının mahiyyətini təşkil edir. Buna diqqətli olaq. Əgər İslam şəriət qanunlarına cəmiyyətdə tam əməl olunsa həm fərdi, həm də ictimai azadlıqlar təmin edilmiş olar. Bunun adı istiqlaldır. İstiqlal bir millət miqyasında azadlıq deməkdir. İslamda bir müsəlman fərdin və bir müsəlman cəmiyyətin bir başqası qarşısında asılılığı yol verilməzdir. Azad xalq o xalqdır ki, başqa birinin hakimiyyəti altında olmasın. İslam cəmiyyətdə həm ədalət, həm mənəviyyatın təmin olunması ardıncadır. Azadlıq, istiqlal, ədalət, mənəviyyat, İslam cümhuriyyətində dörd əsas elementdir. Əgər cəmiyyətə İslam şəriəti hakim olsa bu elementlər də özünü göstərər. İmam Xomeyni (r) cəmiyyətin ruhu olan İslam şəriətinə istinad edirdi. Dini demokratiya da İslam

---

[1] Tələbə və məktəblilərlə görüş, 2004

şəriətindən götürülüb. İmam Xomeynini (r) in məktəbində zora söykənən heç bir iqtidar məqbul deyil. İslamda zorakılıq yol verilməzdir. Zor üzərində iqtidar mənasızdır. Amma xalqın seçimi ilə, iradəsi ilə səhnəyə gəlmiş iqtidar İslamda məna kəsb edir. Xalqın seçimi ilə səhnəyə gələn iqtidar möhtərəmdir. Belə bir iqtidarın qarşısında kimsə sədd çəkməməlidir. Belə bir iqtidara zor göstərilməməlidir. Əgər kimsə belə bir addım atsa onun addımı fitnədir. İmam bu modeli dünyaya təqdim etdi. Dünyanın siyasi ədəbiyyatında yeni bir fəsil açıldı. Bu yeni nüsxədə əsas elementlərdən biri məzlumun köməyinə getməkdir. Məzlumun köməyinə gedən zalımla baş-başa gəlir. Bizim dövrümüzdə zülmə düçar olmağın ən bariz nümunəsi Fələstin xalqının simasında özünü göstərir. İmam ömrünün sonuna qədər Fələstin problemindən danışdı. Fələstinə dəstək verdi. Hətta dünyasını dəyişəndə vəsiyyət etdi ki, dövlət məsulları Fələstini yaddan çıxarmasın. Məzluma kömək, zalımın qarşısında dayanmaq, zalımın müdaxilələrini əngəlləmək, zalımdan qorxunu boğmaq imamın ortaya qoyduğu nüsxənin müddəalarıdır. İmamın yaratdığı siyasi nizamın qısa təsviri budur. Xalq bunu qəbul etdi, həyata keçirdi. İmamın siyasi modeli bir çox layihələr kimi kitablarda qalmadı. İmamın nüsxəsi gerçəkləşdi. İran xalqı bu yolda sədaqət göstərdi, fədakarlıq etdi, uğur qazandı və öz uğurunu qorudu. İslam Respublikası hər gün güclənərək bugünkü səviyyəsinə çatdı.[1]

[1] İmam Xomeyninin (r) vəfat ildönümündə bəyanat, 2015

## İslamda düşmən nüfuzu ilə mübarizə yollarından biri Həccdir

Həcc müqəddəs İslam şəriətində ən mühüm yerlərdən birini tutur. Bu gün belə nəzərə çarpır ki, Həcc həmişəkindən də çox əhəmiyyət kəsb edir. Həcc həm fərdi, həm ictimai baxımdan əhəmiyyətlidir. Bunun həm fərdə, həm ümmətə faydaları var. Əsrlər boyu İslam ümmətini passiv vəziyyətdə saxlayırdılar. Bu ümmətdən təlaşı, təkamülü alıblar. Onun ümidlərini qırıblar. Əllərində olan yeni texnologiyalarla mənəviyyata zərbə endiriblər. Həcc bütün bu problemlərə mərhəm qoyur. Həcc İslam ümmətinə izzət gətirir. Həcc mərasimində ümmət özündə bir iqtidar hiss edir. Düzgün Həccdə bu xüsusiyyətlər var. Həccin ilkin təsiri İslam ümmətinin daxilindədir. Bizim qəlblərimizə təsir qoyur. Bizim Həccə ehtiyacımız var. Öz ruhiyyəmizi gücləndirmək üçün buna ehtiyaclıyıq. Düzgün Həcc bizə Allaha təvəkkül hissi verir. Digər tərəfdən bunun beynəlxalq təsirləri var. Həcc düşməni zəiflədir, onun ruhiyyəsini qırır. Həcc mərasimi İslamın əzəmətini nümayişə qoyur, İslam ümmətinin vəhdətini düşmənin gözünə çəkir. Bizim buna ehtiyacımız var.

Bu gün İslam qarşısında böyük bir cəbhə yaranıb. Nə üçün bəziləri bu cəbhəni görmür? Əhzab savaşındakı vəziyyətdir. İslama zidd qüvvələr, mənəviyyat düşmənləri İslam qarşısında əl-ələ verib dayanıb. Araşdırma aparırlar ki, zəif nöqtələri üzə çıxarsınlar. Zəif nöqtələrdən istifadə edib nüfuz nöqtələrini müəyyənləşdirməyə çalışırlar.

Zərbələr də nüfuz nöqtələrindən vurulur. Həcc bütün bunların qarşısını ala bilər.[1]

## İzzət düşmən nüfuzuna mane olur

Quran məntiqində həqiqi, kamil izzət Allaha məxsusdur. Allah cəbhəsində dayanan hər bir insan da bundan pay alır. Haqla-batil, Allahla şeytan cəbhələri arasında izzət Allah cəbhəsində dayananlara aiddir. Bu Quranın məntiqidir. Quran buyurur ki, izzət istəyən Allahdan istəsin, izzət bütünlüklə Allaha məxsusdur.[2]

Qurani-Kərimdə buyurulub ki, izzət Allaha, Onun peyğəmbərinə və möminlərə məxsusdur; amma münafiqlər və kafirlər bunu dərk etmir.[3] Həqiqi izzət və ucalıq mərkəzi haradadır? Bunu onlar dərk etmir. Qurani-Kərimdə özünü şeytani mərkəzlərə bağlayanlar, bu yolla ad qazanmaq istəyənlər haqqında buyurulur: İzzət və adı onların kənarında axtarırsınız?! Hansı ki, bütün izzət Allaha məxsusdur![4] Şuəra surəsində böyük peyğəmbərin təlaşlarından danışılır. Həzrət Nuh (ə), Həzrət İbrahim (ə), Həzrət Hud (ə), Həzrət Saleh (ə), Həzrət Şüeyb, Həzrət Musa (ə), haqqında söz açılır. Onlar Allah vəhyini insanlara çatdırırdı. Quran peyğəmbər cəbhəsinin küfr cəbhəsi üzərində qələbəsi haqqında buyurur: Bunda aydın nişanə var; amma çoxları heç vaxt iman gətirməz; sənin Rəbbin əziz və rəhimdir![5] Düşmən cəbhəsi çoxluq təşkil etsə də, zahirən güc onlar tərəfdə olsa da, böyük sərvətə

---

[1] Zəvvarlarla görüşdə bəyanat, 2011
[2] Fatir surəsi, ayə 10
[3] bax: Munafiqun surəsi, ayə 80
[4] Nisa surəsi, ayə 139
[5] Şuəra surəsi, ayə 8, 9

sahib olsalar da, əllərində xeyli silah toplansa da tövhid cəbhəsi qalib gəldi. Burada ilahi ayələrdən bir ayət var. Sənin Rəbbin əziz və rəhimdir. Allah-Taala mübarək Şuəra surəsində bunu təkrarlayır. Surənin sonunda Peyğəmbərə (s) xitabən buyurulur ki, əziz və rəhim Allaha təvəkkül et.[1] O Allaha təvəkkül et ki, haqqın batil üzərində qələbəsini təzmin edir. Sonra buyurulur ki, səni ibadət üçün qalxanda görən şəxs səcdə edənlər arasında hərəkətini də görür...[2] O səni görür. Qiyam halında, səcdə halında, ibadət halında, hərəkət halında, təlaş halında sən Onun hüzurundasan. O eşidən və bilən Allahdır.[3] Quran məntiqinə görə insan izzəti, adı Allahdan istəməlidir. Bir insan, bir cəmiyyət izzətə çatanda bu izzət onun üçün istehkam olur. Düşmən bu səddi keçməkdə çətinlik çəkir. İzzət insanı düşməndən qoruyur. Fərd və cəmiyyətin izzəti nə qədər dərin olarsa düşmən nüfuzu da çətin olar. İzzətə çatmış insan iqtisadiyyat və siyasət sahəsində düşmənlərdən qorunduğu kimi, böyük düşmən olan şeytandan da qoruna bilir. Zahiri izzətə çatan insanlar belə bir səddən məhrumdur. İzzət batində, mahiyyətdə olmalıdır. Aldadıcı zahiri izzət insanı şeytandan qoruya bilməz.

Deyirlər ki, Makedoniyalı İskəndər yoldan ötəndə insanlar ona baş əyirmiş. Bir dəfə İskəndər yoldan ötəndə yol kənarında əyləşmiş mömin kişi ona baş əymədi. Onun İskəndərə diqqətsizliyi, ayağa qalxmaması İskəndəri təəccübləndirdi. Soruşdu ki, nə üçün mənim qarşımda baş əymədin? Kişi cavab verdi ki, sən mənim qullarımın

---

[1] Şuəra surəsi, ayə 217
[2] Şuəra surəsi, 218, 219
[3] Şuəra surəsi, ayə 220

qulusan, nə üçün sənə baş əyim?! İskəndər təəccübləndi, soruşdu ki, bu necə olur? Kişi dedi ki, sən şəhvət və qəzəb qulusan, hansı ki, onlar mənim qulumdur; mən şəhvət və qəzəb üzərində qalibəm, onlar mənə tabedir...

Əgər insanın batinində izzəti-nəfs (gözütoxluq) olsa şeytan insana təsir edə bilməz. Bu zaman azğın nəfs istəkləri də aciz olar. Şəhvət və qəzəb belə bir insanı öz oyuncağı edə bilməz.[1]

## *İstiqlal düşmən nüfuzu qarşısında səddir*

İstiqlal mühüm məsələdir. Bütün məmləkət, inqilabımız üçün istiqlal böyük əhəmiyyət kəsb edir. İstiqlal İslam İnqilabının, İslam Respublikasının sütunlarındandır. Azadlıq şüarı kənarında istiqlal şüarı çox böyük əhəmiyyət kəsb edir.

Bir zaman xarici ölkələr, dünya gücləri başqa ölkələrdə birbaşa hakimiyyətə gəlirdi. O zamankı istemarla bugünkü istemar arasında fərq var. Artıq düşmən birbaşa hakimiyyətə gəlmir, öz əlaltılarını, onlara baş əyənləri hakimiyyətə gətirir. Çünki onlar istibdadsız, zorsuz hakim ola bilməzlər. İstibdad vasitəsi ilə öz mənafelərini təmin edirlər. Bu gün xalqın özündən olan diktatorun arxasında dayanmış xarici qüvvə ilə mübarizə aparmadan bu diktatoru səhnədən çıxarmaq olmaz. Bir xalq öz hakimindən boğaza yığılıb qiyam qaldırsa, bu hakimi devirsə xarici qüvvə ilə sazişə getməməlidir. Əgər həmin hakimin arxasında dayanmış xarici qüvvə ilə sazişə getsə bütün müvəffəqiyyətləri əlindən çıxacaq. Belə inqilablar ya xəyanət qurbanı olur, ya da məğlubiyyətə uğrayır. Ya inqilabın önündə gedənlər düşmən nüfuzu sayəsində

---

[1] İmam Xomeyninin (r) vəfat il dönümü mərasimi, 2013

xəyanət edir, xəyanət etməsə səhnədən çıxarılır. Son illərdə bir çox ölkələrdə baş verən inqilablarda bunu müşahidə etmişik. Çünki inqilabçılar hakimin arxasında dayanan xarici qüvvədən qəflətdə qalır. Onlar bu hakimi taxta çıxarmış xarici qüvvə ilə sazişə gediblər.

Diktatorla mübarizə aparıb onun arxasında dayanan güclə sazişə getməyin nəticəsi yoxdur. Belə inqilab müvəffəqiyyət qazana bilməz. İnqilab o zaman qələbə qazanır ki, diktatorun arxasındakı gücü görsün və onunla rabitəni kəssin. Bizim gənclərimiz inqilabdan sonra Amerikanın casus yuvasına çevrilmiş səfirliyi ələ keçirəndə Amerikanı alçaltdılar. İmam buyurdu ki, bu inqilab əvvəlki inqilabdan böyük oldu. Əvvəlki inqilabın əzəməti İslam İnqilabı idi. Amma ikinci inqilabda İran xalqı göstərdi ki, əsl səbəbkarı tanıyır və onunla mübarizə aparır. Əsl istiqlalı bu zaman dərk etmək olur. İstiqlal müdaxilə edən gücü görməkdir. Bu gücü görməlisən, onunla mübarizə aparmalısan. İstiqlal müdaxilə edən güclərlə mübarizədir. İstiqlal bu güclərlə saziş deyil. Bir millətin istiqlalının düşməni kimdir? Müdaxiləçi xarici güclər! Bir millətin istiqlalı, müstəqilliyi, azadlığı onları qorxuya salır. Çalışırlar ki, millətdə müstəqillik hissi olmasın. Bu hissi zəiflətməyə çalışırlar. Təbliğat maşınları işləyir, xalqlarda müstəqillik hissini öldürürlər. Belə bir təbliğat aparırlar ki, bir xalqın müstəqilliyi onun siyasi, ideoloji, iqtisadi sahədə inkişafına mane olur. Dünyada gedən təbliğatla ətraflı tanış olanlar bunu yaxşı görür. Çalışırlar ki, bu fikirlərinə məntiq, fəlsəfə donu geyindirsinlər. Ölkə daxilində də əlaltılarını işə salırlar, belə təbliğatlar aparırlar. Təbliğ edirlər ki, bir ölkə dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada dayanmaq istəyirsə öz müstəqilliyini kənara qoymalı, bu ölkələrin

ardınca getməlidir. Guya belə etməsə heç vaxt inkişaf edə bilməz. Bu tamamilə səhv fikir və səhv sözdür. Bu o adamların sözüdür ki, xalqların müstəqilliyi onların mənafeyinə ziddir. Zalım güclərin məqsədi budur ki, başqa ölkələrdə öz mənafelərini təmin etsinlər. Bir millətin milli mənafeyi ayaq altında qalsa da onlar üçün fərqi yoxdur. Müdaxilə edirlər, hər vasitə ilə ölkədəki siyasi, mədəni, iqtisadi səhnəni öz mənafelərinə uyğun tənzimləyirlər. Göstəriş verirlər ki, kiminlə dostluq, kiminlə düşmənlik etməlisən. Nefti kimə satmalısan, nə qədər satmalısan, hansı qiymətə satmalısan. Ölkədə hansı sahəni kimə tapşırmalısan, bunu da göstəriş verirlər. Bütün sahələrə əl uzadırlar. Bir ölkə onlara mənafelərinə çatmaq üçün vasitə olub. Milli mənafelər tamamilə unudulur. Ölkə başçılarının, məsulların, məmurların məqsədi millət yox, xarici güclərin mənafeyini təmin etmək olub. İstiqlal belə bir gedişata ziddir və onu əngəlləyir. Bir məmləkət üçün istiqlalın mahiyyəti bundan ibarətdir. İstiqlal dünya ölkələri və xalqları ilə münasibəti pozmaq deyil. İstiqlal milli mənafelər üçün təhlükə yaradan xarici qüvvələrin müdaxiləsini əngəlləməkdir. Yalnız bu yolla milli mənafei qorumaq olar. Hər bir ölkədə belə bir istiqlal əsas məqsəd olmalıdır.[1]

[1] Hərbi Hava Qüvvələri komandanları ilə görüş, 2014

## *Cihad və şəhadət dəyərlərinin qorunması düşmən nüfuzu ilə mübarizə yollarındandır*

Biz hərtərəfli hücumla üzləşmişik. Mədəniyyət, iqtisadiyyat, siyasət sahəsində hücuma məruz qalmışıq. Baş verən hadisələrdən çox vaxt xəbərsiz qalırıq. Mənə bu barədə məlumat verilir. Nələr baş verdiyini görürəm. Düşmənin ideoloji, siyasi ordusu bütün imkanlarla təchiz olunmuş vəziyyətdə bizə hücum edib. Bizim siyasi əqidəmizi, dini etiqadlarımızı süstləşdirmək istəyirlər. Ölkə daxilində fərdi, cüzi narazılıqları gücləndirmək, ictimailəşdirmək istəyirlər. Xüsusi ilə istedadlı fəal gənclərimizi öz xətlərinə salmağa çalışırlar. Təbii ki, bütün bu təxribatlara qarşı iş görülür. Hizbullah gənclər, mömin insanlarımız, məsuliyyətli məmurlarımız çalışırlar. Amma bundan da artıq iş görülməlidir. Əsas işlərdən biri budur ki, cihad, şəhadət, şəhid, şəhid ailəsi, Allahın razılığı üçün səbr, Allaha bağlılıq kimi dəyərlər səhnədə saxlanılsın.[1]

## *İslam vəhdəti düşmən nüfuzu ilə mübarizədə bir yoldur*

Bu gün dünyanın müxtəlif nöqtələrində bütün müsəlmanlar, İslam ümməti, İslam vəhdəti barədə düşünməlidir. Əgər İslam ümməti barədə düşünsək öz xalqımızın mənafeləri də təmin olunacaq. Düşmənin məqsədi bizi bir-birimizdən ayırmaqdır. Bir ölkəyə hücum edilir, başqa ölkələrdən dəstək alınır. Düşmən bu üsulla hərəkət edir, biz buna yol verməməliyik. Düşmən kimdir?

---

[1] Çahar-Mahal və Bəxtiyari vilayətinin şəhid mərkəzi ilə görüş, 2016

Amerika kapitalizmi, dünya imperializmi! Bu gün başda Amerika və sionistlər dayanır. Fələstin torpaqlarını işğal etmiş və xərçəng xəstəliyi kimi təhlükəli olan İsrail də düşmən cəbhəsinin bir hissəsidir. Bu cəbhə qarşısında dayanmaq, İslam və Qurana istinad etmək lazımdır.

Bəzi yazılar və sözlər Quran düşüncəsindən uzaqdır. Quranda buyurulur ki, Allaha, Allahın nazil etdiyinə, İbrahimə, İsmailə, İshaqa, Yəquba, peyğəmbərlərə nazil olunana iman gətirdiyinizi deyin. (bax: Bəqərə surəsi, ayə 136) Müsəlmanın vəzifəsi Quran göstərişlərinə itaət etməkdir. Sonra buyurulur ki, əgər onlar siz iman gətirdiyiniz kimi iman gətirsələr doğru yolu tutarlar.[1]

İslam plüralizmi qəbul etmir. Bəziləri iddia edir ki, İslam Həzrət Musa (ə), Həzrət İsanı (ə) təqdir edirsə, demək, plüralizmi də qəbul edir. Qurana müraciət etsinlər, Quran mətnlərini araşdırsınlar. Bilmədən, lazımi araşdırma aparmadan belə bir iddia irəli sürməsinlər. Bəqərə surəsinin 137-ci ayəsində buyurulur: Əgər onlar da siz iman gətirdiyiniz kimi iman gətirsələr hidayət olublar, əgər boyun qaçırsalar həqiqətdən uzaq düşüblər; Allah onların şərini səndən uzaqlaşdırar... Quran belə deyir. Sonra Peyğəmbər (s) haqqında buyurulur ki, o sizin hidayət olmanıza hərisdir, möminlərə mehribandır.[2] Fəth surəsinin 29-cu ayəsində isə möminlərin kafirlərlə sərt, öz aralarında mehriban olduğu buyurulur. Torpaq sədd kimi olmayın ki, düşmən bu səddən rahat keçə bilsin. Möhkəm olun, düşmən sizə nüfuz edə bilməsin. Amma öz aranızda mehriban davranın. Bir-birinizə qarşı qəlbləriniz pak olsun. Adlar, ünvanlar, coğrafi sərhədlər sizi bir-birinizdən

---

[1] bax: Bəqərə surəsi, ayə 137
[2] Tövbə surəsi, ayə 128

ayırmasın, bir-birinizə düşmən etməsin. Bu Peyğəmbərin (s) dərslərindəndir. Peyğəmbərin (s) mövlud günlərində o böyük şəxsiyyəti tərif etmək bəs deyil. Onun həyatından ibrət götürmək lazımdır. Çalışmalıyıq ki, Peyğəmbərin (s) besət missiyasını gerçəkləşdirək. Qeyd etdim ki, bu gün dünyada prioritet ittifaq, birlikdir.[1]

Ölkə daxilində müxtəlif tayfalardan, dinlərdən olan qardaşlar və bacılar yumruq kimi birləşsinlər, düşmən nüfuzuna yol verməsinlər. Həmd olsun Allaha ki, bu günə qədər belə olub. Dünya miqyasında da sünnü və şiə qardaşlar bilsinlər ki, İslam dinini məhv etmək istəyən düşmən var.[2]

Əvvəlkindən də artıq ölkənin inkişafı, məmləkətdə quruculuq üçün vəhdəti gözləyək. Ehtiyatlı olaq ki, düşmən təfriqə bayrağı qaldırıb aramıza nüfuz edə bilməsin. Harada təfriqə bayrağı qaldırılsa bilin ki, orada düşmən nüfuzu var, buna qarşı dayanın. Bəzən bu işə vasitə olanlar nə etdiyini bilmir. Qurani-Kərimdə buyurulur: Sizə xəbər verək ki, işdə ən zərərli kimlərdir? O şəxslər ki, dünya həyatında təlaşları puç olub, düşünürlər ki, yaxşı iş görüblər. Hansı ki, fəsad törədirlər...[3] Təəssüf ki, mənasız sözləri ilə cəmiyyətdə fəsad törədənlər var. Kim ixtilaf yaradırsa, ümidsiz danışırsa, bu şəxs bilərəkdən və ya bilməyərəkdən düşmənin təsiri altındadır. Ona qarşı çıxın, ona mane olun, inşaallah Allah-Taala  yardımçınız olacaq.[4]

---

[1] İslam Vəhdəti Beynəlxalq Konfransının məsulları və qonaqları ilə görüş, 2015

[2] İmam Xomeyninin (r) 26-cı vəfat ildönümü mərasimi, 2016

[3] Kəhf surəsi, ayə 103-104

[4] Cəmiyyətin müxtəlif zümrələrinin beyət mərasimi, 1990

## *İmamın rəhbərliyi altında xalqın meydanda birliyi düşmən nüfuzuna mane oldu*

İnqilabımızın macəra dolu tarixçəsini vərəqləyəndə görürük ki, məmləkətimiz uzun illər səltənət istibdadının sıxıntısını yaşadıqdan sonra Məşrutə kimi bir fürsətlə üzləşib. Məşrutə bir tənəffüs idi. Gözlənilirdi ki, Məşrutə inqilabı xalqımız üçün yeni nəfəs olsun. Amma belə olmadı. Məşrutə elə əvvəldən biganələr, imperialist güclər tərəfindən nəzarətə götürüldü. İngiltərə bu işdə aparıcı rol oynadı.

Məşrutənin əvvəllərində hərc-mərcliklərdən sonra xarici imperialist güc, yəni İngiltərə çox zalım və əvvəlki padişahlardan da təhlükəli bir diktatoru iş başına gətirdi. Hakimiyyətə gətirilən Rza Xan Müzəffərəddin Şah və Nasirəddin Şahdan da qəddar idi. Biz bir istibdaddan qurtulub, o biri istibdadın pəncəsi altına düşdük. Xalq azadlığın ləzzətini dada bilmədi. İmam elan etdi ki, istibdad hakimiyyəti və biganələrin nüfuzuna son qoyulmalıdır. Keçmiş inqilabçılar, mübarizə yolunda təcrübəsi olanlar buna inana bilmirdi. Necə ola bilər ki, bu ölkədə şahlıq olmasın?! İmam inqilabi hərəkatda şahı xain adlandıranda, onun ölkədən getməli olduğunu dilə gətirəndə hətta mübarizə meydanında olanlar bunu mümkünsüz saydı. Təəccüb edirdilər ki, imam şahlığın ləğv olunmasından danışır. Belə bir şey ola bilərdimi?! Buna inana bilmirdilər. Çünki uzun illər boyu biganələrin nüfuzu ilə yanaşı şahlıq rejimi hakimiyyətdə olmuşdu. Amma imamın istəyi həyata keçdi.

Doğrudan da, imam misilsiz şəxsiyyətə malik idi. İslam hərəkatı imamın misilsiz şəxsiyyətinin rəhbərliyi altında öz işini gördü. Səbr və bəsirət! Mən Əmirəlmömininindən (ə) dəfələrlə nəql etmişəm ki, bu bayrağı yalnız bəsirət və

istiqamət əhli çiyninə ala bilər.[1] Bəsirət agahlıq və səbr. Yəni ardıcıllıq, davamlılıq, yorulmamaq. Səbr və bəsirət İran xalqında özünü göstərən iki xüsusiyyətdir. İnqilab zamanı bu xüsusiyyətlər öz işini gördü. İslam Respublikasının təşkili İran xalqının çoxdankı ehtiyacına cavab idi. İran xalqı öz tarixi arzularının qəlbindən İslam Respublikası bayrağını qaldırdı. Bir üsul-idarənin xalqın tarixi arzularında kökü varsa bu üsul-idarə davamlı olacaq. Belə bir dövlət möhkəmdir, inkişaf qabiliyyətinə malikdir, kök atır, düşmən onunla keçinməkdə çətinlik çəkir. Bu hadisə baş verdi. Heç şübhəsiz İslam İnqilabından başqa bir inqilab, başqa bir mübarizə yolu şahlıq rejimini səhnədən çıxara bilməzdi. Əziz gənclər! Bunu bilin və əmin olun ki, İslamdan başqa heç bir cərəyan istibdadla, Amerikaya bağlı bir rejimlə bacara bilməz. Tarixə nəzər salsaq görərsiniz ki, bu məmləkətdə bütün mübarizə yolları sınaqdan çıxarılıb. Sollar, sağlar, silahlı qruplaşmalar istibdad rejimi tərəfindən darmadağın olunub. O batil rejimi səhnədən çıxara biləcək yeganə güc əzəmətli milli dalğa idi. Xalq yekdil olaraq, həm də dini istəklə, ruhanilərin rəhbərliyi altında, imamın ardınca addım atdı. Başqa yol yox idi, başqa yolla məqsədə çatmaq mümkün deyildi. Zalım rejim devriləndən sonra İslam Respublikasından başqa heç bir üsul-idarə düşmən nüfuzunun qarşısını ala bilməzdi. Yalnız İslam Respublikası bu müdaxilələr qarşısında müqavimət göstərmək gücündə idi.

İstər sollar, istər sağlar, istər mötədillərin mübarizə səhnəsində uğurlarını görmüşük. Amerikanın müdaxilə və nüfuzu, hərb və siyasət meydanında, iqtisadiyyat

---

[1] Nəhcül-bəlağə, xütbə 173

sahəsində təzyiqləri bu inqilabları məhv etdi. Bu gün şərqi Avropada sosializm və solçuluğun əsas mərkəzi olmuş bir məkanda vəziyyətə baxın. Sabiq solçu, sosialist ölkələrdə Amerikanın hərbi bazaları qurulur, raketləri yerləşdirilir. Aydın olur ki, İslam Respublikasından başqa bir quruluş Amerika nüfuz və müdaxiləsi qarşısında müqavimət göstərmək gücündə deyil.[1]

## *Düşmən nüfuzu ilə mübarizə yollarından biri qanundur*

Əziz qardaşlar və bacılar! İstiqlal mövzusunda danışmışıq. Konstitusiyada aydın şəkildə bildirilir ki, nə istiqlal azadlığa mane ola bilər, nə də azadlıq istiqlala. Bu çox ciddi bir məsələdir. Əgər kimlərsə azadlıq şüarı altında qapıları düşmənin üzünə açsa bu azadlıq deyil. Bu düşmənin istəyidir. Düşmən bu gün bu tələni qurur. Çox həssas günlərdə yaşayırıq. Həssas bir dövrdür.[2]

Düşmənin təbliğat maşını, Amerikanın, Mərkəzi Kəşfiyyat İdarəsinin təbliğat aparatı, İngiltərənin təbliğat maşını, sionizmə bağlı təbliğat şəbəkələri psixoloji müharibə aparır. Məsələn, çalışırlar ki, İslam Şura Məclisində bir layihə həyata keçirsinlər. Özlərini anadan mehriban dayə kimi göstərirlər. Bir məhbusun adını şüar edir, ona azadlıq istəyirlər. Şəkkə düşməyin yeri var. Onların səmimiyyətinə inanmaq mümkün deyil.

Düşmən bu gün mövcud olan zəif nöqtələrdən bəhrələnmək istəyir. Sadəlövh insanlardan istifadə edirlər. Ölkənin siyasi qurumlarına, mədəniyyət qurumlarına ayaq

---

[1] Elm və Texnologiya Universitetinin müəllim və tələbələri ilə görüş, 2000

[2] Qum əhalisi ilə görüş, 2001

açmaq istəyirlər. Xatırladıram ki, bu xalq ayıqdır. Məsullar ayıqdırlar. Düşmənin ölçü tanımayan istəklərinə layiqincə cavab verilir. Bizim konstitusiyamız mütərəqqi bir qanundur. Çox əsaslı və məntiqi hazırlanıb. Bu qanunda hər şey öz yerindədir. Mən bütün məsulları, qanunverici sistemdə çalışanları, bütün xalqı qanuna əməl etməyə çağırıram. Əgər qanuna riayət etsək düşmənin ümidi qırılar. Qanuna əməl olunmalıdır. Qanun düşmən nüfuzunun qarşısını kəsir. Düşmənin təbliğat maşını iğtişaş yaradanları dəstəkləyəndə ən yaxşı cavab qanunun icrasıdır.[1]

Nəzərinizə çatdırıram ki, bəzən siyasi ixtilaflar, fərqli cinahlarda mövqe tutulması şişirdilir. Əslində bu ixtilaflar təbliğ olunduğu qədər böyük deyil. Xalq öz yolunu gedir. Xalqın yolu İslam, inqilab, Allah yoludur, böyük imamın yoludur. Bu süni istiqamətləndirmələrin xalqa heç bir aidiyyəti yoxdur. Düşmən çox çalışır ki, siyasi qanadları bir-birinə qarşı qoysun. Ən müqəddəs məkanlardan olan cümə namazından siyasi cinahları müzakirələrə dəvət edirəm. Əyləşin, müzakirə aparın. Müştərək baxışlarınızı əsas götürün, fərqli baxışlarınızı həll edin. Əgər prinsiplər üzərində möhkəm dayansanız haşiyə məsələlərdən dolayı ixtilaflar həllini tapar. Bəziləri qəbul edir, bəziləri inadkarlıq göstərir. Nə üçün bəziləri milli vəhdəti, milli təhlükəsizliyi, milli mənafeləri siyasi cinah maraqlarına qurban verir? Əgər bu işi düşmən nüfuzu olmadan görürlərsə çox pisdir. Əgər düşmən nüfuzunun onlara təsiri varsa bu qat-qat pisdir.

Mən hamını İslam Respublikasının əsas prinsipi olan vəhdətə dəvət edirəm. Bu konstitusiyanın aydın

---

[1] Qum əhalisi ilə görüş, 2001

prinsiplərindəndir. Bu prinsip İslamın, imamın yolunun milli mənafelərin prinsipidir. Millətin düşmənlərinə qarşı mübarizə prinsipidir. Bu xətt bütün xeyirxahların, canı yananların, sədaqətli insanların birləşəcəyi aydın xətdir.[1]

Bu gün İslam Respublikasının dünyada hörməti var. Dövlət məsulları xalqa bağlı olduğundan hörmətlidir. Bunu ölkə başçıları, məsullar bilirlər və Allahın lütfü ilə bu prinsipə sadiqdirlər. Bəzilərinin isə şəxsiyyəti kiçikdir. Maddi bağlılıqlar, yanlış üsullar onları başqa yola aparır.

## *Hərtərəfli iqtidar düşmən nüfuzu ilə mübarizə yoludur*

Quran buyurur ki, düşmənlə mübarizə üçün bacardığınız qədər güc toplayın, döyüş atları hazırlayın, bu vasitə ilə Allahın düşmənlərini və öz düşmənlərinizi qorxudun.[2] Siz öz iqtidarınız və durumunuzla düşməni qorxuya salmalısınız. İstismarçıların, işğalçıların xarakteri təcavüzkar xarakterdir. Onların işi hücum etmək, yağmalamaqdır. Xarakterləri belədir. Əgər sizin səddiniz zəif olsa bu səddi aşacaqlar. Elə etməlisiniz ki, düşmən nüfuz edə bilməyəcəyini görsün. Ölkənin cənubunda inqilabi cəbhənin təşkili, Qara Dənizdə hərbi qüvvələrimizin hüzuru, sahil bölgəsinin fədakar gənclərinin meydanda olması bizi Quran məqsədinə çatdırır. Biz bu vasitələrlə düşməni qorxuda bilirik. Bu davamlı olmalıdır. Dəfələrlə demişik ki, biz müharibəyə başlamayacağıq. Buna görə öz dəlillərimiz var. Amma

---

[1] Qum əhalisi ilə görüş, 2001

[2] Ənfal surəsi, ayə 60

düşmənə müharibə başlamaq cürəti verməməliyik. Düşməni, onun xarakterini tanımalıyıq.[1]

İslam Respublikası Allahın tövfiqi və yardımı ilə nəinki ölkə daxilində, hətta ölkə sərhədlərindən kənarda düşmənin planlarını puça çıxarır. Bu Allahın köməyidir. Allahın qüdrəti ilə, sizin əzm və iradənizin bərəkəti sayəsində buna müvəffəq olmuşuq. Düşmənin bir çox planları İslam Respublikasının iqtidarı səbəbindən puça çıxıb. Onların əsas hədəfləri İslam Respublikasıdır və bu respublikaya qarşı bacardıqlarını edirlər.[2]

Siz gənclərin nəzərinə bir məsələni çatdırmaq istəyirəm. İnqilabdan ötən illərdə müxtəlif fitnəkarlıqlara əl atdılar, təxribatlar törətdilər, çevrilişə cəhd etdilər. Bizi səkkiz illik müharibəyə cəlb etdilər, əllərindən gələn fitnəkarlığı törətdilər. Bu ötən illərdə İslam Respublikası sübuta yetirdi ki, onun yaşamaq haqqı var və yaşamağa layiqdir. İqtidarla dayandı, müqavimət göstərdi. Bütün bu hadisələrdən sonra düşmənlər bu gövdəli ağacı tərpətmək iqtidarında deyil. Bir zaman bu ağac nihal idi. Hətta nihal olduğu zaman onu kökündən qopara bilmədilər. Artıq o nihal dərin köklü və gövdəli bir ağac olub. Bu ağacı tərpədə bilmirlər. Sadəcə ehtiyatlı olmalıyıq ki, ağac içdən çürüməsin. Nə qədər ki, mənəvi sağlamlığımızı qoruyuruq, İslam Respublikasının göstərdiyi yolla gedirik, bu yoldan çıxmamışıq, heç bir qorxu yoxdur. Belə bir şəraitdə bizə heç bir zərbə vura bilməzlər.

Dünya imperializminin, Amerikanın, sionist şəbəkələrin siyasətlərinin ilkin və aydın hədəfi İslam Respublikasıdır. Nə qədər çalışırlarsa, bu nizamı sarsıda

---

[1] İnqilab Keşikçilərinin komandanları ilə görüş, 2016
[2] İnqilab Keşikçilərinin komandanları ilə görüş, 2016

bilmirlər. Nəinki onu səhnədən çıxara bilmirlər, hətta inkişaf sürətini əngəlləməkdə acizdirlər. Biz sürətlə hərəkətimizi davam etdirə bilərik. Amma düşmənin təxribatlarına hazır olmalıyıq. Bu təxribatlar davam edəcək. Nə qədər ki, ölkəmiz hərtərəfli iqtidara çatmayıb, onların fitnəkarlıqları da dayanmayacaq. Ölkəni hər tərəfli iqtidara çatdırmaq siz gənc nəsilin, tələbələrin işidir. Nə zaman ölkəni elmi və iqtisadi iqtidara çatdırsanız o zaman fitnəkarlıqlar azalacaq, ümidləri qırılacaq. Nə qədər ki, o nöqtəyə çatmamışıq təxribatlar gözlənilir, təxribatlara hazır olmalıyıq. İnşallah, hər ötən gün sizi gücləndirir. Düşmənlər isə zəifləyir. Bu millətin son qələbə qazanacağı gün inşallah uzaq deyil.[1]

## *Düşmən nüfuzuna qarşı ən yaxşı yol hazırlığı bəyan etməkdir*

Düşmən qarşısında hazırlığın bəyanı onları geri oturtmağın ən yaxşı yoludur.[2] Biz həmişə vurğulayırıq ki, inqilabi cəmiyyətin müdafiəsi ən zəruri məsələlərdəndir. Çünki İslam Respublikasına qarşı təhlükə daimidir. Respublikaya qarşı davamlı bir təhlükə mövcuddur. Amma bu xalqımızın necə reaksiya göstərməsi ilə şərtlənib. Millət öz hazırlığını ortaya qoymalıdır. Əgər inqilabi cəmiyyətimiz öz hazırlığını daim qorusa, bəsic - könüllü gənclərimiz meydanda hazır olsa, xalqın müdafiə ruhiyyəsi qorunsa, cəmiyyətin ümumi simasında müdafiə hazırlığı özünü göstərsə, təhlükələr reallaşmayacaq, düşmənin çirkin niyyəti, istəyi gözündə qalacaq.

---

[1] Elm və Texnologiya Universitetinin müəllim və tələbələri ilə görüş, 2009

[2] Əbərkuh əhalisi ilə görüş, 2008

Cəmiyyətin rəftarlarından anlamaq olur ki, bu cəmiyyət müdafiəyə, öz ləyaqətini qorumağa qadirdir, yoxsa yox. Bir cəmiyyətdə insanlar şəxsi mənafeyini milli mənafedən üstün tutsa, bu cəmiyyətin gəncləri günah ardınca getsə, təsirli insanlar ölkənin taleyinə biganəlik göstərsə, cəmiyyətdə siyasi, dini, təbəqələrarası ixtilaflar zirvəyə qalxsa, qadınlar və kişilər eyş-işrət, varlı həyat eşqində olsa, əmin olun ki, belə bir cəmiyyətin müdafiə iqtidarı olmayacaq. Belə bir cəmiyyət öz şərəf və ləyaqətini qorumaq gücündə deyil.

Yaşlı insanlar şahid olublar ki, son 150 ildə imperializm ölkəmizin mədəniyyəti, cəmiyyəti, təlim-tərbiyəsi üzərində necə iş aparıb, cəmiyyəti ixtilaf və fəsada necə çəkib. Gənclər də bu barədə eşidiblər. Bu işi ona görə ediblər ki, millətin öz şərəf və ləyaqətini müdafiə etmək gücü olmasın. Əgər düşmən əmin olsa ki, artıq bu cəmiyyətin müdafiə imkanları yüksəkdir geri çəkilər. Əksinə, görsə ki, xalqın müdafiə qüdrəti yoxdur, bu zaman hücuma keçəcək.

Biz inqilabdan sonrakı çox çətin 10 ildə düşmən müdaxilələrinin qarşısında dayana bildik. Bunun səbəbi dinə, imana, inqilaba, İslama, Qurana, dəyərlərə bağlılıq idi. Çünki cəmiyyətimizdə inqilabi ruhiyyə vardı, vəhdət cəmiyyətə hakim idi.[1] Öz hazırlığını, əzm və iradəsini bütün meydanlarda nümayişə qoyan xalq düşmənin müdaxilə planlarını pozur, ümidlərini qırır. Dünyadakı ictimai fikirdə İran xalqı heç bir sahədə geri qalmamalı, zəiflik göstərməməlidir. Nüvə sənayesi dövlət məsullarının israr etdiyi kimi bir zərurət idi. Yəzd şəhərində tələbə və gənclərlə görüşdə qeyd etdim ki, bu bir

---

[1] Cəmiyyətin müxtəlif zümrələri ilə görüş, 1990

milli ehtiyac idi. Əgər nüvə sənayesini bu gün işə salmasaydıq, 10-15 il sonra millətimiz və məmləkətimizə zərbə dəyərdi. Bu gün bir işi görürük ki, zamanı çatanda onun bəhrəsini götürək. Bu gün başlamadığımız işdə geri qalırıq. İkincisi, nüvə məsələsi kimi bir məsələdə düşmən qarşısında geri çəkilmək düşməni həyasızlaşdırır. Sən geri çəkiləndə onun tələbləri artır. Sən geri çəkiləndə o irəli gəlir. Buna görə də İran xalqı öz mövqeyində möhkəm dayandı, məsullarla birgə bəyan olundu ki, nüvə enerjisi bu xalqın haqqıdır. Bizim haqqımızdır ki, bu elmə sahib olaq, nüvə sənayesini inkişaf etdirək.[1]

## *Nüfuza qarşı elm və araşdırma yolu*

Əzizlərim, bilin ki, bu məmləkəti istənilən müdaxilə, istənilən təcavüz, istənilən mənfi təsirdən qoruya biləcək amil dövlət quruluşunun daxilən möhkəmləndirilməsidir. Xalqın məsullarla bağlılığı, gənclərin gələcəyə ümidi, bu nizamı zəiflədəcək amillərin aradan qaldırılması zəruridir. Universitetlərdə, elm mərkəzlərində, elmi araşdırmalar gücləndirilməlidir. Bu görüşdə əziz tələbə gənclərdən biri qeyd etdi ki, araşdırmaların sürəti azdır. Bunu tələbələrin istəyi kimi dilə gətirdi. Bu məni sevindirir. Universitet müəllimlərinin, alimlərin məclisində də bu məsələ yada salınıb. Bu çox yaxşıdır ki, gənclərimiz elm və araşdırma ardıncadır. Elmi araşdırmasız cəmiyyəti irəli aparmaq olmaz. Bəşəriyyətin düşmənləri də elmdən faydalanır. Biz yüksək amallar, insani dəyərlər yolunda elm və onun zati şərəfindən faydalanmağa məcburuq. Vəhdət və rabitələr qorunmalıdır. Başladığımız fundamental işləri davam etməliyik.

---

[1] Əbərkuh əhalisi ilə görüş, 2009

Bilin ki, düşmənin araşdırmaları və hesabatları İranda böhran yaradılması ehtimalını istisna edir. Düşmən öz hesabatlarında əmin olub ki, bu ölkədə böhran yarada bilməz. Problem silahla, raketlə, bomba ilə həllini tapası deyil. Əgər millət əl-ələ verərək möhkəm dayanıbsa, cəmiyyətin əksəriyyətini 35 yaşdan aşağı nəsil təşkil edirsə, millət dini dəyərlərə bağlısa, belə bir millətlə baş-başa gəlmək, müharibə aparmaq faydasızdır. Düşmən öz hesabatlarında buna əmin olub. Bəli, hay-küy salırlar ki, bu milləti qorxuda bilsək, məqsədə çatarıq. Əgər bu millətin arasında kimlərsə xəyanətə getsə, kimlərsə təslim olsa düşmən qalib gələ bilər. Bunlar bir xəyaldır. Nə qədər ki, millət möhkəm dayanıb, gənclər möhkəm dayanıb, məsullar möhkəm dayanıb, cəmiyyət təhdidlər qarşısında müqavimət göstərir, yaranmış şəraiti düzgün dəyərləndirə bilir, öz şərəf və ləyaqətinə, müstəqilliyinə dəyər verir, məmləkətinin müdafiəsi üçün fədakarlığa hazırdır, düşmən də öz işini başa düşəcək. Başa düşəcək ki, bu xalqa qalib gəlmək asan deyil.[1]

## *Tələbə cəmiyyətləri düşmən nüfuzuna diqqətli olsun*

İslam bünövrəli tələbə cəmiyyətləri universitet daxilində mömin birliyi zəiflədəcək rəqabətlərə yol verməsin. Bu cəmiyyətlər bir-birinə dayaq olsun. Demirəm ki, hamı eyni şəkildə düşünməlidir. Bu nə mümkündür, nə də lazımdır. Amma ümumi birliyi zəiflədəcək rəqabətlərdən çəkinmək lazımdır. Bu məsələ sizə aydındır. 10-15 il əvvəl universitet cəmiyyətində bu

---

[1] Şəhid Behişti Universitetinin müəllim və tələbələri ilə görüş, 2004

barədə xatırlatmalara ehtiyac çox idi, məsələ bugünkü kimi aydın deyildi. Amma bu gün düşmənin tələbə cərəyanları üzərinə sərmayə yatırdığını görürsünüz. Hər vasitə ilə tələbə mühitini qarışdırmağa, bu fəzaya nüfuz etməyə çalışırlar. Tələbə cəmiyyəti arasında özlərinə əsgər axtarırlar. Bu işi müxtəlif adlarla həyata keçirirlər. Amerika və İsrail kəşfiyyat orqanları tələbə təşkilatlarına maliyyə yardımı göstərməyə hazırdırlar. Çünki bu cəmiyyətlər arasında onların istəklərinə cavab verəcək qruplar var. Universitetlərdə bu mövcuddur. Bir zaman televizora çıxdılar, tövbə etdilər, göz yaşı axıtdılar, dövlətdən əfv istədilər. Bu gün dünyada marksizm düşərgəsi tam dağılandan sonra, bu yolun yanlışlığı sübuta yetdiyi bir dövrdə onların qalıqlarını saxlamağa çalışırlar. Çünki buna ehtiyacları var. İslam etiqadlı sağlam tələbə hərəkatına qarşı hər yolla qüvvələr hazırlamaq istəyirlər. Nə adla olur olsun İslama qarşı qruplar yaratmağa hazırdırlar. Şahpərəst adı da onlar üçün qəbuldur. Sizin məsuliyyətiniz ağırdır, diqqətli olun. Həm dərs oxumalısınız, həm siyasi mühitinizi tanımalısınız, həm bu mühitə təsir göstərməlisiniz, həm özünüzü düşüncə baxımından və ruhən hazırlamalısınız. Bu respublikanın dayağı mənəviyyatdır. Qarşıda elə bir gün var ki, İslam Respublikasının beynəlxalq səhnədə çəkisi 10 dəfə bugünkündən ağır olacaq. Əmin olun ki, belə bir gün var. Siz gənclər həmin günü görəcəksiniz. Biz olmasaq da siz olacaqsınız. Görəcəksiniz ki, istər siyasi, istər elmi baxımdan İslam Respublikasının çəkisi bu günlə müqayisədə 10 qat artıb. Özünüzü həmin günə hazırlamalısınız.[1]

---

[1] Tələbə cəmiyyəti nümayəndələri ilə görüş, 2007

Tələbələrə sözüm budur ki, düşmənə diqqətli olun, düşməni yaxşı tanıyın, məbada bu işdə diqqətsizlik göstərəsiniz. Sizin zahirinizdə aranıza daxil olan yadları tanıyın. Gizli əlləri görün. Dünyada kimisə qəflətə, məlumatsızlığa görə tərifləməzlər. Bir insan gözlərini yumduğu üçün tərif olunmaz. Qafil, gözünü yummuş insan zərbə alırsa müqəssir ilk öncə özüdür. Diqqətli olun. Tələbə, tələbə zümrəsi dəyərli bir zümrədir. Düşmən tələbələri hədəfə alıb. Neçə illərdir çalışırlar ki, tələbələri dövlətə qarşı qoysunlar. Amma buna nail olmayıblar. Bundan sonra da nail olmayacaqlar. Əgər düşmən təsiri altında olan bir qrup bulanıq sudan balıq tutmaq istəsə, tələbə cəmiyyətlərinə daxil olsa, şüarlar səsləndirib aranı qarışdırmaq istəsə ümid etməsin ki, biz səhvə yol verəcəyik. Xeyr, biz səhv etməyəcəyik. Biz düşmənimizi yaxşı tanıyırıq. Tələbə bizim övladımızdır, bizim xalqa məxsusdur. Tələbə bu məmləkətin sərmayəsidir. Tələbə cəmiyyətinə nüfuz edib fəsad törətmək istəyən düşməndir. Tələbələr özləri diqqət göstərərək vəziyyəti dəyərləndirməlidir.[1]

Gənclər, tələbələr! İslam cəmiyyəti nihalı böyük imamın uzaqgörənliyi inqilabın ən həssas dönəmlərində universitetlərdə kök atdı, bəhrə verdi. İllər uzunu imamın müdrik tövsiyələri ilə bu nihal boy atdı. O zamandan iyirmi ildən çox ötüb. Bu inqilabi və xəlqi nihalın dəyəri yerində qalmaqdadır. Bu təşkilatların yarandığı dövrdə olduğu kimi bu gün də universitet mühiti iman və təqva məşəli götürənlərə ehtiyaclıdır. İslam cəmiyyətləri bu böyük missiyanın yerinə yetirilməsində uğur qazana bilər. Bu gün İslam Respublikası dünya birliyinin qarşısında

[1] Universitet hadisəsi ilə bağlı bəyanat, 2000

ədalət və azadlıq bayrağı qaldırıb. Bu respublika kinli düşmənlə üzbəüzdür. Müsəlman milləti bu dəyərlərdən uzaqlaşdırmaq üçün minlərlə plan cızırlar. Tələbə və gənclərimiz bir an da bu fitnəkarlıqdan qəflətdə qalmamalıdır. Düşmənin açıq və gizli əlləri universitetlər üçün təhlükədir və öz təxribatları üçün universitetləri ilkin hədəf sayırlar. Bu dəyərlərə can yandıranları, xüsusi ilə əziz tələbələri ayıq olmağa, diqqətli olmağa çağırıram. Siyasi və ideoloji fitnəkarlıq nişanələri göz qarşısındadır. İmanlı və agah gənclərimiz bu fitnələri bətndə boğa bilər. Haradasa fitnə yaransa bunun qarşısını almaq lazımdır. Böyük imam İslam cəmiyyətlərinə düşmən nüfuzu barədə dəfələrlə xəbərdarlıq etdi. Onun dəyərli tövsiyələri bu gün də əlimizdədir. Təşkilat üzvləri siyasi fəaliyyət kənarında öz mənəviyyatını da gücləndirməlidir. Düşmən qarşısında möhkəm sədd qurulmalıdır. Bu zaman gənclik səmimiyyəti və saflığı özü dövrün böyük məsuliyyətlərini öhdəyə alacaq.[1]

İmkan verməyin ki, düşmən İslam cəmiyyətlərində yuva qursun. Bu nöqtəyə çox diqqət yetirin. Universitetlərdə dini fəaliyyətlərə qarşı olanlar var. Çalışırlar ki, tələbələr İslam həqiqətləri ilə tanış olmasın, inqilabın simasından xəbərsiz qalsın. Çalışırlar ki, Tələbə İslam Cəmiyyətlərinə nüfuz etsinlər, aranı qarışdırsınlar. Mən bütün əziz gənclərdən ayıqlıq umuram. Düşmənin xəbis niyyətlərindən xəbərdar olun, bu fitnələrlə ağıl və şücaətlə mübarizə aparın. Aydın və xoşbəxt yolunuzu imanla davam etdirin.[2]

---

[1] İslam azad tələbə cəmiyyətlərinin illik konfransına müraciət, 2003
[2] Tələbə cəmiyyətləri ilə görüş, 2001

## *Gənclərin ayıqlığı düşmən nüfuzu qarşısında səddir*

Xoşbəxtlikdən bu gün elm meydanı açıqdır, elm və texnologiya sayəsində fəaliyyətlərə imkan yaradılıb. Dövlət məsulları gənclərin daha inamla meydana daxil olması üçün iqtisadiyyat sahəsində də onlara yol açmalıdırlar. Bu məmləkət siz gənclərindir. Bizim nəsil İslam və məmləkət üçün bacardığını edib. Bu gün məmləkət siz gənclərə məxsusdur. Gənclər özünü müxtəlif sahələrdə fəaliyyətə hazırlamalıdır. Düşmən nüfuzuna qarşı, ideoloji təxribatlara qarşı, bədbinlik yaradanlara qarşı mübarizə aparın. İslamı maddi və mənəvi qurtuluş yolu kimi görün.[1]

Siz gənclər ayıqlığınızı itirməməlisiniz. Öz dini və inqilabi biliklərinizi dərinləşdirin. Bəzi hədislərdə və dualarda nüfuza davamlı polad sipərdən danışılır. Düşmənin müdaxilələrinə və hücumlarına qarşı müqavimətdə iradəli olun. Öz kimliyinizi, şərəf və ləyaqətinizi hifz edin. Sizdən sonrakı nəsillər də bu yolu davam etdirər, pak ağac (şəcəreyi-təyibbə) kimi bu müqəddəs cərəyan davam edər. Maarif sütunlarını qəlbinizdə möhkəmlədin. Dini biliklərinizi dərinləşdirərkən Şəhid Mütəhhərinin əsərlərindən bəhrələnin. Bu əsərlər çox dəyərlidir. İstiqamətinizi, şüarlarınızı dərinləşdirin. Şəhid Mütəhhərinin kitablarından faydalanmağınız lazımdır. Fədakar komandanlardan qəflətdə qalmayın. Bu haqq yolun şəhidlərini tanıyın. Xüsusi ilə komandanlara diqqət yetirin. Amma diqqət yetiriləsi insan təkcə onlar deyil. Mən bir

---

[1] Qərbi Gilan əhalisi ilə görüş, 2012

kitab oxudum, o kitabda bəsic - könüllü qurupu üzvlərindən yazılırdı. Müqəddəs müdafiə illərindən söhbət gedirdi. İmanlı, şövqlü, təsirli insanların döyüş meydanında hüzuru çox təsirlidir. Onların bəyanatları çox dəyərlidir. Şəhadətə çatanların nurani vəsiyyətnamələri var. Bundan bəhrələnin. Mən özüm bu vəsiyyətnamələri oxuyanda çox faydalanıram. Bu bəhrə yolunu üzünüzə açın. Bu məmləkətin ümidi sizsiniz. İmanlı gənclər bu məmləkət və bu millət üçün ümid yaradırlar. Şübhəsiz ki, bütün bəsic - könüllülər bu qəbildəndir.[1]

İslam bayrağı altında oyanış inşallah bütün regionu xilas edəcək. Bu gün müşahidə edirik ki, İslam oyanışı böyük Yaxın Şərq məntəqəsində günbəgün genişlənir. Düşmən məğlubiyyət yaşayır. İslam oyanışına qarşı düşmən nə qədər çalışdısa da bu oyanış inkişafdadır, düşmən geri çəkilir.[2]

Amma bu o demək deyil ki, düşmən nüfuz etməkdən, fitnəkarlıqdan, aranı qarışdırmaqdan əl çəkib. Onlar təlaşdadır fitnəkarlığını və təxribatlarını davam etdirir. Namərd üsullara əl atır, zərbə vururlar. Buna qarşı ayıq olmalıyıq. Mənim sizə tövsiyə etdiyim hazırlıq sırf hərbi hazırlıq deyil. Mən mənəvi, ruhani hazırlığı nəzərdə tuturam. Düşmənin hərbi yolla bir iş görməsi gözlənilmir. Buna ümid etməsin. Amma ideoloji, siyasi baxımdan, təhlükəsizlik sahəsində fəaliyyətləri təhlükəlidir. İnsanlarımızın, cəmiyyətimizin etiqadında süstlük yaratmaq vasitəsi ilə məqsədə çatmaq istəyirlər. Bu bizim

---

[1] Fars ustanı bəsic - könüllülərlə görüş, 2009

[2] Qərbi Gilan əhalisi ilə görüş, 2012

təhlükəsizliyimizi hədələyir. Ümumi təhlükəsizlik bütün ölkə boyu inkişafdadır.[1]

Şəkk etmirəm ki, gələcək İslama məxsusdur. Gələcək İslamındır. Siz gənclər inşallah Allahın tövfiqi ilə o günü görəcəksiniz ki, bütün bu məntəqədə İslam bayrağı dalğalanır. Görəcəksiniz ki, iqtidarlı və izzətli İslam birliyi səhnədədir.[2]

## *Düşmən nüfuzu ilə mübarizədə bəsic - könüllülər mühüm amildir*

İnqilab və İslamı eşq və fədakarlıqla müdafiə edən bəsicimiz var. Bəsic bugünkü müqavimət qərargahı gənc və şövqlü qüvvələrdir. İslamın əvvəlindən bu günə qədər bu gənclər misilsiz olub, heç bir dövrdə bugünkü kimi fəal olmayıblar. Bu gənclər bir çoxları kimi eyş-işrət əyyaşlıqla gün keçirmək əvəzinə xalqa xidməti özlərinə vəzifə biliblər, İslamın keşiyində dayanıblar. Bu gənclər Quranla ünsiyyətdə olan gənclərdir. Bu gənclər öz ibadətləri ilə ata-analarını heyrətə gətirən gənclərdir. Biz hansı şəhidin evinə qədəm qoyduqsa ata-anaları dedilər ki, biz dini bu gənclərdən öyrəndik!

İnqilabın hünəri budur, imamın hünəri budur. Böyük imam düşmənin fəsada çəkmək üçün üzərində 50-60 il işlədiyi cəmiyyəti ayağa qaldırdı, onun gənclərini pak çiçəklər kimi tərbiyə etdi. Böyük imam buyurur: Bu fəthül-fütuhdur! Bəli, imamın fəthül-fütuhu, qələbələr qələbəsi mömin gənclərin tərbiyəsi idi. İmam elə gənclər tərbiyə etdi ki, dünyaya etinasızlıqla şəhadətə qucaq

---

[1] Kürdüstan tayfa başçıları ilə görüş, 2010
[2] Qərbi Gilan əhalisi ilə görüş, şəmsi 2012

açdılar. Tarix boyu məmləkətimizdə və ya başqa məmləkətlərdə nə zaman belə saleh, pak gənclər olub?!

Düşmən onları görmürmü?! Düşmən bu gəncləri inqilabın əlindən almaq istəyir. Gənclər arasında günah və fəsadı yaymaqla plan cızır. Bu fəsad dalğasının qarşısında kim dayanmalıdır? Bu təxribatların qarşısında kim dayanmalıdır? Ölkədəki əlaltıları vasitəsi ilə düşmənin həyata keçirdiyi fitnəkarlıqların qarşısında kim dayanmalıdır? Belələri bir qrup sadəlövh insanı da öz arxalarınca aparır. Bəsic əzəmətli bir nurdur. Bütün bunların qarşısında bəsic dayanacaq!

Bəsic hər şəhərdə bir neçə min insan deyil. Bəsic bütün mömin və hizbullah qüvvələrdir. İmamın "20 milyonluq bəsic" ifadəsi bu topluma aiddir. Düşmən güman etməsin ki, bəsic bir neçə milyondur. Məmləkətimizin bütün mömin və hizbullah qüvvələri bəsic sayılır. Qoy düşmənin gözü kor olsun! (İmam Həsən (ə) qərargahında bəsic günü bəyanat, şəmsi 1379)